

## Baş nazir sərəncam imzaladı - 11 rayonun İcra Hakimiyyətinə pul ayrıldı

*Baş nazir Əli Əsədov "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi barədə" sərəncam imzalayıb. "Unikal"ın məlumatına görə, sərəncam "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının...*

Səh.2


# UNİKAL

№43 (2038) 18 dekabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## "Dağlıq Qarabağ Azərbaycan ərazisidir" - Putin

*Rusiya Prezidenti Vladimir Putin bu gün keçirilən illik mətbuat konfransında Qarabağdakı son vəziyyətlə bağlı danışıb. "Unikal" xəbər verir ki, Putin jurnalistin Dağlıq Qarabağın gələcəyi ilə bağlı sualı cavablandırarkən bölgənin Azərbaycan ərazisi olduğunu bir daha bildirib. "Beynəlxalq hüquq baxımından bütün bu ərazilər Azərbaycanın ayrılmaz hissəsidir. Bir daha təkrar edirəm ki, Ermənistan özü Dağlıq Qarabağın müstəqilliyini tanımayıb. Bu şərtləri nəzərə alaraq demək istəyirəm ki, beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ da Azərbaycan ərazisidir",- deyə Putin qeyd edib.*

Səh.2

Səh.13



## Birləşmiş müxalifət Paşinyanı dalana dirəyib

## "Ermənilər bizim qanunları qəbul eləməsələr, Dağlıq Qarabağı tərk etməlidirlər"



*10 noyabr bəyanatından sonra Rusiya sülhməramlılarının Qarabağa gəlməsindən narazılıqlar oldu. Xüsusən də müxalif düşərgədən fərqli mövqelər sərgilənməyə başlandı. Bir neçə gün öncə Rusiya sülhməramlılarının Qarabağda yerləşmə xəritəsini yaymasından...*

Səh.4

## Sahil Babayevin kadrlarının rüşvət qalmaqalları



*Azərbaycan Respublikasında əmək və əhalinin sosial müdafiəsi sferasının müasir tələblərə uyğunlaşdırılması, əhalinin sosial təminatının gücləndirilməsi, onların rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyi tərəfindən ardıcıl və məqsədyönlü islahatların həyata keçirilməsinə baxmayaraq...*

Səh.10

## Ermənilərin Qarabağla bağlı yalanları ifşa olunmalıdır



*Azərbaycanın qazandığı zəfərdən sonra düşmən imzaladığı kapitulyasiya sənədinə baxmayaraq Dağlıq Qarabağda təxribatlar törətməyə davam edir. Məğlubiyyətlə barışmaq istəməyən ermənilər partizan dəstələri yaradaraq Azərbaycanın işğaldan azad etdiyi torpaqlara qarşı işğalçı iddialarını davam etdirirlər.*

Səh.15

# "Pozitiv olun ki, hamımız tutaq bitsin bu məsələ" - Röya



***Xalq artisti Röya Ayxan sosia mediadakı paylaşımı ilə diqqət çəkib.***

"Unikal" big.az-a istinadla xəbər verir ki, sənətçi "İnstagram" hesabında evindən görüntülər paylaşıb. O, paylaşımında karantin dönəmində evdə olduğundan sıxıldığını dilə gətirib: "O evdən bu evə, bu evdən o evə...Havalanacam mən. Amma pozitiv olun ki, hamımız tutaq bitsin bu məsələ".

Lakin izləyicilərin əksəriyyəti Röyanın evinin dəbdəbəli olduğunu yazıblar.

# "Pul qazananda yaxşı idi, indi yoxdur deyə biabır edilməlidir?" - Xatun



***Müğənni Xatun Əliyeva Əməkdar artist Mətanət İsgəndərlini müdafiə edib.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, sənətçi həmkarı haqda gəlini Cananənın dediklərini qınayıb.

"Xəbəri eşitdim çox üzüldüm. Mətanət xanımı yaxından tanıyır, onun pərəstişkarıyam. Çox saf, səmimi, sadə insandır. Uşaq kimidir, ona görə də onu belə incidirlər. Hamıya inanır, başına da belə işlər gəlir.

O, bu həyatda çox əziyyətlər çəkib. Çox zəhmətkeş insandır, Canı ağrıya-ağrıya ordan ora, burdan bura qaçdığını görmüşəm. Bütün ailənin yükü tək onun çiyinlərində olub. Təkbaşına balalarını, bacı, qardaşını saxlayıb. Bütün külfətə o baxıb. İndiki mövcud duruma görə pul qazanmır, toy yoxdur, nə etsin? Bu xanım necə dolansın? Kaş ailə məsələsini ictimailəşdirməzdiniz, öz aranızda həll edərdiniz. belə bir şəraitdə hamının problemi ola bilər. Bunu bu formada danışmaq, müsahibə vermək insanlığa sığmır. Pul qazananda yaxşı idi, indi yoxdur deyə biabır edilməlidir?".

Qeyd edək ki, M.İsgəndərlinin gəlini və oğlu Kərim ayrılıb. Gəlin hazırda 3 uşaqla kirayədə yaşadığını, ona həyat yoldaşının dəstək olmadığını bildirib.



# Tanınmış meyxanaçı pulsuzluqdan taksi sürməyə başladı

***Pandemiya ərəfəsində ciddi maddi sıxıntılar yaşayan meyxanaçı Samirə Yusifqızı karantin sərtləşdikdən sonra vəziyyətinin daha da çətinləşdiyini bildirib.***

"Unikal" bildirir ki, "yenisabah.az"a danışan söz ustadı pul qazanmaq üçün taksi sürdüyünü deyib: "Vəziyyət yaxşı deyil. Taksi sürürəm, elə bu dəqiqə taksideyəm, müştəri aparıram. Artıq sürücülük etməyə başladım, vəziyyət belədir. Bundan sonra nə edəcəyimi bilmirəm. Yalnız düşünürəm ki, maşının gündəlik icarə pulunu necə verim, necə benzin töküb şəhərə çıxım ki, axşam evimə 5 manat pul apara bilim. Hələ ki başqa heç nə fikirləşmirəm".

59 yaşlı sənətçi bir müddət əvvəl satışa çıxardığı evinin hələ də satılmadığını qeyd edib: "Əhmədlidəki evimi satışa qoymuşdum. O da hələ satılmayıb. Heç olmasa o satılsaydı, borclarımın bir qismini ödəyərdim".

Xatırladaq ki, S.Yusifqızı bir müddət əvvəl pulsuzluqdan sosial şəbəkə hesabında kürk, dəri gödəkcələrini satışa çıxarmışdı.

# Aktyorun maddi sıxıntısı var: "Çarə tapmıram"

***"Səhhətimdə problem var. Əlim əsir. Sinirlə bağlı problemdir. Ona görə də işləmirəm. Bir neçə yerə müraciət etmişəm. Söz veriblər. Yaqin kömək edərlər".***



"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri aktyor Allahverdi Yolçuyov "Elgizlə izlə" proqramında deyib. Sənətçi beş ildir çalışmadığını, maddi sıxıntıları olduğunu söyləyib:

"Ancaq həkimlərdəyəm. Klinikalar təmənnasız müayinə edirlər. Artıq çıxış yolu tapa bilmirəm. Nəsə bilsəm edərəm. Ailəmə bağlı adamam, onları düşünürəm.

İndi kürəkənim kömək edir, amma onun da 3 uşağı var. Dostlarım da yardım edir. 20-ildən çox teatrda çalışmışam. Əvvəl dublyaj var idi, gəlir olurdu. İndi o da yoxdur".

# "Çox gözəl sevirəm, qəlbim hiss etdirir" - Günel

***Müğənni Günel Zeynalova sevgi paylaşımı ilə müzakirələrə səbəb olub.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, sənətçi yeni şəklini yayımlayaraq bunları yazıb: "Çox gözəl sevirəm, qəlbim hiss etdirir. Gözlərimlə, əllərim toxunmasa belə səndədir. Təkli xoşbəxtlik olmur, adamım. "Möcüzəsən" deyə soruşana deyil, möcüzəsindən əmin olana... İtən nağıllara deyil, yorulmadan izah edənlərə... Sən bilə bilməzsən bunları... Bəlkə inanaram".

İzləyiciləri Günelə yeni eşq yaşaması ilə bağlı suallar ünvanlayıblar.



## Azad edilən əsir və girovların vəziyyəti necədir?

***"Məlum olduğu kimi, Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan irəli gələn vəzifələrdən biri əsir və girovların, meyitlərin humanitar məqsədlərlə dəyişdirilməsinin təmin olunmasıdır. Tərəflər ilk növbədə döyüş bölgəsində qalmış hərbçilərin meyitlərinin ərazilərdən götürülməsi prosesinə başlayıblar".***

"Unikal" xəbər verir ki, bunu AzərTac-a müsahibəsində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov deyib. Onun sözlərinə görə, bu istiqamətdə işlər Rusiya Federasiyasının sülhməramlı qüvvələrinin və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə həyata keçirilir: "Proses başlayandan bu günədək döyüş bölgəsindən 314 Azərbaycan hərbçisinin, 775 Ermənistan hərbçisinin meyiti çıxarılıb. Hazırda bu proses davam etdirilir. Digər vacib vəzifə isə əsir və girovların "hamının-hamıya" prinsipi əsasında azad edilməsidir. Dövlətimizin başçısı İlham Əliyevin göstərişi ilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 2020-ci il dekabrın 14-də Azərbaycan Respublikasının 14 vətəndaşı erməni əsirliyindən və girovluğundan azad edilərək Bakıya gətirilib. Onlardan 12 nəfəri Vətən müharibəsində müxtəlif səbəblərdən əsir düşmüş, digər 2 nəfər isə 2014-cü ilin iyul ayında Kəlbəcər rayonu ərazisində girov götürülərək qeyri-qanuni həbs edilmiş Dilqəm Əsgərov və Şahbaz Quliyevdir. Azad edilmiş vətəndaşlarımız hazırda dövlətimiz tərəfindən hərtərəfli diqqət və qayğı ilə əhatə edilməklə müayinə və müalicə olunur, sağlamlıqlarını bərpa edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə humanizm prinsiplərindən çıxış edərək birtərəfli qaydada Azərbaycan Respublikası Müdafiə Nazirliyinin iştirakı, ATƏT-in və BQXK-nın vasitəçiliyi ilə Dövlət Komissiyası cari ilin 29 oktyabr, 2 dekabr, 9 dekabr və 11 dekabr tarixlərində 9 ermənini qarşı tərəfə təhvil verib. Həmin proseslər zamanı Azərbaycan tərəfi humanizm prinsiplərinə hörmətlə yanaşaraq, ilk növbədə yaşlı insanları qeyd-şərtsiz azad edib, onların öz yaxınlarına qovuşmasını təmin edib".

# Hüseynqulu Bağırovun başı böyük dərddə...

## Sabiq nazirin vəzifədə olduğu müddətdə milyonlarla manat hara "buxarlanıb"?

***Azərbaycanda daha bir keçmiş nazirin vəzifədə olarkən külli miqdarda dövlət vəsaitinin havaya buxarlanmasına dair faktların araşdırılmağa başlanılması gözlənilir. Bu barədə "Unikal"a məlumatlı mənbələrdən bildirilib.***

Söhbət Ekologiya və Təbii Sərvətlər Nazirliyində (ETSN) yol verilən mənimsəmə faktlarından gedir.

Xatırladaq ki, bir müddət əvvəl Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeorologiya Departamentinin direktoru olmuş Əkbər Həsənov, Departamentin keçmiş baş mühasibi İlqar Hacıyev, departamentin digər əməkdaşları - Orxan Qasımov, Tural Hacızadə və Təbriz Əliyevin cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Təqsirləndirilən şəxslər prosesdə sabiq nazir Hüseyn Bağırovu ittiham ediblər.

Bağırov isə özü barəsində ittihamları yalanlayıb və iftira adlandırıb.

Lakin məhkəmə prosesinin gedişi məsələnin düşünüldüyü qədər bəsit olmadığını və ETSN daxilində rüşvətin, korrupsiyanın dərin kök saldığını göstərib.

Qəzetimizə daxil olan məlumatlar isə H.Bağırovun ETSN-ə rəhbərlik etdiyi dönəmdə həqiqətən ciddi korrupsiyaya yol verildiyini açıq göstərir. Bu korrupsiya hərəkətləri yalnız təxminlərdən ibarət deyil. Eyni zamanda rəsmi təftişlər də eks nazirin vəzifədə olarkən inanılmaz yeyintilərə ya göz yumduğunu, ya da "yaşıl işıq" yandırdığını əyani göstərir. Məsələn, Azərbaycan Respublikası Hesablama Palatasının Kollegiyası müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq 01 yanvar 2015-ci il tarixdən 01 yanvar 2017-ci il tarixədək olan dövrdə dövlət büdcəsindən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" Açıq Səhmdar Cəmiyyətinə (Cəmiyyət) ayrılan vəsaitlərin proqnozlaşdırılması və istifadəsi vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə hesabatı müzakirə edərək təsdiq edib. Hesabata əsasən, sözügedən cəmiyyət tərəfindən büdcə vəsaitlərinə dair proqnozlar tərtib edilərkən əsas fəaliyyəti üzrə qulluq göstərilən yaşıllıq sahələri əvvəlki illərin faktiki göstəricisinə nisbətən kəskin fərqlə çox göstərilib və nəticədə xərclərə olan proqnoz məbləğləri ötən illərin icra məbləğlərindən çox hesablanılmış, büdcə vəsaitinin istifadəsi üzrə əməyin ödənişi ilə bağlı Vahid Tarif Cədvəli üzrə dərəcələrə görə müəyyən olunmuş məbləğlərdən artıq vəsaitlər proqnozlaşdırılıb və icra edilib, büdcə vəsaitlərinə artıq tələbat yaradılmış, öhdəliyə qəbul olunmadığı halda 2015-ci ildə 2 yaşıllaşdırma idarəsinin içməli suya görə əvvəlki dövrün kreditor borcları ödənilib, tabeliyində olan yaşıllaşdırma idarələri üzrə ştat cədvəlləri təsdiq edilərkən vahid yanaşma mövcud olmayıb, uyğun xüsusiyyətli müxtəlif yaşıllıq sahələri üzrə bir bağbana düşən xidmət sahəsi fərqli olub.

Torpağın əkinə hazırlanması və qulluq işlərinin bir sıra hallarda tələb olunan səviyyədə aparılmaması səbəbindən 2015-ci ilin nəticələrinə görə Cəmiyyətin 1 yaşıllaşdırma idarəsi üzrə bitiş faizi mövcud normadan 3,2% az olub. Cəmiyyətin xidmət göstərdiyi bəzi sahələrin yerli icra hakimiyyəti orqanlarının sərəncamları əsasında müvəqqəti istifadəyə götürülməsi büdcə vəsaitlərinin xərclənməsində müəyyən risklər yaradaraq, 1 halda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin inkişafı departamentinin balansında olan meşə zolağına 2016-cı ilin sentyabr-dekabr ayları ərzində Cəmiyyət tərəfindən xidmət göstərilib.

Cəmiyyətin tabeliyində yaşıllaşdırma idarələri tərəfindən salınan yaşıllıq ərazilərində suvarma və damcılı suvarma sistemlərinin quraşdırılması, təmir-bərpası, yenidənqurulması və onların istismarını həyata keçirən ixtisaslaşmış funksional idarəsi mövcud olduğu halda Cəmiyyətin idarə aparatı tərəfindən alınmış bəzi suvarma boru və aksesuarlarının 2015-2016-cı illərdə funksional fəaliyyətinə aid olmayan digər idarələrə verilməsi hallarına rast gəlinib.

Bu da azmış kimi, 2017-ci ildə ETSN tərəfindən geoloji-kəşfiyyat və topoqrafiya-geodeziya axtarış işlərinə yönəldilmiş vəsaitlərin istifadəsinə dair auditin nəticələri haqqında hesabat təsdiq olunub. Auditlə müəyyən edilib ki, 2014-cü ilin Dövlət Sifarişində "Seysmoaktiv zonaların seysmogeodinamik şəraitinin öyrənilməsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə palçıq vulkanlarında müşahidə işlərinin aparılması"na dair geoloji işlər nəzərdə tutulsa da, həmin işlər Xidmətin "Obyektlər Planı"na daxil edilməyərək icra olunmayıb, "Obyektlər Planı"nda nəzərdə tutulan bəzi obyektlər üzrə layihənin smeta dəyəri, hər ilin başlanğıcına qalıq smeta dəyəri, yekun hesabatın Elmi-Texniki Şuraya təqdim olunma tarixi göstərilməyib, radioaktivlik xəritəsinin tərtibi üzrə geoloji-kəşfiyyat işlərinin yerinə yetirilməsi haqqında aktlarda nüvə geofiziki axtarış işlərinin respublikanın hansı ərazisində yerinə yetirildiyi qeyd edilməyib, bəzi hallarda başa çatdırılmış işlərə çəkilən məsrəflərin hesabatdan silinmə dövrü ilə hesabatın Arxiv Fonduna təhvil verilmə dövrü arasında uyğunsuzluqlar mövcud olub, başa çatdırılan geoloji-kəşfiyyat işləri üzrə hesabatlar Arxiv Fonduna təhvil verilsə də, həmin işlərə çəkilən məsrəflərin ekspedisiyaların mühasibat hesabatlarından vaxtında silinməməsi səbəbindən hesabatlarda nöqsanlara yol verilib.

Dövlət sifarişinin müvafiq bəndində xüsusi geoloji təyinatlı əsas vəsaitlərin, komplektləşdirilmə məmulatlarının və xüsusi materialların alınması üçün vəsait nəzərdə tutulduğu və həmin vəsait hesabına Xidmət tərəfindən mərkəzləşdirilmiş qaydada tələb olunan əsas vəsaitlər, məmulat və materiallar ilə ekspedisiyalar əvəzsiz qaydada təmin edildiyi halda, ekspedisiyalar tərəfindən onlara ayrılmış vəsaitin təyinatı dəyişdirilərək xüsusi təyinatlı əsas vəsaitlərin, komplektləşdirilmə məmulatlarının və digər bu kimi material ehtiyatlarının alınmasına yönəldilib, ekspedisiyalar tərəfindən bəzi obyektlərin layihə-smeta sənədlərində xərc elementləri üzrə (əmək haqqı, material ehtiyatları, nəqliyyat və s. xərclər) norma kimi müəyyən edilən məbləğ ilə geoloji-axtarış və qiymətləndirmə işlərinin aprılmasına çəkilən faktiki xərclərin məbləği fərqli olub.

Geoloji-kəşfiyyat və topogeodeziya-axtarış işlərinin aparılmasını tənzimləyən normativ-hüquqi aktların qəbulu istiqamətində tədbirlər həyata keçirilməyib, normativ-hüquqi akt qəbul etmək hüququ olmayan nazirliyin Layihələndirmə Mərkəzi tərəfindən təsdiq edilmiş "Geoloji-kəşfiyyat işlərində iş vahidinə əmək sərfi norması və smeta qiymətləri Toplusu"na əsasən müəyyən olunub, eyni zamanda Mərkəz tərəfindən əsaslandırma aparılmadan əmək haqqı xərclərinin 15%-i həcmində xidmət haqqı yerinə yetirilmiş işlərə çəkilən əsas xərclərin tərkibinə daxil edilib.



Mənbələrin bildirdiyinə görə, H.Bağırov özü barəsində "korrupsiyadan uzaq nazir" obrazı yaratmağa çalışsa da, reallıq bunun əksini göstərir: ETSN-də kifayət qədər böyük məbləğlərlə ifadə olunan yeyinti halları müşahidə edilib. Adıçəkilən nazirliyin Hüseynqulu müəllimin nazir postu tutduğu dövrü ilə bağlı yeyintilərin baş alıb getdiyini söyləyən qaynaqlar həmin dövrlə bağlı köklü araşdırmalar aparılacağı təqdirdə ortaya daha ciddi mənimsəmələrin çıxacağı qənaətindədir.

Sabiq nazirin adının hallandığı məhkəmə prosesinin bu qənaətləri möhkəmləndirdiyini düşünən mənbələr cənab Bağırovu qarşıda olduqca çətin mərhələnin gözlədiyi fikrində həmrəydirlər. Onların fikrincə, ETSN-in keçmiş rəhbərinin fəaliyyəti təftişə açıq olduğu təqdirdə yuxarıda sadalananlarla müqayisədə daha ciddi mənimsəmələrin aşkarlanacağı şübhə doğurmur...

***Orxan Həsənli***

# Birləşmiş müxalifət Paşinyanı dalana dirəyib

## Sabiq general və polkovniklər məğlub baş naziri hədələdilər

***Ermənistanın baş naziri Nikol Paşinyan 31 dekabrda istefa verə bilər. "Unikal" qəzeti xəbər verir ki, bu barədə "Hraparak" qəzeti məlumat yayıb. Qəzet iddia edir ki, N.Paşinyan istefası barədə məlumatı Yeni il mesajı ilə verəcək. Qeyd edək ki, noyabr ayının əvvəlindən müxalifət, erməni xalqı Nikol Paşinyanın baş nazir postundan istefasını tələb edir.***

Ancaq hələlik Paşinyan administrasiyası bu barədə rəsmi bir açıqlama verməyib. Bu səbəbdən də Ermənistanda daxili gərginlik səngimir. Xüsusən də köhnə qvardiyanın təşəbbüsü ələ almaq cəhdləri qarşıdakı dövrdə Ermənistanda vəziyyətin daha da kritikləşəcəyindən xəbər verir.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş yüksək rütbəli bir qrup şəxsi bəyanat yayıblar. Onlar bəyanatda ölkəni düşdüyü böhran vəziyyətindən çıxarmaq üçün hakimiyyət dəyişikliyinin vacibliyini bildiriblər. Sabiq istefa vermiş general və polkovniklər tərəfindən imzalanmış bəyanatda Ermənistan ordusundakı mənəvi və psixoloji mühitdən, Azərbaycanla sərhəd problemlərini həll edə bilməməsindən, Qarabağda Azərbaycan Silahlı Qüvvələri ilə vaxtaşırı toqquşmalardan, dövlət orqanlarının qeyri-mütəşəkkilliyindən və fəaliyyətsizliyindən, müxalif fikirli insanlara təzyiq cəhdlərindən bəhs olunur. Bəyanat müəllifləri təhlükəsizlik qurumlarını daxili siyasi müzakirələrə cəlb etmək cəhdlərini, diplomatiyanın passivliyini, təşəbbüskar olmamağı və bütün məsuliyyəti Rusiya rəhbərliyinə vermək səylərini pisləyir. Bütün bunların nəticəsi olaraq ölkənin təhlükəsizlik sisteminin son dərəcə zəiflədiyini qeyd edir. Onların sözlərinə görə, əgər hakimiyyətdə dəyişiklik baş verməzsə, Ermənistanı acınacaqlı son gözləyir. Sabiq yüksək rütbəli şəxslər Paşinyana mesaj göndəriblər ki, əgər onların çağırışına cavab gəlməsə, Qarabağda müharibənin uduzulma səbəbləri ilə bağlı araşdırma qrupu yaradacaqlar.

MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə "Unikal"a açıqlamasında deyib ki, Ermənistanda köhnə qvardiya Qarabağ kartından istifadə etməyə başlayır. Onun sözlərinə görə, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin məlum bəyannaməsi erməni müxalifəti tərəfindən sabotaj edilməyə başlayıb:



"Ermənistanın sabiq prezidenti Robert Koçaryan Moskvaya gedir. Ermənistanda hazırda daxili siyasi böhran hökm sürməkdədir və Nikol Paşinyana qarşı müxalifətin vahid namizədi elan edilən Vazgen Manukyanı R. Koçaryan idarə edir. Robert Koçaryanın əsas planı Nikol Paşinyanı devirməkdir. Məhz Moskva səfəri öncəsi Koçaryan Paşinyana facebook səhifəsindən " Rədd ol get " mesajını verdi. Koçaryanın bu qətiyyəti təsadüfi deyil və ona "gəlirəm" mesajıdır. Ermənistanda davam edən siyasi böhran və R. Koçaryanın fəallığı, Dağlıq Qarabağda vəziyyəti gərginləşdirə bilər. Nəzərə alaq ki, Laçın dəhlizi vasitəsilə Ermənistan rəsmiləri Xankəndinə rahat gəlib - gedir və Rusiya sülhməramlı qüvvələri onları müdafiə edir. Belə olan təqdirdə Azərbaycan Laçın dəhlizinə konkret nəzarət etməyi tələb etməlidir. Ötən gün Ermənistan Ordusunun Qərargah rəisi Xankəndinə gəldi. Bu, Azərbaycanın suverenliyini və dövlət sərhəddini pozmaqdır. Ona görə də mütləq şəkildə Ermənistan və Rusiya Xankəndində yenidən terror və separtçı mərkəz yaradacaqlar".

Politoloq onu da nəzərə çatdırıb ki, hazırkı situasiyada Nikol Paşinyanın kifayət qədər ölkə daxilində mövqeyi güclüdür: "Onun xalq tərəfindən devrilməsi mümkün deyil. Müxalifətin ciddi xalq dəstəyi olmadığı üçün Paşinyan hakimiyyətini gücləndirməyə çalışacaq. Çünki, müxalifətin xalqa aydın və strateji bir mesajı yoxdur. Azərbaycana və Türkiyəyə qarşı nifrət çağrışları var. Xalqa da hazırkı müharibədən aldığı böyük bir trmavadan sonra Qarabağ məsələsində maraqlı deyil. Nikol Paşinyan vəziyyəti gərginləşdirən Arayik Arutyunyanı da aradan götürəcək. Çünki, Rusiya konkret olaraq Arayik Aratunyan və Koçaryana dəstək verirır. Robert Koçaryanın Moskva səfərinin məqsədi Ermənistanı 90-cı illərə qaytarmaqla ölkəni yenidən Qarabağ məsələsinə qaytarmaqdır. Bu, Kremlin planıdır. Ermənistan əhalisi ona görə də R. Koçaryana dəstək verməyəcək. Azərbaycana qarşı bundan sonra hər hansı bir məkrli plan uğurlu olmayacaq. Azərbaycan anti-terror əməliyyatlarını davam etdirib, təmizləmə işləri aparacaq. Türkiyə ilə birgə fəaliyyətini inkişaf etdirəcək".

***Z.Məmmədli***

# Vətən Müharibəsində şəhid olan polkovnik-leytenantın şərəfli ömür yolu

***44 gün davam edən Vətən müharibəsindən sonra ərazi bütövlüyümüz bərpa olundu. "Dəmir yumruq" əməliyyatı başlayandan gecə-günsüz başına od yağan etməni işğalçıları kənd və şəhərlərimizi, strateji yüksəklikləri öz əzəli sahibinə qaytarmağa məcbur edildi. Bakının baş meydanında keçirilən Zəfər paradın isə Azərbaycanımızın gücünün, qüdrətinin və milli birliyinin ən gözəl nümayişi idi. 30 il həsrətində olduğumuz bu qələbə sevincini bizə yaşatdıqları üçün rəşadətli Ordumuzun əsgər və zabitlərinə, Vətən torpağını qanları ilə daha da müqəddəsləşdirən şəhidlərimizə, qazilərimizə borcluyuq.***

Vətən müharibəsinin gerçək qəhrəmanlarından biri də polkovnik-leytenant Rəşad Quliyevdir. Erməni faşistlərinə qan udduran, döyüşlərdəki şücaətinə görə "Canavar" ləqəbi alan və 37 yaşında şəhidlik zirvəsinə ucalan Rəşad Quliyev.

### Ata arzusu, ana xeyir-duası

Aqillərdən biri deyib ki, qəhrəmanlığı nə öyrənmək olur, nə də tərgitmək. Şəhid qəhrəmanımızın həyati ilə yaxından tanış olandan sonra bu müdrik kəlamın doğruluğuna bir daha inanırsan. Rəşadın valideynləri əslən Quba rayonundandırlar, özü isə 1983-cü il sentyabrın 23-də Bakıda doğulub. Rəhmətlik atası Rəşid kişi ağlı, bacarığı, cəldliyi ilə yaşıdlarında seçilən oğlunu hərbçi görmək arzusunda idi. Balaca Rəşad da atasının arzusunu həyata keçirir, Xətai rayonundakı A.Xəlilov adına 263 saylı orta məktəbin 8-ci sinfini bitirib



sənədlərini general Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verir və kursant formasını geyinmək istəyinə çatır. 2000-ci ildə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbinə qəbul olunur. Həyatdan çox erkən köçən atasının arzusunu həyata keçirmək üçün bütün çətinliklərə sinə gərir, dayısı Əlihüseyn Cəfərova söz verir ki, zabit mundirini son nəfəsinə qədər ləyaqətlə daşıyacaq.

Ali təhsilini başa vuran gündən gənc zabit Rəşad Quliyev cəbhə bölgələrində xidmət edir. Anası Mətanət xanımın xeyir-duası ona bu illər ərzində od-alovun içərisində ən çətin tapşırıqları uğurla yerinə yetirməkdə yardımçı olur, dəfələrlə komandanlıq tərəfindən mükafatlandırılır. "Aprel döyüşləri" kimi tarixə düşən savaş "Canavar" ləqəbli Rəşad Quliyevin zabit bacarığını bir daha ortaya çıxarır, Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə düşməni ərazilərimizdən qovanlardan biri də məhz onun başçılıq etdiyi dəstə olur.

Bu il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günlərindən igid "Canavar" və onun qorxmaz əsgərləri ən ağır döyüşlərdə iştirak edirlər. Anası Mətanət xanım həmin günləri belə xatırlayır: "Tovuzda baş verən hadisələrdə yaxın dostu general Polad Həşimovun şəhid olması Rəşada çox pis təsir etmişdi. Hər dəfə zəng edəndə Poladdan danışırdı, deyirdi ki, qoy ermənilərin başını əzək, Bakıya gələn kimi gedib general qardaşımın məzarını ziyarət edəcəm. Müharibə başlayan gündən telefon zənglərinin sayı azalmağa başladı. Mən də, ailəsi də vəziyyəti başa düşürdük, bütün günü ona, bütün əsgər və zabitlərimizə dua edirdik. Əlaqə saxlayanda bizə ürək-dirək verirdi, tezliklə qalib kimi dönəcəyini deyirdi..."

### Rəşadın Dəryası və İncisi

"Dəmir yumruq" adı altında uğurla davam edən Vətən müharibəsində daim ön sıralarda irəliləyən polkovnik-leytenant Rəşad Quliyev kənd və şəhərlərimizin işğaldan azad edilməsində şücaət göstərir. Ordumuz Cəbrayıl rayonunu azad edəndən sonra döyüşçü dostlarının telefonun yaddaşına köçürdükləri kadrlardan "Canavar"ın əzəmətli obrazı boylanır, Rəşad "Doyunca Cəbrayıl havasını alırıq"-deyir.

Anası Mətanət xanımın dediklərindən: "Yaxın qohumumuz rəhmətə getdiyindən Qubada idim, gördüm Rəşad telefonuma mahnı göndərib, sözləri də belə idi-Məni axtar darıxanda...

Bir neçə gün onunla əlaqə saxlaya bilmədik, oktyabrın 7-də zabit yoldaşları qardaşım oğlu Orxana zəng vurub deyiblər ki, Rəşad Cəbrayıl-Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Qələbədən sonra Bakıya gəlib general-mayor Polad Həşimovun məzarı üstünə gül qoymağı çox istəyirdi, qismətə bax ki, oğlumu II Fəxri Xiyabanda-Poladın yanında dəfn etdilər".

Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin 15 dekabr 2020-ci ildə imzaladığı sərəncamla Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün polkovnik-leytenant Rəşad Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

Qarabağı erməni faşistlərindən azad etmək və fidan balaları Dərya ilə İncini xoşbəxt böyütmək 37 yaşlı Rəşadın ən böyük arzuları idi. İgid zabit bir arzusunu öz qanı, canı bahasına həyata keçirdi-torpaqlarımız erməni işğalından təmizləndi. İnanırıq ki, qızları Dərya və İnci Vətənə layiqli övlad kimi böyüməklə şəhid atalarının ikinci arzusunu da reallaşdıracaqlar.

***Etibar CƏBRAYILOĞLU***

# "Bütün insanlara kömək əlimizi uzadırıq" - Ərdoğan



***"Həzrət Mövlanadan aldığımız ilhamla dilinə, dininə, irqinə baxmadan bütün insanlara kömək əlimizi uzadırıq".***

Unikal.org xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. "Öldürməkdən başqa şey bilməyən çağdaş dövrün qudurlarına baxmayaraq, Mövlananın yandırdığı sevgi və hikmət məşəlini daşımağa davam edəcəyik", - o vurğulayıb.

# "Dağlıq Qarabağ Azərbaycan ərazisidir" - Putin



***Rusiya Prezidenti Vladimir Putin bu gün keçirilən illik mətbuat konfransında Qarabağdakı son vəziyyətlə bağlı danışıb.***

"Unikal" xəbər verir ki, Putin jurnalistin Dağlıq Qarabağın gələcəyi ilə bağlı sualı cavablandırarkən bölgənin Azərbaycan ərazisi olduğunu bir daha bildirib. "Beynəlxalq hüquq baxımından bütün bu ərazilər Azərbaycanın ayrılmaz hissəsidir. Bir daha təkrar edirəm ki, Ermənistan özü Dağlıq Qarabağın müstəqilliyini tanımayıb. Bu şərtləri nəzərə alaraq demək istəyirəm ki, beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ da Azərbaycan ərazisidir",- deyə Putin qeyd edib.

# Melioratorlar "YAŞAT" Fonduna 200 min manat ianə ediblər





***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti "YAŞAT" Fonduna 200 min manat ianə edib.***

Unikal.org xəbər verir ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-i Vətən müharibəsində iştirak edən şəhidlərimizin ailələrinə və yaralananlara dəstəyini bildirərək "YAŞAT" Fonduna 200 min manat məbləğində vəsait köçürüb.

Xatırladaq ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "YAŞAT" Fondu yaradılıb.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NABO1350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500

# "Vətən müharibəsində 42 tibb işçisi şəhid olub, 159-u yaralanıb" - RƏSMİ

***"Vətən müharibəsi zamanı digər hərbi qulluqçularla yanaşı, Müdafiə Nazirliyinin tibbi personalı da böyük qəhrəmanlıq və şücaət göstərib".***

Unikal.org xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Müdafiə Nazirliyi Tibb Xidməti Baş İdarəsinin rəis müavini, polkovnik Elxan İbrahimov bildirib.

Onun sözzərinə görə, hərbi əməliyyatlar zamanı 159 tibb işçisi yaralanıb, ümumilikdə 42 tibb işçisi xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Onlardan 9-u həkim, 7-si feldşer, 26-sı sanitardır.

# Baş nazir sərəncam imzaladı - 11 rayonun İcra Hakimiyyətinə pul ayrıldı

***Baş nazir Əli Əsədov "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi barədə" sərəncam imzalayıb.***



"Unikal"ın məlumatına görə, sərəncam "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 dekabr tarixli 2343 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə imzalanıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müvafiq tapşırıqlar verilib.

-"2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 dekabr tarixli 2343 nömrəli Sərəncamının 1-ci hissəsi ilə müəyyən edilmiş qaydada mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 noyabr tarixli 612s nömrəli Sərəncamı ilə yaradılmış işçi qrupları tərəfindən təqdim edilən siyahılar əsasında hesablanmış ilkin olaraq 9 068 128 (doqquz milyon altmış səkkiz min yüz iyirmi səkkiz) manat (bank xidməti ödənişləri də daxil olmaqla) məbləğində vəsaitin 2020-ci il üçün Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondunun vəsaiti hesabına maliyyələşdirilməsini təmin etsin;

- bu Sərəncamın 1.1-ci bəndində göstərilən vəsaitin 2 920 500 (iki milyon doqquz yüz iyirmi min beş yüz) manatının Gəncə Şəhər İcra Hakimiyyətinin, 67 000 (altmış yeddi min) manatının Mingəçevir Şəhər İcra Hakimiyyətinin, 1 848 500 (bir milyon səkkiz yüz qırx səkkiz min beş yüz) manatının Ağdam Rayon İcra Hakimiyyətinin, 586 000 (beş yüz səksən altı min) manatının Ağcabədi Rayon İcra Hakimiyyətinin, 233 000 (iki yüz otuz üç min) manatının Bərdə Rayon İcra Hakimiyyətinin, 124 000 (bir yüz iyirmi dörd min) manatının Beyləqan Rayon İcra Hakimiyyətinin, 41 000 (qırx bir min) manatının Cəbrayıl Rayon İcra Hakimiyyətinin, 4 000 (dörd min) manatının Naftalan Rayon İcra Hakimiyyətinin, 2 296 500 (iki milyon iki yüz doxsan altı min beş yüz) manatının Tərtər Rayon İcra Hakimiyyətinin, 494 500 (dörd yüz doxsan dörd min beş yüz) manatının Füzuli Rayon İcra Hakimiyyətinin və 421 500 (dörd yüz iyirmi bir min beş yüz) manatının Goranboy Rayon İcra Hakimiyyətinin müvafiq xəzinə hesabına ödənilməsini təmin etsin.

- Maliyyə Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanları mülki əhali üçün hesablanmış maddi yardımların işçi qrupları tərəfindən Dövlət Komissiyasına təqdim edilən siyahılar əsasında 10 (on) gün müddətində yaşayış evlərinin sahiblərinin və ya onların qanuni nümayəndələrinin bank hesablarına (o cümlədən kart hesablarına) ödənilməsini təmin edib, nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə hesabat təqdim etsinlər.

# Məktəblərdə qiymətləndirmə bu qaydada keçiriləcək

***Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"na əsasən, Təhsil Nazirliyi tərəfindən mütəmadi olaraq ümumi təhsil pilləsində milli qiymətləndirmələr təşkil olunur.***



Təhsil Nazirliyindən "Unikal"a verilən məlumata görə, sistemli tədqiqat şəklində aparılan qiymətləndirmənin məqsədi tapşırıqların verilməsi, problemlərin həlli üçün konkret istiqamətlərin müəyyənləşdirilməsidir.

Milli qiymətləndirmənin nəticəsi şagirdlərin məktəbdaxili qiymətləndirmə üzrə nəticələrinə təsir göstərmir, ancaq tədqiqat xarakterlidir.

Qiymətləndirmə prosesində IV sinif şagirdlərinə tədris dili üzrə 15, riyaziyyat üzrə 15 və ingilis dili üzrə 10 sual olmaqla, ümumilikdə 40 tapşırıq (qiymətləndirmənin müddəti - 1 saat 20 dəqiqə), VI sinif şagirdlərinə tədris dili üzrə 20, riyaziyyat üzrə 20 və ingilis dili üzrə 20 sual olmaqla, ümumilikdə 60 tapşırıq (qiymətləndirmənin müddəti - 2 saat), IX sinif şagirdlərinə tədris dili üzrə 30, riyaziyyat üzrə 30 və ingilis dili üzrə 30 sual olmaqla, ümumilikdə 90 tapşırıq təqdim olunacaq (qiymətləndirmənin müddəti - 3 saat).

# Bakıda modul tipli xəstəxanada partlayış baş verib? - RƏSMİ AÇIQLAMA

***Fövqəladə Hallar Nazirliyi qurumun Tibb Mərkəzinə məxsus, koronavirusla xəstələr üçün nəzərdə tutulmuş modul tipli xəstəxanada yanğınla nəticələnmiş partlayış baş verməsi barədə xəbərlərlə bağlı məlumat yayıb.***

FHN-dən "Unikal"a verilən məlumatda bildirilir ki, yayılan məlumatlar tamamilə əsassızdır: "Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinə məxsus, koronaviruslu xəstələr üçün nəzərdə tutulmuş, Zığ qəsəbəsində yerləşən modul tipli xəstəxanada hər hansı hadisə baş verməyib. Təəssüf edirik ki, bəzi media orqanları heç bir dəqiqləşdirmə aparmadan, burada müalicə olunan şəxslərin ailə üzvlərini və yaxınlarını belə nəzərə almadan, bu cür yalan və böhtan xarakterli məlumatlar yayır. Bir daha qeyd edirik ki, xəstəxanada ölümlə nəticələnən hər hansı qəza və ya partlayış hadisəsi baş verməyib. FHN media nümayəndələrini bu cür xəbərləri yayarkən həssaslıq nümayiş etdirməyə, cəmiyyətdə çaşqınlıq və təşviş yaratmamağa, məlumatları nazirliklə dəqiqləşdirməyə çağırır".

# Prezident İlham Əliyev müsəlman ölkələrinə Ermənistanla bağlı çağırış etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhunun etimadnaməsini qəbul edib.***

"Unikal" xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Amanullah Ceyhun dedi:

-Zati-aliləri cənab Prezident, Sizi salamlayıram. Əvvəlcə, bu gün vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bu gün burada olmaq və Prezident Əşrəf Qaninin salamlarını çatdırmaq mənim üçün şərəfdir. O, Sizə böyük ehtiramını ifadə edir, möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq arzu edir.



Zati-aliləri cənab Prezident, Prezident Əşrəf Qani tərəfindən imzalanmış və mənim Əfqanıstanın qardaş Azərbaycana, gözəl ölkənizə səfir təyin olunmağım haqqında etimadnaməmi, habelə sələfimin geri çağırılmasına dair məktubu Sizə təqdim etməkdən şərəf duyuram.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev dedi: Azərbaycan artıq 20 ilə yaxındır ki, Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edir. Biz bütün bu illər ərzində ölkənizdə təhlükəsizliyin qorunmasına sadiqliyimizi nümayiş etdirmişik. Bildiyiniz kimi, biz müəyyən müddət əvvəl hərbçilərimizin sayını artırmaqla ölkənizdə təhlükəsizlik məsələsinə olan münasibətimizi, ölkənizdə təhlükəsizliklə bağlı siyasətimizi nümayiş etdirdik. Çünki təhlükəsizlik və sabitlik olmadan gələcək qurmaq çox çətindir. Biz bunları yaxşı bilirik. 1990-cı illərin əvvəlində biz də buna bənzər vəziyyətlə üzləşmişdik. Azərbaycanda pərakəndəlik, hərc-mərclik hökm sürürdü, siyasi, iqtisadi və hərbi böhran mövcud idi ki, bunlar ərazimizin bir hissəsinin itirilməsi ilə nəticələndi. Beləliklə, Prezidentin rəhbərliyi ilə hökumətinizin səyləri artıq bəhrəsini verir və biz modernləşdirmə proqramınızda iştirak etməkdən hər zaman məmnunuq. Hazırda regional nəqliyyat məsələlərində də irəliləyiş var. Şadıq ki, artıq Azərbaycan vasitəsilə Əfqanıstandan beynəlxalq bazarlara müəyyən yüklər nəql edilir. Biz məmnuniyyətlə öz nəqliyyat imkanlarımızı təqdim edirik. Bildiyiniz kimi, nəqliyyat sahəsi hər zaman mənim sizin Prezidentinizlə görüşlərimin gündəliyindədir və biz burada yaxşı irəliləyiş görürük. Regional geosiyasi vəziyyətdə dəyişiklikləri nəzərə alsaq, əlbəttə ki, əməkdaşlıq üçün yeni imkanlar yaranacaqdır. Fürsətdən istifadə edərək, Ermənistan-Azərbaycan münaqişəsinin həllində bizim ədalətli mübarizəmizi dəstəklədiyinə görə qardaş Əfqanıstana təşəkkürümü bildirmək istəyirəm. Əfqanıstan Azərbaycanın ərazi bütövlüyü məsələsində hər zaman açıq mövqe nümayiş etdirib. Bizi hər zaman dəstəkləyib və Prezident, xarici işlər naziri və digər yüksək rütbəli məmurlar səviyyəsində bu məsələni vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və həqiqət bizim tərəfimizdədir. Eyni zamanda, biz bu dəstəyi müharibə zamanı da hiss etdik. Əfqanıstan Azərbaycana ictimai şəkildə dəstək verən ilk ölkələrdən oldu. Biz buna görə minnətdarıq, bütün Azərbaycan xalqı bunu bilir və yüksək qiymətləndirir. Biz bunu qardaşlıq rəmzi və eyni zamanda, beynəlxalq hüquqa hörmətin əlaməti hesab edirik. Çünki tarixi həqiqət və tarixi ədalət bizim tərəfimizdədir. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və beynəlxalq ictimaiyyət tərəfindən də belə tanınır. Ərazi bütövlüyümüzün bərpası və Vətən müharibəsində Qələbəmiz, əlbəttə, dövlətimizin gücünü, Azərbaycan xalqının iradəsini və sözümüzlə əməlimizin bir olduğunu nümayiş etdirdi. Beləliklə, müharibənin başa çatdırılması və işğal edilmiş ərazilərimizin azad olunması ilə bağlı Azərbaycan xalqı qarşısında verilən vədlər və götürülmüş öhdəliklər yerinə yetirilmişdir.

Hazırda biz Azərbaycanın inkişafının yeni mərhələsinin astanasındayıq. Ərazilərimizin bərpası və yenidən qurulması mərhələsindəyik. İşğal edilmiş ərazilərin dağıdılması ilə bağlı videomateriallar təqdim edilib. Bizim bütün şəhər və kəndlərimiz viran edilib, tarixi abidələrimiz dağıdılıb, mədəni abidələrimiz yerlə-yeksan olunub. Məscidlərimiz ya dağıdılıb, ya da onlar heyvan saxlanılması üçün istifadə edilib. Bununla onlar təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir ediblər. Həmin şəkilləri və videomaterialları görən dünya müsəlmanları bir daha anlayır ki, uzun illər ərzində biz hansı bəla ilə üz-üzə idik və ərazilərimizi, torpaqlarımızı azad edərək tarixi köklərimizə qayıtmaqla biz nəyə nail olmuşuq. Bildiyiniz kimi, bəzi hallarda Ermənistan müsəlman ölkələri ilə əlaqələr yaratmaq və ya münasibətləri möhkəmləndirmək cəhdləri edir. Lakin əminəm ki, həmin videoları görən dünya müsəlmanları öz hökumətlərinə güclü mesaj verəcəklər ki, məscidləri dağıdan, orada donuz saxlayan və islamofobiyanı təşviq edən ölkə ilə hər hansı təmaslardan çəkinsin. Burada siyasi, yaxud digər maraqlar ola bilər, ancaq hesab edirəm ki, bütün dünya müsəlmanları səslərini birləşdirməli, təcavüzkara güclü bir mesaj göndərməlidir ki, onların etdikləri qəbulolunmazdır və müsəlmanlar tərəfindən unudulmayacaqdır. Burada bir daha qardaş əfqan xalqına hər zaman - danışıqlar və işğal dövründə, müharibə zamanı və müharibədən sonra, Qələbəmizi qeyd etdiyimiz vaxtda yanımızda olduğuna, bizi dəstəklədiyinə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Bir daha xoş gəlmisiniz, Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulayıram. Əminəm ki, burada özünüzü vətəninizdəki kimi hiss edəcəksiniz".

# "Ərdoğan kişi adamdır, quyruq bulamır" - Putin



***Rusiya Prezidenti Vladimir Putin bu gün keçirilən illik mətbuat konfransında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan barədə fikirlərini bölüşüb.***

"Unikal" xəbər verir ki, Putin Türkiyə Prezidentini sözünün üstündə duran və ölkəsinin maraqlarını sona qədər qoruyan bir şəxs kimi dəyərləndirib.

"Ərdoğanla hərdən fikir ayrılıqlarımız olur. Ancaq o, sözünün üstündə duran bir insandır, kişi adamdır, quyruq bulamır. Və əgər düşünürsə ki, nə isə ölkəsinin maraqlarının xeyrinədir, bu məsələdə sona qədər gedir".

# Bir qrup şəhid ailəsi və müharibə iştirakçısı işlə təmin edildi



***Şəhid ailəsi üzvlərinin və müharibə iştirakçılarının məşğulluğunun təminatına əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi Proqramı çərçivəsində də dəstək göstərilir.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Unikal"a verilən məlumata görə, nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentiyi tərəfindən həmin proqram çərçivəsində işəgötürənlərlə bağlanmış müqavilələr əsasında artıq 125 nəfər şəxsə işlə təmin edilmək üçün göndəriş verilib. Onlardan bir hissəsi Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və həmin müharibənin iştirakçılarıdır.

Göndəriş verilənlərdən 24-ü ilə əmək müqaviləsi bağlanıb, qalanları ilə qısa müddətdə müqavilələr bağlanacaq.

Proqramda iştirak etmək üçün son günlərdə 58 işəgötürən müraciət edib. "Məşğulluq" altsistemində vakansiyalar yerləşdirən, müəyyən edilmiş prioritet iqtisadi sahələr üzrə vakansiyası olan həmin işəgötürənlərdən artıq 35-i ilə müqavilə imzalanıb.

İşəgötürənlərin proqrama müraciətləri, həmçinin onlarla müqavilələrin imzalanması, göndəriş verilmiş şəxslərlə əmək müqavilələrinin bağlanması prosesi davam edir.

Qeyd edək ki, bu proqram əsasında göndəriş verilmiş və işəgötürənlər tərəfindən işlə təmin edilən şəxslərin əməkhaqqının bir hissəsinin Dövlət Məşğulluq Agentliyi tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulub.

Proqram üzrə göndərişlərin verilməsi zamanı şəhid ailəsi üzvlərinə, müharibə iştirakçılarına, əlilliyi olan şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə və bir ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslərə üstünlük verilir.

İşəgötürənlər proqrama https://forms.gle/2kkhuMqDUHU-uSjtB6 linkinə daxil olaraq müraciət edə bilərlər.

# 4124 yeni yoluxma qeydə alınıb, 43 nəfər ölüb




***Azərbaycanda koronavirus infeksiyasına 4 124 yeni yoluxma faktı qeydə alınıb, 4 205 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 38 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 191 460 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 127 064 nəfər müalicə olunaraq sağalıb, 2 088 nəfər vəfat edib, aktiv xəstə sayı 62 308 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 17 426, ötən müddət ərzində isə ümumilikdə 2 016 003 test aparılıb.

# “Ermənilər bizim qanunları qəbul eləməsələr, Dağlıq Qarabağı tərk etməlidirlər”

Sərdar Cəlaloğlu: “Silahlı qüvvələr Qarabağdan tamamilə çıxarılmalıdır, hər bir şəhər, kənd azad edilməli və Azərbaycan yuridikasiyasına verilməlidir, nəhayət bu məsələ Xankəndində Azərbaycan bayrağının qaldırılması ilə yekunlaşmalıdır”

***10 noyabr bəyanatından sonra Rusiya sülhməramlılarının Qarabağa gəlməsindən narazılıqlar oldu. Xüsusən də müxalif düşərgədən fərqli mövqelər sərgilənməyə başlandı. Bir neçə gün öncə Rusiya sülhməramlılarının Qarabağda yerləşmə xəritəsini yaymasından, onun ardınca Xocavənddə terror-təxribat hadisəsindən sonra bu narahatlıq daha da artdı. “Unikal” qəzetinə müsahibə verən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ilə söhbətə elə bu mövzudan başladıq.***

***-Sərdar bəy, Rusiya sülhməramlılarının yaydığı xəritə qalmaqalı, Xocavənddəki terror-təxribat olayı cəmiyyətdə ciddi narahatlıq yaradıb. Hazırda Dağlıq Qarabağ ətrafında nə baş verir?***

-Hazırda Dağlıq Qarabağla bağlı Rusiyanın da siyasəti qeyri-müəyyəndir. Mənə elə gəlir ki, onlar çalışırlar ki, status-kvonu mümkün qədər bərpa eləsinlər, burada erməniləri yenidən gücləndirsinlər. Alınacaqsa, Azərbaycanı öz mövqeyindən geri çəkilməyə sövq etməyə çalışacaqlar. Alınmayacaqsa, guya öz aləmlərində beynəlxalq missiyanı yerinə yetirən ölkə kimi prosesdə rol aldıqlarını nümayiş etdirəcəklər. Yəni, Rusiyanın buradakı siyasəti birmənalı siyasət deyil. Mətbuatdan da görünür ki, Kremlin ermənipərəst liderləri ilə Putinin mövqeyi çarpışır. Hazırda Putin Türkiyə ilə münasibətləri yüksək səviyyədə saxlamağa çalışır. Amma Dağlıq Qarabağla bağlı Rusiyanın yanlış mövqeyi Türkiyə ilə Rusiya arasında münasibətlərə problem yaradır. Onu da anlamalıdırlar ki, yəqin anlayırlar, Rusiyanın ayaq üstə qalmasının yolu Türkiyə ilə müttəfiqlikdən keçir. Türkiyə Dağlıq Qarabağda heç bir məsələdə Rusiyaya güzəştə getməyəcək. Bu o deməkdir ki, Rusiyanın müttəfiqi ilə arasını vurmaq istəyirlər. Bu da böyük güclərin daha bir oyununun tərkib hissəsidir.

***-Rusiya Dağlıq Qarabağla bağlı Azərbaycanın maraqlarına zidd mövqedə nəyə görə dayanmalıdır? Müttəfiq, tərəfdaş axtarırsa, Azərbaycan Ermənistandan bütün mənalarda üstündür. O zaman bu oyunlar nəyə lazım?***

-Azərbaycan öz torpağının sahibidir, ənənəvi dövlətçiliyi var. Böyük türk dünyasının bir hissəsidir, türk dövlətləri ilə əlaqələri var. Ermənistanın dövlətçilik ənənəsi yoxdur, indiki dövləti də ruslar onlar üçün yaradıblar, elə bir böyük xalq da deyillər. Böyük xalqları belə kiçik xalqlar kimi oyunlara qoşmaq asan məsələ deyil. Ona görə də Rusiya üçün Azərbaycan Ermənistan kimi dəyərli müttəfiq ola bilməz. Rusiya erməniləri istədiyi vaxt hansısa oyunda istifadə edir, Azərbaycanla isə bu mümkün deyil.

***-Qarabağ müstəvisində Rusiyadan, yaxud hansısa digər güclər tərəfindən Azərbaycana qarşı oyun qurularsa, Türkiyə müdaxilə edərək prosesə necə qoşulacaq?***

-Türkiyə açıq şəkildə mövqeyini ortalığa qoyub. Dağlıq Qarabağ məsələsində bir qarış torpağın da güzəştə gedilməsinə razı deyil. Bütün hallarda Azərbaycanın yanında duracağını, hətta müharibə olacağı təqdirdə bizim tərəfdən vuruşacaqlarını bəyan edib. Türkiyə ilə Azərbaycan arasında strateji müttəfiqlik var. Əslində, Dağlıq Qarabağ ətrafında gedən proseslər yalnız Azərbaycana qarşı yox, bütövlükdə türk dünyasına qarşı müəyyən dairələrin həyata keçirdiyi bir siyasətdir. Bunu da Türkiyədə hamı aydın şəkildə görür və bilir.

***-Xəritə qalmaqalı və Xocavənddəki terror-təxribat hadisəsi Bakıdakı Hərbi Paraddan sonra oldu. Bu səbəbdən baş verənləri bir mesaj kimi də dəyərləndirmək olarmı?***

-Mənə elə gəlir ki, bunun paradla əlaqəsi yoxdur. Rusiyanın bu oyunları Paşinyanın “Türkiyə və Azərbaycanla dil tapmaq lazımdır” bəyanatından sonra meydana çıxdı. Paşinyan başa düşdü ki, Azərbaycanla Türkiyə ilə yaxınlaşmaq lazımdır, çünki Rusiya ilə müttəfiqliyin perspektivi yoxdur. Rusiya isə bunun qarşısını almaq üçün Azərbaycanla Ermənistan arasındakı münaqişəni daha da qızışdırmağa və prosesin bu şəkildə daha uzun müddət qalmasına çalışır.

***-Bəlkə Paşinyanın bağlı olduğu Qərb dairələri belə davranmağı tövsiyyə edib?***

-Əslində, Paşinyan Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarıb Avropaya inteqrasiya elətdirmək istəyir. Dağlıq Qarabağ məsələsində çox ciddi səhvə yol verdi. Əgər bu səhvə yol verməsəydi, həm bölgədə, həm də dünyada siyasi liderə çevrilə, Ermənistanı Rusiyanın caynağından xilas edən bir lider ola bilərdi. Amma Dağlıq Qarabağ məsələsindəki səhvlərə görə məqsədlərinə çatmamış məğlub oldu.

***-Sərdar bəy, paraddan sonra İran tərəfdən də diqqətçəkən reaksiyalar oldu ki, buları da gözardı etmək olmaz...***

-Rusiyanın da, İranın da Azərbaycana qarşı bu cür addımlar atmasının arxasında dayanan niyyətlər var. Hər iki dövlər Ermənistana dəstək vermələrinə baxmayaraq, bu müharibədə Azərbaycan qalib gəldi. Yəni, Ermənistanın uduzması onların heysiyyatına toxunan məsələdir. Amma indi bu cür açıqlamalar verməklə, mövqe sərgiləməklə özlərinə təskinlik axtarırlar.

***-Ermənistanın uduzduğunu deyirsiniz, ancaq Azərbaycan müxalif qüvvələrin bir qismi bunu mütləq qələbə hesab etmirlər, çünki Dağlıq Qarabağla bağlı müəyyən qaranlıq məqamlar var....***

-Əvvəla, dünyada mütləq deyilən bir şey yoxdur. Biz Dağlıq Qarabağ ətrafı bütün rayonları işğaldan azad etmişik. Dağlıq Qarabağla ətraf rayonları eyni gözlə görmək olmaz. Ətraf rayonlarda ermənilər yaşamır. Ona görə də orada bütün proseslər Azərbaycan xalqının iradəsinə uyğundur. Ermənilər uzun illər Dağlıq Qarabağda yaşayıblar. Bu səbəbdən də beynəlxalq hüquq Azərbaycanın orada fərqli davranış nümayiş etdirməsini tələb edir. Bu mənada məsələ bir qədər uzanır. Amma bu o demək deyil ki, Dağlıq Qarabağ Azərbaycana qayıtmayacaq. Azərbaycan inadlı şəkildə Rusiya sülhməramlılarını məlum bəyanatın şərtlərinə əməl etməyə məcbur eləməlidir. Silahlı qüvvələr Qarabağdan tamamilə çıxarılmalıdır, hər bir şəhər, kənd addım-addım azad edilməli və Azərbaycan yuridikasiyasına verilməlidir, nəhayət bu məsələ Xankəndində Azərbaycan bayrağının qaldırılması ilə yekunlaşmalıdır.

***-Xankəndində əhalinin say etibarı ilə ermənilərin çoxluq təşkil etdiyi ortadadır. Bu mənada suallar yaranır ki, orada idarəçilik necə olacaq, rəhbərlikdə kimlər olacaq?***

-Xankəndi bir şəhərdir, tutalım əhalisinin hamısı ermənidir. Dünyada bir çox ölkələrdə bu cür şəhərlər var ki, azlıqlardan ibarətdir. Burda heç bir problem yoxdur. Ermənilər Azərbaycan Respublikası vətəndaşlarıdır, onlar Azərbaycan qanunlarına tabe olmalıdırlar. Əgər ermənilər Azərbaycan qanunlarını qəbul eləməsələr, Dağlıq Qarabağı tərk etməlidirlər. Bunun başqa variantı yoxdur.



***-Ancaq ermənilər arasında bunu qəbul etməyəcəklərini, hətta yenidən müharibəyə başlayacaqlarını bəyan edənlər də var...***

-Ermənilərin verdiyi bəyanatların hamısı məğlubiyyətin verdiyi nəticədir, isterik bəyanatlardır. Onların hamısı boş-boş şeylərdir və bunlara əhəmiyyət vermək lazım deyil. Digər tərəfdən, ermənilərin nə istəməsi bizim üçün önəmli deyil. Kimsə vətəndaşlıq istəmirsə, qanunları qəbul eləmirsə, ölkəni tərk eləməlidir. Azərbaycan milli qanunvericiliyinə tabe olmayan heç bir milli azlıq burada yaşaya bilməz.

***-Münaqişədə bir başa iştirak edən, silahlı mübarizəyə başçılıq edən Arayik Arutunyan və ətrafı barədə hansı tədbir görülməlidir?***

-Onlar Azərbaycan dövləti tərəfindən axtarışa verilmiş cinayətkarlardır. Zamanı gələndə hamısı tutulub Azərbaycana təhvil verilməlidir. Bunun alternativi yoxdur. İndiki halda şərtlər buna tam imkan vermir. Rusiya prosesə müdaxilə edib, araya girib. Yəqin ki, bir müddət sonra Arayik Arutunyan da, digərləri də Azərbaycan qanunları qarşısında cavab verəcəklər. Onları yalnız başqa dövlətin vətəndaşlığını qəbul edərək, Azərbaycanı tərk etmək xilas edə bilər.

***Z.Məmmədli***

# Namiq Zeynalovu həbsə aparan şok səbəblər...

## Cəlilabadın sabiq icra başçısının qandallanmasından öncə rayonda hansı ilginc hadisələr yaşanıbmış?

***Məlum olduğu kimi, Cəlilabad Rayon İcra Hakimiyyətinin sabiq başçısı Namiq Zeynalov ötən həftə həbs edilib. Zeynalov Cinayət Məcəlləsinin 179.2.2 (Mənimsəmə və ya israf etmə təkrar törədildikdə) 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə); 179.2.4 (xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (külli miqdarda rüşvət alma), 311.3.2 (təkrar rüşvət alma), 313-cü (Vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur.***



Cəlilabad Rayon İcra Hakimiyyətində keçirilən xüsusi əməliyyat zamanı saxlanılan sabiq icra başçısı bundan dərhal sonra tutduğu vəzifədən azad edilib.

"Unikal"ın əldə etdiyi məlumata görə, iki il öncə bu posta təyin edilən N.Zeynalovun həbsi gözlənilən idi; belə ki, sabiq icra başçısı ilə bağlı son zamanlarda yuxarılara ciddi siqnallar gəlirmiş. O, Cəlilabadda rəhbərliyə başladıqdan qısa müddət sonra bu vəzifəni layiqincə yerinə yetirəcəyi şübhə doğurubmuş.

"Namiq Zeynalovun icra başçısı təyin edildikdən cəmi 11 ay sonra, 2019-cu ilin yanvarında Cəlilabadda korrupsiya şəbəkəsi yaradan vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa olundu. Belə ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş təxirəsalınmaz əməliyyat tədbirləri ilə Dövlət Məşğulluq Xidmətinin Cəlilabad rayon Məşğulluq Mərkəzinin direktoru vəzifəsini icra edən Mehdi Abasov Mərkəzin baş məsləhətçisi Hafis Allahyarov və qeyriləri ilə əlbir olaraq, müxtəlif vədlər verərək işsiz və işaxtaran şəxslərdən ümumilikdə 7.400 manat məbləğində rüşvət almalarına, habelə eyni məqsədlə 1 nəfər rayon sakinindən 1.000 manat rüşvət almağa cəhd etmələrinə şübhələr üçün əsaslar müəyyən edildiyindən fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və 311.3.2-ci (rüşvət alma təkrar törədildikdə) maddələri ilə cinayət işi başlandı. Əslində bu xeyli dərəcədə simvolik hadisə idi. Çünki Cəlilabad rayonundakı əksər dövlət idarələri üçün oxşar mənzərə xarakterikdir" - bunu qəzetimizə adı çəkilən rayondakı qaynaqlar bildiriblər.

Mənbələrimizin dediyinə görə, N.Zeynalov icra başçısı təyin edildikdən qısa zaman sonra Cəlilabadda rüşvət və korrupsiyanın miqyası anormal dərəcədə genişlənməyə başlayıb. "Zeynalovdan öncə də cəlilabadlılar bu bəlalardan dad eləyirdilər. Ancaq Namiq müəllimin təyinatından sonra vəziyyət daha da dözülməz şəkil aldı. Bu, əlbəttə ki, sabiq icra başçısının maraqlarına uyğun idi. Lakin digər tərəfdən Zeynalov rayona nəzarəti tamamilə itirmişdi. Yerli dövlət orqanlarında rüşvət, mənimsəmə adi hala çevrilmişdi. Hətta son vaxtlar mətbuatda açıq şəkildə yazılırdı ki, Namiq müəllim bir müddət də vəzifədə qalsa, Cəlilabadda ciddi narazılıqlar baş qaldıra, üsyan yetişə bilər" - qəzetimizə daxil olan bilgilərdə vurğulanır.

Qaynaqlarımız sabiq icra başçısının həbsi ərəfəsində ard-arda yaşanan hadisələrə diqqət çəkirlər:

- Ciddi karantin rejiminin tələblərini pozduğuna görə Cəlilabad RİH başçısının Muğan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Rəzzaq İsbarova və 23 aprel 2020-ci il tarixdə Heydər Əliyev Fondu tərəfindən imkansız ailələrə göndərilmiş ərzaq yardımının paylanması zamanı neqativ hallara yol verdiyinə görə RİH başçısının Bayxanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Əlövsət Həsənova töhmət elan olunmuşdu;

- Cəlilabad RİH başçısının Şiləvəngə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Bağır Şirəliyevin kənd sakinləri üçün ayrılmış 71 ədəd ərzaq payından 14-nü özünün və müavini Seyfullayev Rəşad Xasay oğlunun yaxın qohumlarına və kəndin imkanlı şəxslərinə payladığı aydınlaşmışdı. Hər iki şəxs vəzifəsindən kənarlaşdırılmış, həmçinin fəaliyyətlərinin araşdırılması üçün rayon prokurorluğunda cinayət işi açılmışdı;

- Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində DSMF-nin Cəlilabad rayon şöbəsinin baş mühasibi Pərviz İsgəndərovun müxtəlif vaxtlarda rayon sakinlərindən ünvanlı dövlət sosial yardım və pensiya təyin olunması müqabilində 3700 manat məbləğində pul tələb etməsinə əsaslı şübhələr müəyyən edilmişdi. Faktla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.2-ci (təkrar rüşvət alma) maddəsi ilə cinayət işi başlanmış, Binəqədi Rayon Məhkəməsi baş mühasib barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçmişdi.

"Bütün bu yaşananların ardından əvvəl-axır növbənin Namiq Zeynalova çatacağı gözlənilən idi" deyən qaynaqlarımız məhz ona görə də sabiq icra başçısının qandallanmasının cəlilabadlılar arasında təəccüblə qarşılanmadığına diqqət çəkiblər...

***Toğrul Əliyev***

# ÜST Azərbaycana tibbi maskalar göndərdi



***"Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə (TƏBİB) təmənnasız təqdim etdiyi tibbi maskalar əsasən ölkəmizin tibb müəssisələrinə veriləcək".***

"Unikal" xəbər verir ki, bunu TƏBİB-in Tibbi Xidmətlər Departamentinin rəhbəri Firəngiz Əliyeva deyib.

Onun sözlərinə görə, tibb işçilərinin pandemiya dövründə qorunmaları vacibdir: "Bütün dünyada olduğu kimi Azərbaycanda da tibb işçilərimizin infeksiyaya yoluxmamasına böyük önəm verilir. Belə tədbirlərin olması çox sevindirici haldır və dəstəkləyicidir. Bizim tibb müəssisələrimiz bu təqdim olunan maskalarla təmin olunacaqlar".

TƏBİB rəsmisi qeyd edib ki, hazırda ən çox müzakirə olunan məsələlərdən biri də vaksinlərdi: "Verilən suallardan biri də odur ki, hər birimizin ümid etdiyimiz peyvənd olunduqdan sonra maskaya ehtiyac olub-olmamasıdır. Əfsus ki, bütün təşkilatların peyvənd almağa namizəd ölkələrə bildirdikləri kimi də hələ bir müddət maskalardan istifadə etmək məcburiyyətində qalacağıq. Bir müddət yenə də infeksiyaya yoluxmamaq üçün özümüzü qorumalıyıq. Bizim qızıl qaydalar dediyimiz: hər kəsin qoruyucu maskalardan düzgün istifadə etməsi, əl gigiyenasını və sosial məsafəni gözləmək lazımdır. Bu qaydaları unutmaq olmaz".

# Qarabağ üzrə Regional Turizm İnkişaf Strategiyası hazırlanır



***Bu gün Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev onlayn keçirilən Azərbaycan Hotel Assosiasiyasının 3-cü Baş Assambleyasında çıxış edib.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, Baş Assambleyanın keçirilməsində əsas məqsəd Azərbaycan Hotel Assosiasiyasının il ərzində fəaliyyəti, 2021-ci il üçün planlaşdırılmış tədbirlər haqqında məlumat verməkdir. Assambleyada yerli sahibkarlar Milli Ulduz Təsnifatı sisteminə uyğun olaraq hotellərin ulduzlaşması, müraciət qaydaları və tətbiq prosedurları haqqında da məlumatlandırılıblar. Həmçinin pandemiya və postpandemiya dövründə turizmin bərpası üzrə çətinliklərlə bağlı sənaye nümayəndələri ilə müzakirələr aparılıb.

Assambleyada çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dünya turizminin bütün sahələri kimi hotelçilik sahəsinin də xeyli zərər gördüyünü qeyd edib. O, sənaye üçün daha əlverişli mühitin yaradılması məqsədilə müvafiq dəstək mexanizmləri hazırladıqları barədə məlumat verib.

Agentlik sədri, həmçinin Assambleya iştirakçılarını şanlı qələbə münasibətilə təbrik edib. O, Qarabağ üzrə Regional Turizm İnkişaf Strategiyasının hazırlandığını bildirib, sahibkarları Qarabağın turizm potensialına və hotellərin tikintisinə investisiya yatırmağa səsləyib. Qarabağda turizmi birlikdə inkişaf etdirməyə çağıran F.Nağıyev tezliklə Qarabağda yeni hotellərin açılacağına və oraya üz tutan turistlərə ən yüksək keyfiyyətli xidmətlərin göstəriləcəyinə dair inamını ifadə edib.

Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid Milli Ulduz Təsnifatı sisteminə uyğun olaraq artıq 4 regional hotelə ulduz kateqoriyasının verildiyini bildirib. O, çıxışında, həmçinin turizm sənayesini postpandemiya dövrünə hazırlamaq üçün həyata keçirilən layihələr haqqında məlumat verib. O bildirib ki, hotelçilik sənayesinin nümayəndələri pandemiya ilə bağlı yaranmış böhranlı və çətin vəziyyətdə sosial məsuliyyətlilik nümayiş etdirib. "Xarici vətəndaşların yerləşdirilməsi üçün karantin rejimində istifadə olunan hotellərin dəstəyi yüksək qiymətləndirilir",- deyə F.Zenqstşmid əlavə edib.

Assosiasiyanın Prezidenti Martin Kleinman hotelçilik sənayesində qısa və uzunmüddətli bərpa planlarının həyata keçirilməsinin vacibliyi haqqında danışıb.

AHA-nın Baş İcraçı Direktoru Günay Sağlam Assosiasiyanın işində Dövlət Turizm Agentliyi, eyni zamanda Azərbaycan Turizm Bürosunun dəstəyini vurğulayıb. O, pandemiya dövründə sənayenin birgə və koordinasiyalı fəaliyyətinin yaranmış çətinliklərə daha çevik reaksiya verilməsində mühüm rol oynadığını qeyd edib.

2018-ci ildən fəaliyyətə başlayan Azərbaycan Hotel Assosiasiyası hotelçilik sənayesinin nümayəndələrini bir araya toplamaq və qonaqpərvərlik sənayesini inkişaf etdirmək üçün platforma rolunu oynayır.

# Yeni ildə gözlənilən əfv sərəncamı gecikəcək

***Bu il Yeni il ərəfəsində imzalanması gözlənilən əfv və ya amnistiya pandemiya səbəbindən gecikə bilər.***

"Unikal" xəbər verir ki, Əfv Məsələləri Komissiyasından Modern.az-ın sorğusuna cavab olaraq bildirilib ki, əfv üçün iclasların keçirilməsi mütləqdir:

"Faktiki olaraq, Komissiyanın iclasları keçirilməklə sonuncu əfv sərəncamı 2019-cu ilin Novruz bayramında verilib. Bu səbəbdən də Komissiyaya hədsiz sayda müraciətlər daxil olub. Həmin müraciətlərin müzakirəsi və araşdırılması isə vaxt tələb edir. Hazırda Komissiyanın katibliyində həmin müraciətlərlə bağlı gərgin iş gedir. Komissiyanın 18 üzvünün indiki pandemiya şəraitində toplaşması və iclaslar keçirilməsi isə qanunvericiliyə ziddir. 2020-ci ildə ölkə rəhbəri tərəfindən verilən əfv sərəncamı pandemiya ilə bağlı 65 yaşdan yuxarı bir qrup şəxsi əhatə edirdi".

İclasların onlayn keçirilməsinə gəlincə qeyd olunub ki, bu, məlumatların kənara sızma ehtimalına görə nəzərdə tutulmur:

"Daxil olan çox sayda müraciətin Yeni ilədək araşdırılması çətindir. Bu səbəbdən də əfv sərəncamının, yaxud amnistiyanın növbəti ilin Novruz bayramında verilməsi gözlənilir. Amma təbii ki, bütün hallarda Əfv sərəncamının verilməsi Prezidentin konstitusion səlahiyyətlərinə aiddir və ölkə başçısı bu hüququndan istənilən vaxt istifadə edə bilər".

# RİİB yeni könüllülük proqramına start verir

***"Regional İnkişaf" İctimai Birliyi (RİİB) yeni könüllülük proqramına start verir.***

İctimai Birlikdən "Unikal"a verilən məlumata görə, əsas məqsəd könüllülərin RİİB-in fəaliyyətində fəal iştirakını təmin etmək, eləcə də onların bilik və bacarıqlarının artırılmasına, fərdi inkişafına və uğurlu karyera əldə etmələrinə təkan verməkdir. Proqramın məramı, həmçinin gənclərdə sosial məsuliyyət hissini artırmaq, onların ölkə üzrə şəbəkələşməsinə və sosiallaşmasına dəstək verməkdən ibarətdir.

Bu çərçivədə könüllülər üçün təlimlər, seminarlar təşkil olunacaq, onların iştirakı ilə müxtəlif layihələr, tədbirlər və sosial aksiyalar keçiriləcək, həmçinin gənclərə öz təşəbbüslərini reallaşdırmaq üçün dəstək göstəriləcək.

RİİB-in fəaliyyətində iştirak etmək arzusunda olan 17-29 yaş arasında hər bir gənc könüllü kimi qeydiyyatdan keçməklə proqrama qoşulmaq üçün müraciət edə bilər.

Proqrama qoşulmaq istəyənlər http://riib.az/site/bizeqoshul linkinə daxil olaraq qeydiyyatdan keçməlidir.

Proqramın icrasına 2021-ci ilin yanvar ayından başlanılacaq.

Daha ətraflı məlumatı www.riib.az saytından və ictimai birliyin sosial şəbəkə hesablarından əldə etmək olar.

# Xocavəndin giriş-çıxışında postlar quruldu

***Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə təhlükəsizlik tədbirləri gücləndirilir.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Xocavənd rayonunun ərazisində Rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları xidməti fəaliyyətini davam etdirir. Rayonun ərazisində xidməti postlar qurulub və təhlükəsizliyə tam olaraq nəzarət edilir.

# Bölmələrimizin təminatı yaxşılaşdırılır

***Azad edilmiş ərazilərdə Azərbaycan Ordusunun bölmələrinin təminatının və təchizatının daha da yaxşılaşdırılması ilə bağlı müvafiq tədbirlər görülür.***

Bu barədə Unikal.org-a Müdafiə Nazirliyindən məlumat verilib. Eyni zamanda bu ərazilərdəki yaşayış məntəqələri və yüksək dağlıq ərazilərdəki yeni mövqelərdə qoşun xidməti və döyüş növbətçiliyi təşkil olunur.

# Oqtay Şirəliyevin göz yumduğu problemin ağır fəsadları

## Şəhər və rayonlarımızdakı mərkəzi xəstəxanaların çoxu rüşvət və korrupsiya qoxuyur

***Yola salmaq üzrə olduğumuz həftə Baş Prokurorluğun Mətbuat Xidməti "Ağcabədi rayon Mərkəzi xəstəxanası" Publik hüquqi şəxsin direktoru vəzifəsində işləyən Tahirov Fövzi Tahir oğlunun qanunsuz əməlləri ilə əlaqədar keçirilən təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlandığı barədə məlumat yaydı.***

Məlumdan aydın olurdu ki, aparılmış əməliyyat-istintaq tədbirləri ilə Fövzi Tahirovun qeyd olunan vəzifədə işləməklə Həkim Məsləhət Komissiyasının sədri səlahiyyətlərini həyata keçirərkən xəstəxananın digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olmaqla 2020-ci ilin əvvəllərindən 30 noyabr 2020-ci il tarixədək olan müddət ərzində əlillik əlamətləri olan xəstələrə əlillik dərəcəsinin müəyyən edilməsi məqsədi ilə həmin xəstələrin sənədlərinin aidiyyəti qurumlara göndərilməsi müqabilində ayrı-ayrı şəxslərdən sözügedən müəssisədə Ailə-Sağlamlıq şöbəsinin müdiri vəzifəsində işləyən Bəşirova Məhbubə Mübariz qızı vasitəsilə xəstəxananın inzibati binasındakı xidməti otağında ümumilikdə 10 min manat, xəstəxananın baş mühasibi Abbasov Nizami Əşrəf oğlu vasitəsilə ümumilikdə 5 min 300 manat, habelə qeydiyyatçı vəzifəsində işləyən Ağayeva Fatma Cahid qızı vasitəsilə ümumilikdə xeyli məbləğdə pul vəsaitini rüşvət qismində alaraq həmin pulu qabaqcadan əlbir olduğu şəxslərlə aralarında bölməklə şəxsi ehtiyaclarına sərf etməsinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilənlərlə əlaqədar, Baş İdarənin əməkdaşları tərəfindən Fövzi Tahirovun xidməti otağına və avtomobilinə baxış keçirilərkən iş üçün mühüm əhəmiyyət kəsb edən sosial kartlar, pul vəsaitləri və müxtəlif əlyazma qeydlər aparılmış bloknotlar aşkar edilərək sübut qismində götürülüb.

Fövzi Tahirova Cinayət Məcəlləsinin 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma), 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 311.3.3 (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilib, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda təqsirləndirilən şəxsin vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi, əmək müqavilələrinin bağlanılması və ya müddətinin uzadılması müqabilində ayrı-ayrı şəxslərdən rüşvət alması, xəstəxanaya ayrılmış dərman vasitələrini mənimsəməsi hallarına dair əsaslı şübhələrin araşdırılması, habelə cinayətin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi və digər halların yoxlanılması istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

Baş Prokurorluğun məlumatı Azərbaycanın şəhər və rayonlarındakı mərkəzi xəstəxanalarda rüşvətin, korrupsiyanın baş alıb getdiyi barədə səslənən fikirləri bir daha aktuallaşdırır. Eyni zamanda həmin fikirlərdə həqiqət payının yetərincə yüksək olduğunu bir daha gözlərimiz önünə sərir.

Az qala hər il müxtəlif şəhər və rayonların mərkəzi xəstəxanalarında ya hüquq-mühafizə orqanları əməkdaşlarının apardığı əməliyyatlar, ya da Hesablama Palatasının həyata keçirdiyi yoxlamalar nəticəsində külli miqdarda yeyintilər, vətəndaşların soyulması faktları ortaya çıxır. Bu da azmış kimi, son vaxtlar yerli mediada həmin xəstəxanalarla bağlı arzuedilməz videogörüntülərin yayılması adiləşib. Həmin videogörüntülərdə sözügedən tibb müəssisələrində rüşvət ittihamından tutmuş xəstələrə qarşı qeyri-mədəni rəftara, yanlış diaqnozların qoyulmasından səhv müalicəyədək müxtəlif nöqsanlardan, qanunsuz əməllərdən söhbət açılır.



Artıq bu tamamilə danılmaz reallıqdır ki, Oqtay Şirəliyevin rəhbərlik etdiyi Səhiyyə Nazirliyi uzun illər ərzində şəhər və rayon mərkəzi xəstəxanalarına nəzarəti xeyli dərəcədə itirmişdi. Əks təqdirdə həmin tibb müəssisələri KİV-də və cəmiyyət arasında bu qədər ittiham, tənqid hədəfinə çevrilməzdi. Yox, əgər Şirəliyevin nazirliyi mərkəzi xəstəxanaların vətəndaşlara keyfiyyətli xidmət göstərməsi, rüşvət və korrupsiyadan təmizlənməsi üçün lazımi addımlar atırdı, ancaq bunlar nəticəsiz qalırdısa, belə çıxırdı ki, həmin xəstəxanaların rəhbərləri, baş həkimlər hörmətli nazirin iradəsinə dırnaqarası yanaşırmışlar.

Lakin istənilən halda yaşananlar ölkə səhiyyəsi baxımından xoşagəlməz mənzərədən xəbər verir. Aydın olur ki, Oqtay müəllimin nazirliyinin illər boyu göz yumduğu, dırnaqarası yanaşdığı, yaxud öhdəsindən gəlməkdə çətinlik çəkdiyi problem şəhər və rayonlarımızdakı mərkəzi xəstəxanaları sağlıq ocağından çox, rüşvət, korrupsiya "ocağına" çevirib.

Təəssüf! Çox təəssüf!

***Sənan Mirzə***

# Asif Əsgərovdan böyük narazılıq...

## Paytaxt rayonunda növbəti tikinti qalmaqalı yaşanır

***Bakının Nəsimi rayonunda yeni qalmaqal yaranıb. Səbəb isə Azadlıq prospekti 80 ünvanındakı dördmərtəbəli binaların yerində "Fədək" MMC -nin hündürmərtəbəli yaşayış binaları tikməyi planlaşdırmasıdır. Əvvəlki binaların sakinlərindən bir neçəsi buna razı olmadığından evlərini tərk etmək istəmirlər. Bu isə qalmaqalın məhkəmə müstəvisinə daşınması ilə nəticələnib.***

Narazı vətəndaşların dediyinə görə, onlardan bəziləri evlərindən zorla çıxarılıb.

İddialara görə, "Fədək" MMC köhnə binaların bir çox sakini ilə razılığa gəlib ki, tikəcəyi hündürmərtəbəli binalardan onlara mənzillərinin sahəsindən də



böyük, təmirli ev verəcək. Yeni mənzillər tikilib təhvil verilənə qədər isə onlar kirayədə qalacaqlar. Kirayə pulunu da şirkət ödəyəcək. Lakin bu şərtlərlə razılaşmayanlar var. Onlar mənzillərinin müqabilində pul tələb edir.

Səbəbini isə tikinti şirkətinin daha böyük və təmirli mənzil vədinə inanmamaları ilə əsaslandırırlar.

Narazı vətəndaşlar mülkiyyət toxunulmazlığının Azərbaycan Konstitusiyası ilə təsbit edildiyini, lakin Nəsimi rayon rəhbərliyi üçün bu hüququn heç bir anlam ifadə etmədiyini vurğulayırlar.

Evindən çıxmaq istəməyən mülkiyyətçilərlə bağlı uzun müddətdir ki, məhkəmə prosesi gedir. Hələ yekun qərar verilməyib. Ancaq o da maraqlıdır ki, mənzillərindən çıxmaq istəməyən vətəndaşları məhkəməyə verən isə tikinti şirkəti yox, Asif Əsgərovun rəhbərlik etdiyi Nəsimi Rayon İcra Hakimiyyətidir. "Fədək" MMC prosesə üçüncü tərəf qismində cəlb olunub.

İcra hakimiyyəti iddia ərizəsində göstərib ki, bir qrup sakin yeni yaşayış binasının tikintisinə maneçilik törədir. Ona görə də həmin şəxslərin məcburi evlərindən çıxması, yeni bina hazır olana qədər kirayə yaşaması və kirayə pulunu da tikinti şirkətinin ödəməsi haqda qərar çıxarılması istənilib.

Binanın sökülməsi barədə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərovun 23 iyun 2017-ci il tarixli sərəncamında yazılıb ki, sözügedən bina qəzalıdır, sökülüb yerində çoxmərtəbəli yaşayış binasının tikintisi üçün həmin ərazi 49 illik müddətinə "Fədək" MMC icarəyə verilir.

Amma narazı sakinlər binanın qəzalı olduğuna görə sökülməsi barədə iddialarla razılaşmırlar.

Mübahisəyə əvvəl Nəsimi Rayon Məhkəməsində baxılıb və icra hakimiyyətinin iddiası təmin olunub. Sakinlər apellyasiya şikayəti verib. Bakı Apellyasiya Məhkəməsi qərarı dəyişərək, icra hakimiyyətinin iddiasını rədd edib. Qərarda da yazıb ki, icra hakimiyyəti binanın qəzalı olması haqda sübut ortaya qoymayıb. Həm də "Fədək" MMC qala-qala tələb hüququ olmayan Nəsimi Rayon İcra Hakimiyyəti mülkiyyətçilərə qarşı iddia qaldırıb. İcra hakimiyyəti qərardan Ali Məhkəməyə şikayət verib. Ali Məhkəmə işin yenidən araşdırılması üçün Bakı Apellyasiya Məhkəməsinə qaytarıb. Pandemiya ilə əlaqədar məhkəmələrin də fəaliyyəti dayandırıldığına görə bu iş üzrə məhkəmə prosesi yanvara qədər təxirə salınıb.

Onu da deyək ki, bu mübahisəli məsələ iki ildən çoxdur başlayıb və belə görünür hələ uzun müddət davam edəcək.

Maraqlı orasıdır ki, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısının adı oxşar tikinti qalmaqallarında indiyədək dəfələrlə hallanıb. Məsələn, 2015-ci ilin payızında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri, professor Rafiq Əliyevə məxsus (Nəsimi rayonu, Vaqif prospekti), yaşayış binasının tikintisinə hazırlıq üçün çəkilən hasar Nəsimi rayon İcra Hakimiyyətinin əməkdaşları tərəfindən sökülmüşdü. Rafiq Əliyev isə baş verənlərə bağlı mətbuata çıxaraq bildirmişdi ki, tikinti üçün tələb olunan bütün lazımi sənədlər hazır olduqdan sonra 21 sentyabr 2015-ci il tarixində Bakı şəhəri Nəsimi rayonu İcra Hakimiyyətinin başçısının ünvanına rəsmi məktub ünvanlayıblar. Sözügedən qurum məsələ ilə bağlı heç bir irad və etiraz bildirməyib, müraciətə yazılı cavab verməyib. Lakin oktyabrın 18-də hasarlanma başa çatdıqdan sonra Nəsimi rayonu İcra Hakimiyyətinin əməkdaşları əraziyə gələrək hasarın çəkilməsinə etiraz edərək, 4 gün ərzində quraşdırılması başa çatmış hasarın söküləcəyini bildirib, Mənzil Kommunal-Təsərrüfat İdarəsinin işçilərini və İcra Hakimiyyətinin strukturunda işləmələri haqda heç bir sənədi olmayan 20 nəfərədək şəxsi həmin sahəyə göndərib.

Rafiq Əliyev baş verənləri məmur özbaşınalığı adlandırmışdı. Bundan başqa, sabiq komitə sədri icra başçısı Asif Əsgərovun ondan "problemi yoluna qoymaq" üçün 300 min manat rüşvət istədiyini qeyd etmişdi.

2017-ci ildə isə mətbuat yazırdı ki, Nəsimi rayonunun 4-cü mikrarayon ərazisində beş mərtəbəli binaların həyətyanı sahələri sökülərək binaların arasında salınmış, sakinlərin istirahət yerləri və qaraj kimi istifadə olunan tikililər dağıdılıb. Yerli İcra Hakimiyyəti tərəfindən başladılan söküntü işləri ilə bərabər, binaların arasında qalan istirahət bağındakı ağaclar kəsilərək "Kamaz"larla daşınıb.

Belə nümunələrin sayını bəs deyincə artırmaq olar. Lakin ümumi mənzərəni görmək üçün elə sadalanan faktlar da kifayətdir.

O da maraqlıdır ki, istər bu, istərsə də digər qalmaqallı xəbərlərlə bağlı Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı susqunluq nümayiş etdirməyə üstünlük verir, barəsində səslənən iddia və ittihamları cavablandırmamağı lazım bilir.

Nəsimi rayonundan gələn narazılıqların, şikayətlərin isə ardı arası kəsilmək bilmir. Həm də ölkə başçısı çıxışlarında rayon rəhbərlərindən, digər məmurlardan vətəndaşlarla münasibətdə həssaslıq tələb etdiyi bir vaxtda!

***Elvin Rüstəmov***




# Türkiyədən Azərbaycana humanitar yardım

***Türkiyənin Diyanət Vəqfi tərəfindən Azərbaycana göndərilən yardım səlahiyyətli nümayəndələrə təhvil verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin Azərbaycandakı səfirliyi məlumat yayıb. Bildirilib ki, səhiyyə ləvazimatlarından ibarət yardımın Azərbaycan Müdafiə Nazirliyinə çatdırılması üçün Tibbi Ərazi İdarəetmə Birliyinin (TƏBİB) səlahiyyətli şəxslərinə təhvil verilməsi mərasimində Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və səfirliyin din müşaviri Zeki Yavuz Yılmaz iştirak ediblər.

Səfir Erkan Özoral mətbuata müsahibəsində Qarabağda 44 gün davam edən müharibənin Türkiyədə ciddi bir həssaslıq yaratdığını və ictimaiyyətin Azərbaycana dəstək göstərmək üçün hər cür səy göstərdiyini vurğulayıb.

Vəqfin Azərbaycanın müxtəlif şəhərlərində bundan əvvəl də şəhid ailələrini əhatə edən yardım fəaliyyətlərini həyata keçirdiyini xatırladan E.Özoral diqqətə çatdırıb ki, yenə də həmin kampaniya çərçivəsində Azərbaycan Müdafiə Nazirliyinə yataq dəstləri, tibbi geyimlər, maskalar və dezinfeksiyaedici vasitələrdən ibarət müxtəlif tibbi ləvazimatları təqdim olunacaq.

Bu həssaslığı göstərdiyinə görə Türkiyə Diyanət Vəqfinin rəhbərliyinə təşəkkür edib. Səfirliyin din müşaviri Zeki Yavuz Yılmaz təhvil verilən ləvazimatların yardımdan daha çox dəstək mənası daşıdığını qeyd edərək Azərbaycanın Qarabağdakı qələbə sevincini bölüşdüklərini və vəqfin Azərbaycana yardımlarını davam etdirəcəyini bildirib.

# Şəxsiyyət vəsiqələrindəki e-imza niyə aktivləşmədi?

***Yeni nəsil şəxsiyyət vəsiqələrindəki elektron imzanın aktivləşməsi naməlum səbəblərdən uzun müddətdir ki, gecikir.***

"Unikal"ın verdiyi xəbərə görə, bunu ekspert Osman Gündüz bildirib.

O qeyd edib ki, bir neçə gün öncə Azərbaycan vətəndaşları Türkiyəyə şəxsiyyət vəsiqələri ilə gedə biləcəyi açıqlanıb: "Bu isə "yeni nəsil" şəxsiyyət vəsiqələrinin hələ də "köhnə nəsil" olaraq qaldığını bir daha xatırlatdı. Yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqi ilə bağlı 2014-cü ilin noyabrında Prezident sərəncam verib. Uzun müddət səlahiyyətli qurumlar Sərəncamdan irəli gələn vəzifələri vaxtında icra edə bilməyiblər. Prezident sərəncamları ilə bu müddət bir neçə dəfə uzadılıb. Nəhayət 2018-ci ildə Yeni nəsil şəxsiyyət vəsiqələrinin ilk nümunəsi Prezidentə təqdim edilib. Bir müddət sonra vətəndaşlara da bu sənəd təqdim edilməyə başlanıb. Lakin məlum olub ki, verilən vəsiqələr "yeni nəsil" deyilmiş. Belə ki, verilən vəsiqələrin çipində yerləşdirilən e-imzalar indiyədək də aktivləşdirilməyib. Və ən qəribəsi də odur ki, heç kim bunun səbəbini açıqlamayıb. Vəsiqədə yerləşdiriləcək imzadan istifadə ilə bağlı müəyyən olunacaq rüsumun məbləği də bir xeyli müzakirə olunsa da, yekunda konkret razılıq əldə olunmadı. E-imzaya cavabdeh qurum olan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi rəsmi açıqlama vermişdi ki, vəsiqələrdəki e-imza ilə bağlı bütün hazırlıq işləri başa çatdırılıb. Düşünürəm ki sərəncamda qeyd olunan səlahiyyətli qurumlar, NRYTN, Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi və Ədliyyə Nazirliyi bir araya gəlib bu problemi həll etməlidirlər. Bu problemin həlli ölkədə rəqəmsal transformasiyanı xeyli sürətləndirə bilər".




# “YAŞAT” Fonduna “ASAN ödəniş” vasitəsilə də dəstək olmaq mümkündür

***Azərbaycan Prezidentinin Fərmanı ilə yaradılan Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fonduna “ASAN ödəniş” sistemi vasitəsilə də ianə etmək imkanı yaradılıb.***

”ASAN xidmət”dən “Unikal”a verilən məlumata görə, Fonda dəstək olmaq istəyən şəxslər www.asanpay.az portalında “Ən populyar ödənişlər” bölməsində ilk sırada olan “Yardım fondu” kateqoriyasına daxil olub, “YAŞAT” Fondu” bölməsini seçməklə ödənişi həyata keçirə bilərlər.

“YAŞAT” Fondu bölməsində üç kateqoriya - Azərbaycan vətəndaşları üçün, xarici vətəndaşlar üçün və anonim ödəniş kateqoriyaları mövcuddur. Azərbaycan vətəndaşları üçün ödəniş bölməsində şəxslər FİN (şəxsiyyət vəsiqəsində olan Fərdi İdentifikasiya Nömrəsi) və mobil nömrə, həmçinin VÖEN və mobil nömrələrini daxil etməklə ödənişlərini həyata keçirə bilərlər. Qeyd olunan mobil nömrə Fond tərəfindən vətəndaşa gələcəkdə bildirişlərin göndərilməsində də istifadə olunacaq.

Xarici vətəndaş üçün ödəniş bölməsində Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi qeydiyyatı olan şəxslərin miqrasiya vəsiqələrində olan FİN və mobil nömrə ilə, həmçinin ad və soyadla ödənişlərin həyata keçirilməsi mümkündür.

Anonim bölməsində isə kimliyinin bilinməsini istəməyən şəxslər ödənişlərini həyata keçirə bilərlər. Ödənişlər identifikasiya prosesindən keçdikdən sonra şəxslər kart məlumatlarını daxil edərək, ödənişlərini tamamlaya bilərlər.

Fonda ödəniş etmək qaydası barədə ətraflı aşağıdakı videotəlimatda tanış olmaq mümkündür: https://youtu.be/6OMBPY3CUQI

Xatırladaq ki, çoxfunksiyalı “ASAN ödəniş” sistemi, habelə cərimə, kommunal xidmət və digər ödənişləri qısa zamanda, təhlükəsiz və rahat şəkildə həyata keçirmək imkanı yaradır. 280-dən çox qurumun cərimə, rüsum, kommunal, lizinq, kredit, icarə haqqı və digər ödənişləri “ASAN ödəniş” sisteminin www.asanpay.az ödəniş portalı və terminalları, eləcə də Android və İOS platformalarında “ASAN ödəniş” mobil tətbiqi vasitəsilə təmin edilir.

# Ağdamda FHN-in yerli strukturu fəaliyyətə başladı

***Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) işğaldan azad edilmiş ərazilərimizdə yerli strukturlarının formalaşdırılmasını davam etdirir.***

FHN-dən Unikal.org-a bildirilib ki, Ağdam rayonu, Qızıl Kəngərli kəndində FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin Yanğından Mühafizə bölməsi fəaliyyətə başlayıb. Bölmə xidmətin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq texnika və avadanlıqlarla təchiz edilib.

Xatırladaq ki, bundan əvvəl FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər şəhərlərində və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli strukturları fəaliyyətə başlayıb.

# Sahil Babayevin kadrlarının rüşvət qalmaqalları

## Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əməkdaşlarının əlilliyin təyin edilməsi ilə bağlı qanunsuz əməllərə görə həbsi davam edir

***Azərbaycan Respublikasında əmək və əhalinin sosial müdafiəsi sferasının müasir tələblərə uyğunlaşdırılması, əhalinin sosial təminatının gücləndirilməsi, onların rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyi tərəfindən ardıcıl və məqsədyönlü islahatların həyata keçirilməsinə baxmayaraq, ayrı-ayrı vəzifəli şəxslər tərəfindən qeyd edilən sahədə vətəndaşlarla dövlət arasında olan nizamlı ictimai münasibətlərə qəsd edən qanunsuz hərəkətlərə təsadüf olunur.***

Bunun nəticəsidir ki, son vaxtlar belə hərəkətlərin aşkara çıxarılaraq təsirli tədbirlərin görülməsi istiqamətində hüquq-mühafizə orqanları müxtəlif əməliyyatlar həyata keçirir, həbslər aparır. Həmin həbslərdən biri iki gün öncə gerçəkləşib. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Abşeron rayon Tibbi-Sosial Ekpertiza və Reabilitasiya Xidmətinin sabiq rəisi Məmmədov Oruc Nüsrət oğlu həbs edilib. Bu barədə məlumat verən ƏƏSMN-in İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin rəisi Fazil Talıbov bildirib ki, adıçəkilən şəxs barədə nazirlikdə bir neçə ay əvvəl araşdırma başlanıb: ”Araşdırmanın nəticəsi olaraq onun fəaliyyətində ciddi qanun pozuntusu aşkarlanıb və həmin şəxs vəzifəsindən azad edilib. Bununla yanaşı, O. Məmmədovun fəaliyyətinə hüquqi qiymət verilməsi üçün sənədlər araşdırılması üçün prokurorluğa göndərilib. Araşdırmanın nəticəsi olaraq O.Məmmədov barəsində həbs qətimkan tədbiri seçilib”.



Bu ilin sentyabrında isə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 5 nömrəli Tibbi-sosial ekspert komissiyasının sədri Katib Məmmədovun vətəndaşdan 2-ci qrup əlillik dərəcəsinin təyin edilməsi müqabilində 2020-ci ilin avqust ayında 3000 manat məbləğdə pul vəsaitini rüşvət qismində istəyib, 2 sentyabr 2020-ci il tarixdə işlədiyi müəssisənin inzibati binasında həmin pulun 2300 manat olan hissəsini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Göstərilən fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib. Bundan sonra Baş İdarədə Cinayət Məcəlləsinin 311.2 (vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə görə rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb. İstintaq zamanı toplanmış ilkin sübutlara əsasən, Katib Məmmədov şübhəli şəxs qismində tutulub, 5 sentyabr 2020-ci il tarixdə o, Cinayət Məcəlləsinin 311.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Xatırladaq ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi əlilliyin müəyyən edilməsi və əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir. Agentlik 2019-cu ilin dekabrında ƏƏSMN yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin əsasında yaradılıb.

Agentliyin fəaliyyətə başlamasından sonra Azərbaycanda xüsusilə əlilliyin verilməsində uzun illər həlledici faktorlardan birinə çevrilmiş rüşvət amilinin tamamilə aradan qaldırılacağı gözlənilirdi. Lakin yuxarıda sadalanan faktlardan görünən odur ki, adıçəkilən qurum hələ də bu bəladan tamamilə xilas ola bilməyib.

Düzdür, öncəki illərlə müqayisədə əlillik təyinatına görə vətəndaşlardan rüşvət tələb edilməsi halları əhəmiyyətli şəkildə azalıb. Lakin problemin tamamilə aradan qaldırıldığını söyləmək çətindir. Üstəlik, KİV-də bununla bağlı şikayətlərə mütəmadi rastlanması da göstərir ki, əlilliyin təyin edilməsində rüşvət amili öz ”aktuallığını” qoruyur. Ona görə də Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi məlum bəladan qurtulmaq üçün öz fəaliyyətini daha şəffaf qurmaq, yeni dövrün idarəçilik çağırışlarına tabamilə cavab verə biləcək şəkildə davam etdirmək məcburiyyətindədir.

Əks halda biz bu Agentlik əməkdaşlarının rüşvət üstündə həbs olunduğuna dair xəbərləri hələ çox oxumalı olacağıq. Maraqlıdır ki, Sahil Babayev Əmək və əhalinin soail müdafiəsi naziri təyin olunandan sonra rüşvət qalmaqalları daha da çoxalıb. Amma ondan da maraqlısı odur ki, hər hansı qanunsuzluq ifşa olunan kimi, nazir və ətrafı öz tabeçiliklərində olan məmuru günah keçisi elan edirlər.

***Toğrul Əliyev***

# Birinci Qarabağ müharibəsində 3890 Azərbaycan vətəndaşı itkin düşüb - RƏSMİ

***“Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qurbanı olmuş bütün vətəndaşlarımız, o cümlədən itkin düşmüş şəxslərlə bağlı məsələ daim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir”.***

“Unikal” xəbər verir ki, bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov AZƏRTAC-a müsahibəsində deyib.

O bildirib ki, hazırda Dövlət Komissiyasında birinci Qarabağ müharibəsinin nəticələrinə görə 3890 Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi qeydiyyata alınıb: “Dövlət Komissiyası itkin düşmüş bütün vətəndaşlarımızın axtarışı sahəsində zəruri tədbirləri davam etdirir”.

E.Səmədov qeyd edib ki, bu iş həm də aidiyyəti beynəlxalq təşkilatlarla birlikdə həyata keçirilir: “BQXK-nın Azərbaycandakı nümayəndəliyi ilə Dövlət Komissiyası arasında imzalanmış “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı itkin düşmüş şəxslər haqqında Ante Mortem məlumatların toplanması və mərkəzləşdirilmiş şəkildə idarə olunması üzrə” çərçivə sazişinə əsasən, son illərdə bu iş daha intensiv aparılır. Saziş çərçivəsində itkinlərə aid 3600-dən çox sorğu anketi toplanılıb, məlumatlar elektron məlumat bazasına daxil edilib. Zəruri olan digər vacib iş isə itkin düşənlərin ailələrindən bioloji (DNT) nümunələrin götürülməsi ilə bağlıdır. Son illər ərzində 3 minə yaxın bioloji nümunə toplanaraq müvafiq qaydada sənədləşdirilib”.

# Vətəni yaşadanlar: "Çətin günlərdən keçdik" - İrəli"nin sədri



"Vətəni yaşadanlar" rubrikasına davam edir. Haqqında danışacağımız qəhrəman "İrəli" İctimai Birliyinin sədri Şahin Rəhmanlıdır. Onunla müsahibəni təqdim edirik.

***-Şahin bəy, bizə həyat yolunuzdan qısa danışa bilərsiniz?***

- Şahin Rəhmanlı, 1991-ci ilin 26 sentyabr tarixində Biləsuvar rayonunda, müəllim ailəsində doğulmuşam. Orta məktəb və ali təhsil müddətində hər zaman dərslərimlə yanaşı, ictimai aktivliyimə də diqqət yetirmişəm. 2014-2015-ci illərdə həqiqi hərbi xidmətimi Azərbaycan Respublikası Silhməramlı Qüvvələrinin tərkibində Əfqanıstan İslam Respublikasında NATO-nun Qətiyyətli Dəstək hərəkatı çərçivəsində keçmişəm. 2016-cı ildən "İrəli" İctimai Birliyində çalışıram və hazırda birliyin idarə heyətinin sədriyəm.

***- İllər sonra Qarabağımızı geri aldığımız Vətən müharibəsinə könüllü olaraq getmisiniz?***

- Bəli. Uşaqlıqdan vətənpərvər ailədə böyümüşəm. Məktəbimizin sinif otaqlarının əksəriyyətində məcburi köçkünlərin "yaşadığını" görəndə, həmişə soruşurduq, insan məktəbdə qalar? Niyə insanlarımız bu çətinlikdə yaşayırlar? - Onda verilən cavablar bizi Qarabağa daha da yaxınlaşdırırdı. dağıdılıb. Füzuli rayonunun mərkəzi hissəsinə baxdıqca, adama elə gəlir ki, min illərdir insan üzünə həsrət qalıb torpaqlar. Bu bir daha onu sübut edir ki, düşmən özü də qəbul edib ki, bu torpaqlar ona aid deyil.

***- Çətin olduğunu anlayıram, amma istərdim ki, azca da olsa, orada keçən bir gününüzü bizə təsvir edəsiniz. Sadə vətəndaş əsgərin, zabitin müharibə zamanı nələr ilə üzləşdiyini təsəvvürünə gətirsin.***

- Dövlət başçımızın dediyi kimi, bu döyüşlər bizim üçün Milli Qürur məsələsi idi. Ona görə də həmin anlarda heç bir çətinlik görmürdük. İndi bütün yaşadıqlarımızı yuxu kimi xatırlayıram. Həqiqətən çətin günlərdən keçdik, bəzən yuxusuz, bəzən yorğun, bəzən yaralanmış yoldaşlarına görə narahatlıq hissi... Ancaq çox şükürlər olsun ki, həm ordumuzun gücü, həm cənab Ali Baş Komandanın güclü iradəsi, həm də xalqımızın hər bir nümayəndəsinin dəstəyi və qayğısı ilə həmin çətinliklərin öhdəsindən mərdliklə gəldik. Cənab Prezident hər dəfə işğaldan azad etdiyimiz yerləri açıqlayanda, düşməni siyasi müstəvidə əzəndə ifadə etdiyi o məşhur kəlamlar hər bir əsgərin üzündə sevinc hissi yaradırdı. O sevinc ki, bütün çətinlikləri gözümüzdə heçə endirir və bizi illərdir həsrətində

***Azərbaycanlıyam... Bu söz necə də qürurlu səslənir. Bu hissi yaşayan hər bir Azərbaycan vətəndaşı xoşbəxtdir. Xoşbəxtdir ki, doğma yurdu, müstəqil dövləti, canını fəda edən oğulları var. Bizə oğul deyən Vətənimiz, uğrunda canımızı sevə-sevə qurban verəcəyimiz müqəddəs torpaqlarımız var. Daim fəxr ediləcək keçmişimiz, çiçəklənən bu günümüz, parlaq gələcəyimiz var. Vətənimiz də xoşbəxtdir ki, ona ürəkdən bağlı xalqı, yağılardan qoruyan güclü ordusu var.***

Bu torpaqlar uğrunda canını fəda edən oğullarım, ölümü gözə alaraq son günə qədər döyüşən qardaşlarımız var. Onları heç zaman unutmamalı, unutdurmamalıyıq. Modern.az saytı Verdiyimiz şəhidləri xatırlayanda, bizə qarşı törədilmiş qırğınları xatırlayanda, Xocalını xatırlayanda, əgər "irəli!" əmri verilərsə, "mən də o sıralarda olmaq istəyirəm" fikri keçirdi qəlbimizdən. Elə buna görədir ki, Vətən müharibəsinin başladığı ilk günlərdən, heç tərəddüd etmədən mən də döyüşlərə qatıldım.

***- Qarabağın bizə görmək qismət olmayan hansı ərazilərində döyüşmüsünüz?***

- Füzuli, Cəbrayıl, Xocavənd ərazilərində olduq, həmçinin, Qubadlı və Şuşa istiqamətində gedən döyüşlərdə də aktiv şəkildə iştirak etdik. Bir az əvvəldə qeyd etdiyim kimi, artileriyada olduğumuz üçün məsafə buna imkan verirdi. Həmin əraziləri gəzdikcə, insanın ürəyi parçalanır. Kəndlər, qəsəbələr, hətta şəhərlər də xaraba qoyulub, olduğumuz, şəhidlərimizin qanı ilə yoğrulmuş torpaqlara daha da yeyin irəliləməyə çağırırdı.

***- Hər an ölümlə üzbəüz idiz. Həmin anlarda ilk nə düşünürdünüz - ailə, uşaq, ev....***

- Yalnız Qələbəni! Və qalib əsgər kimi evə qayıdanda ailəmizin, dostlarımızın və bütün soydaşlarımızın üzündəki o qürur ifadəsini görməyi. Çünki çox yaxşı bilirdik ki, ən böyük rahatlıq torpaqlarımız azad olunandan sonra olacaq.

***- Şükürlər olsun, müharibədən sağ-salamat döndünüz. Geri qayıdan zaman hansısa cəbhə yoldaşınızın ailəsinə çatdırdığınız bir söz oldumu?***

- Əlbəttə, ilk növbədə salamlarını və yaxşı olduqlarını çatdırdım. Və ən önəmlisi Qələbə xəbərini bir də onların dilindən səsləndirdim.

***- 10 noyabr Qələbə xəbərini cəbhədə aldınız. Bu şad xəbəri cəbhə yoldaşlarınızla necə qeyd etdiniz?***

- Həmin gecə yatmamışdıq. Qızğın döyüşlər gedirdi. Xəbəri alanda hər kəsin sevinci dağ boyda idi. Düşmənin bir qorxaq kimi qaçmasını bilmək, növbəti torpaqların bir güllə belə atılmadan azad olunacağı xəbərini almaq möhtəşəm idi. Demək olar ki, həmin gecə səhərə kimi yatmadıq və döyüşlərin əvvəlindən keçdiyimiz günləri xatırladıq.

***- Çiyin-çiyinə döyüşdüyünüz silahdaşlarınızdan şəhid olanların ailələrinə nə demək istəyirsiniz?***

- Allah bütün şəhidlərimizi rəhmət eləsin. Onları əsl vətənpərvər kimi yetişdirən valideynlərin əllərindən öpürəm. Qoy onlar bilsin ki, bütün xalqımız şəhidlərimizə borcludur. Onların sayəsində bu gün biz azadıq, güclüyük. Qoy onlar bilsinlər ki, döyüş meydanında olan hər birimiz bu müqəddəs məqama yüksəlməyə can atırdıq. Qoy onlar bilsinlər ki, övladları ölümləri ilə bir ölümsüzlük qazandılar! Xalqın, millətin qəlbində əbədi yaşayacaqlar!

***- Bəs müharibə dövründə bir yumruq altında birləşdiyiniz döyüş yoldaşlarınıza və bu gün Vətənin keşiyində duran əsgərlərimizə nə deyərdiniz?***

- Möhkəm olun! Siz müzəffər bir ordunun əsgərisiniz! Başınızı dik tutun! Siz şəhidlərimizin qisasını aldınız! Siz Xocalının qisasını aldınız! Siz bir daha sübut etdiniz ki, yumruq kimi birləşib və o yumruğu düşmənin başına endirə bilən bir xalqın nümayəndəsisiniz.

İnşallah, sağ-salamat xidmətinizi başa vurun qayıdın, sonra bu möhtəşəm qələbəmiz haqqında uzun illər danşacağıq!

***- Son olaraq, əgər müharibəni bir cümlə ilə ifadə edin deyilsə, nə deyərdiniz?***

- Fikrimi şairin sözləri ilə ifadə etmək istəyirəm:

Millətin qəlbində yer etməz kədər,
Əsrlər dəyişər, sənələr keçər.
Nə qədər qaranlıq olsa gecələr,
Mümkünmü sonunda sabah olmasın?!

Şükürlər olsun ki, biz həmin sabahdayıq!

***Fidan İlqarqızı***



# Sentyabrın 27-dən bu günə qədər 54 erməni əsirlikdən azad edilib - RƏSMİ

***Bu il sentyabrın 27-dən bu günə qədər keçirilmiş bütün humanitar proseslərdə bütövlükdə 54 erməni azad edilib.***

Unikal.org xəbər verir ki, bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov deyib. O bildirib ki, onlardan 6 nəfəri 2020-ci il sentyabrın 27-dən əvvəl Azərbaycan ərazisində saxlanılmış şəxslərdir: "Bundan başqa, Ermənistan silahlı qüvvələrinin geri çəkilərkən döyüş bölgəsində köməksiz vəziyyətdə qoyub getdikləri ağır xəstə olan 2 nəfər yaşlı erməni mülki şəxs Azərbaycan tərəfindən yerləşdirildikləri xəstəxanada aldıqları müalicəyə və həkimlərin hərtərəfli səylərinə baxmayaraq, vəfat etdikləri üçün meyitləri beynəlxalq təşkilatların vasitəçiliyi ilə qarşı tərəfə təhvil verilib".

E. Səmədov deyib ki, Azərbaycan tərəfi 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına hələ müstəqilliyinin ilk illərində, 1993-cü ildə qoşulub, beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərə və humanizm prinsiplərinə daim sadiq olub: "Ermənistan Respublikasının hərbi təxribat əməlləri ilə bağlı Azərbaycan Ordusunun əks-hücum əməliyyatına başladığı 2020-ci il sentyabrın 27-dən sonra Azərbaycan hərbçilərinə təslim olmuş Ermənistan hərbçiləri və döyüş bölgəsindən təxliyyə olunmuş mülki şəxslər Cenevrə Konvensiyalarının tələblərinə əsasən, dərhal internə edilib, saxlanma şəraiti, onlarla davranış, qida, su təminatı və yaralıların müalicə hüquqları tam təmin olunub.

Dövlət Komissiyası əsir düşmüş Ermənistan hərbçiləri və saxlanılan şəxslər barədə məlumatları müntəzəm qaydada BQXK-ya təqdim edib, qurum əməkdaşlarının onlara baş çəkmələrinə hərtərəfli şərait yaradıb. Həmçinin əsirlərin və saxlanılan şəxslərin öz yaxınlarına məktub yazmasına, bəzilərinin video ismarıclar göndərməsinə, o cümlədən telefon əlaqəsi saxlamalarına imkanlar yaradılıb".

# Azərbaycan polisi Xocavənddə



***Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə təhlükəsizlik tədbirləri gücləndirilir.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan Unikal.org-a bildirilib ki, Xocavənd rayonunun ərazisində Rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları xidməti fəaliyyətini davam etdirir.

Rayonun ərazisində xidməti postlar qurulub və təhlükəsizliyə tam olaraq nəzarət edilir.



# Xəstəxananı tərk edən COVID-19 xəstəsi saxlanıldı

***Yevlax rayonunda aktiv koronavirus xəstəsi ictimai yerdə aşkarlanıb.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Yevlax RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində COVID-19 xəstəsi kimi qeydiyyatda olan rayon sakini Zeynal Məmmədovun müalicə aldığı rayon Mərkəzi Xəstəxanasını tərk edərək karantin qaydalarını kobud şəkildə pozduğu müəyyən edilib.

Həmin şəxs müəyyən edildiyi ərazidən polis əməkdaşlarının müşayiəti ilə müalicə aldığı xəstəxanaya geri qaytarılıb. Onunla proflaktiki mövzuda söhbətlər aparılıb, təyin edilmiş müalicənin sona qədər davam etdirilməsinin zəruruliyi diqqətinə çatdırılıb.

Yevlax RPŞ-nin İstintaq bölməsində araşdırma aparılır.

# "Cəsədləri gizlədənlər cəzalandırılmalıdır"- Sarkisyanın kürəkəni

***Ermənistanın Vatikandakı keçmiş səfiri və eks-prezident Serj Sarkisyanın kürəkəni olan Mikael Minasyan Ermənistanın böhrandan çıxış yollarını təqdim edib.***

"Unikal" xəbər verir ki, o, ölkədə keçiriləcək növbəti seçkilərə qədər görülməli olan işlər haqqında təkliflərini irəli sürüb.

Minasyan indiki baş nazirin ölkəsini dağıtdığını, on minlərlə insanın həyatını məhv etdiyini və bununla belə özünün siyasi ömrünün uzatmağa çalışaraq növbəti seçkiyə qədər güclənmək istədiyini bildirib: "Növbədənkənar seçkilərin keçirilməsi qaçılmazdır. Amma məsələ bunda deyil. Önəmli məsələ Paşinyanın "siyasi meyit"inin çıxarılması və seçkilərə qədər nələrin edilməsidir. Seçkilərə qədər biabırçı məğlubiyyətimizin siyasi nəticələrini aradan qaldırmaq lazımdır. Xüsusilə bəzi məqamları qeyd etmək istərdim. Birinci olaraq bu məğlubiyyətə siyasi və milli qiymət verilməlidir. Satqınlara və hərbi canilərə cinayət işi açılmalıdır. Bütün xarici agent şəbəkələri açılmalıdır. Cəsədlərin gizlədilməsi proseslərində iştirak edən hər bir şəxs cəzalandırılmalıdır. Müharibədən sonra yeni əsirlərimizin olmasında günahı olanları da tapıb cəzalandırmaq lazımdır. Bütün bunlar- həqiqət, günahkarlar açıqlandıqdan sonra yeni seçkilər elan olunmalıdır. O seçkilər ki, bütün vətəndaşlar artıq sadalanan proseslərdən məlumatlı olaraq səs verəcəklər".

Minasyan deyir ki, xalqın indi yeganə tələbi Nikol Paşinyanın heç bir şərt irəli sürmədən istefaya getməsidir: "Bundan sonra qurulacaq müvəqqəti hökumət isə üç əsas hədəf və funksiyanı əsas götürməlidir- 1. Çökmüş dövlət hakimiyyətini yeniləmək, Ermənistanın, xalqın təhlükəsizliyini təmin etmək. 2. Bir neçə həftədən sonra gələcək iqtisadi çöküşün qarşısını almaq. 3. Müharibədə məğlubiyyətə cavabdeh olanları cəzalandırılması. Müvəqqəti hökumət ədalətli mühakiməyə zəmanət verir. Nikolun indi təqaüdə çıxması lazımdır".

# Ermənilər yaşayan ərazilərimiz yurisdiksiyamıza necə keçəcək: Vacib mərhələlər

***Hazırda cəmiyyəti ən çox maraqlandıran və geniş müzakirə edilən sualların başında bunlar gəlir: Ermənilər yaşayan ərazilərimizin de-fakto Azərbaycanın yurisdiksiyasına keçmə prosesi necə olacaq? Bu, nə vaxt yekunlaşacaq? Sadə dillə desək, "Bayrağımız nə vaxt Xankəndində dalğalanacaq?"***



Azvision.az bununla bağlı tanınmış hüquqşünas, ekspert Sahib Məmmədovun fikirlərini təqdim edir:

Sadə insanın, sosial şəbəkə istifadəçisinin qısa, aydın və konkret cavablar axtardığını başa düşürük, amma bu, məhz o haldır ki, bir-iki sözlə mövzunu əhatə etmək mümkün deyil. Çünki Rusiya hərbiçilərinin əhatəsində qalan ərazilərimizin de-fakto Azərbaycan yurisdiksiyasına keçməsi üçün xeyli proseslər var. Biz onların hamısını bir-bir keçməliyik. Bunlardan əsas olanların bir hissəsini nəzərdən keçirək:

1) Həmin ərazilərdə yaşayacaq ermənilər Azərbaycan vətəndaşlıqlarını təsdiq etdirməlidirlər. Bunun üçün onlar 1992-ci ilin yanvar ayının 1-nə qədər həmin ərazilərdə yaşamış olduqlarını sübut etməlidirlər. Bu dövrdən sonra doğulanlar isə "qan hüququ" əsasında vətəndaşlıqlarını təsdiqlədə bilərlər. 1992-ci ilin yanvar ayının 1-dən sonra əraziyə köçüb gələnlərə vətəndaşlığın verilib-verilməsi Azərbaycan Prezidentinin müstəsna səlahiyyətinə aid məsələdir. Məsələn, kimsə yerli erməni ilə nikaha girmək üçün həmin əraziyə köçübsə, bu zaman ona vətəndaşlıq verilə bilər (verilməyə də bilər).

2) Bu ərazilərdə 30 ildən artıq müddətdə Azərbaycan Respublikasının qanunvericiliyi tətbiq olunmayıb. Beləliklə, ərazilərdə Azərbaycan Respublikasının qanunvericiliyinin tətbiqi bir qədər uzun prosesdir. Niyəsini izah etsəm, böyük bir yazı alınar. Qısaca deyim ki, ilk növbədə qanunvericiliyi hissə-hissə tətbiq etmək zərurəti yaranacaq.

3) Hazırda həmin ərazilərdə Ermənistanın oyuncaq rejimi idarəetməni davam etdirir. Deməli, ilk növbədə Konstitusiyanın 124-cü maddəsinə uyğun olaraq, yerli icra hakimiyyəti orqanları formalaşmalıdır. Daha sonra polis, məhkəmə, prokurorluq, sosial təminat, təhsil, mədəniyyət, daşınmaz əmlakın reyestri xidməti, vergi, gömrük və s. orqanlar tədricən müvafiq qurumların təyinatları olmaqla yenidən təşkil edilməlidirlər. Növbəti bələdiyyə seçkilərində yerli özünüidarə orqanları da formalaşdırılmalıdır.

4) Hazırda bölgənin kommunikasiyaları Ermənistana bağlıdır. O cümlədən, rabitə, enerji təchizatı, qaz və s. Bankmaliyyə sistemi də həmçinin. Bu məsələlər də həll olunmalıdır.

5) Təhsil ən ciddi məsələlərdəndir. Orada tədris erməni və rus dillərində aparılır. Dərsliklər Azərbaycan xalqına nifrət aşılayan erməni dərslikləridir. Qondarma "soyqırım" və "Artsax Respublikası"nın saxta tarixi tədris olunur. Coğrafiya dərslərində vaxtilə işğal altında olan ərazilər bu qondarma qurumun əraziləri kimi, qondarma erməni adları ilə təqdim olunur. Amma indi onlar Azərbaycanın Təhsil Nazirliyinin tabeçiliyinə keçməli, bizim təhsil sistemini qəbul etməli və dərslər Azərbaycan dilində aparılmalıdır (təbii ki, müəyyən istisnalarla). Tarix dərsində ermənilərin Azərbaycan xalqına qarşı cinayətləri, o cümlədən, Xocalı soyqırımı tədris olunmalıdır.

6) Sosial təminat məsələləri də çox vacibdir. 30 ildən artıqdır ki, orada yaşayan ermənilər bizim sosial təminat sistemindən kənardadırlar. 2006-cı ildən başlayaraq, pensiya yığımı fərdiləşib və hərə özü üçün yığım etməlidir. İndi belə çıxır ki, biz yığdıqlarımızın bir hissəsini (onsuz da yığdığımız özümüzə bəs etmir) erməni mənşəli vətəndaşlarımıza verməliyik? Hər halda, həlli problemli məslələrdəndir.

7) İdarəetmə tam olaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun aparılmalıdır. Bütün dövlət orqanlarında kargüzalıq Azərbaycanın dövlət dilində olmalıdır.

8) Arxiv, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və əmlak qeydiyyatı məsələləri həll olunmalıdır. Kiçik iş deyil.

9) Deportasiya olunmuş əhali geriyə qayıtmalıdır və yerləşməlidir.

10) Orada yaşayan ermənilərin arasında Azərbaycan xalqına qarşı hərbi, insanlıq əleyhinə və soyqırım cinayətləri törədənlər tapılıb, mühakimə olunmalıdırlar. Bu halda nə əfv, nə amnistiya mexanizmi tətbiq edilməlidir.

Siyahını xeyli uzatmaq da olar. Amma ən azı bunların edilməsi illərlə vaxt aparacaq. İndi bizi Müzəffər Ordumuzun qalib əsgərlərinin çəkməsi altında qalmış əski parçasının hardan asılmasından daha çox, bu məslələrin həlli düşündürməlidir.

Və çoxlarını düşündürən ən vacib suallardan biri: Ermənilər yuxarıda sadalanılanların icra olunmasına müqavimət göstərsələr, onda necə olacaq?

Bu haqda düşünəndə bir vacib məqamı nəzərə almalıyıq: Əvvəllər orada yaşayanların çoxunun qazancı hərbi xidmətdən və hərbi infrastrukturun saxlanılmasından gəlirdi. İndi bu qazanc olmayacaq. Əvvəllər onlar işğalda saxladıqları ərazilərimizi istismar edir, söküb satır, əkib-biçirdilər. Mədən sənayemizi mənimsəyirdilər. Mineral sularımızı satırdılar. Turizmi qismən bərpa etmişdilər. İndi bunların heç biri olmayacaq. Deməli, kimsə onları saxlamalıdır. Ermənistan təkbaşına bunu edə bilməyəcək. Rusiya yardımı da kifayət etməyəcək. Belədə onların orada yaşamaları sual altına düşür. Ermənilər torpağa bağlı xalq deyillər, köçəri xalqdırdır. Və bu, tezliklə özünü növbəti dəfə göstərəcək.

***Sahib Məmmədov***

# "Qarabağın məşhur müəllimləri" - Əşrəf Abbasov

***Təhsil Nazirliyinin "Qarabağın məşhur müəllimləri" layihəsinin növbəti siması Azərbaycan bəstəkarı, musiqişünas və pedaqoq Əşrəf Abbasovdur.***




"Unikal" xəbər verir ki, o, 1920-ci ildə Şuşa şəhərində anadan olub. Görkəmli bəstəkar, musiqişünas, pedaqoq, professor, Xalq artisti Əşrəf Abbasov Azərbaycan incəsənət tarixinə unudulmaz musiqi xadimi kimi daxil olub, müxtəlif janrlarda maraqlı əsərlər yaradıb.

Əşrəf Abbasov 1947-1948-ci illərdə A. Zeynallı adına Musiqi Texnikomunun (indiki Azərbaycan Milli Konservatoriyasının nəzdində Musiqi Kolleci) direktoru olub. 50 ilə yaxın Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) bəstəkarlıq kafedrasının müəllimi, 1953-1957-ci illərdə konservatoriyanın rektoru, 1957-1972-ci illərdə bəstəkarlıq kafedrasının müdiri vəzifələrində çalışıb. Konservatoriyanın nəzdində onillik musiqi məktəbində musiqi nəzəriyyəsi dərsləri üzrə müəllimlik fəaliyyəti göstərib.

Qeyd edək ki, "Qarabağın məşhur müəllimləri" layihəsi çərçivəsində Qarabağda doğulan və pedaqoji fəaliyyətlə məşğul olan tanınmış şəxslər barədə məlumatlar təqdim olunur. Layihənin məqsədi əslən Qarabağdan olan məşhur müəllimləri yad etməkdir.

# "Vəziyyətin lap pisləşməsini istəmirlərsə, testi və dərmanları əlçatan etsinlər" - Həkimlə müsahibə

***Tibb mütəxəssisləri COVID-19-la mübarizədə ən effektiv üsul olaraq vaksinasiyanı göstərirlər. Elə Nazirlər Kabineti yanında Operativ Qərargahın sonuncu brifinqində də koronavirusla mübarizədə ən effektiv yolun vaksinasiya olduğu vurğulandı. Cəmiyyətdə isə vakinlərlə bağlı fikirlər birmənalı deyil.***

"Unikal" xəbər verir ki, mModern.az mövzunun aktuallığını nəzərə alaraq, həkim Qalib Əsədovun fikirlərini öyrənib. Onunla müsahibəni təqdim edirik:

***- Doktor, ilkin olaraq insanların anlaya biləcəyi bir dildə vaksinin nə olduğunu izah etmənizi istərdik.***

- Ümumiyyətlə, yoluxucu xəstəliklərin müalicəsində vaksinasiya geniş tətbiq olunan metoddur. Xüsusilə dayanıqlı immunitet əmələ gətirən xəstəliklərlə - çiçək, qızılca ilə bir dəfə xəstələndinsə, qanda antitellər yaranır və ömrünün sonuna qədər həmin virus sənin üçün təhlükəli olmur.

***- Bəs COVID-19-la bağlı vaksinlər?***

- Konkret olaraq, COVID-19 virusunun vaksininə gəldikdə, bu virusun maddələrilə orqanizmi xəstələndirirlər ki, qanda antitellər yaransın və sən növbəti dəfə koronavirusa yoluxmayasan. Biz yay fəslindən deyirdik sərt karantin rejimi götürülsün, rayonlara gediş-gəliş bərpa olunsun, insanlar havaya çıxsın, bir-birilə təmasda olsun ki, hamının bədəninə az miqadarda virus dozası daxil olsun və kollektiv immunitet yaransın. Çində, Cənubi Koreyada yoluxma sayı azalıb, çünki sərt karatin yoxdur. Bu elə vaksinasiyanın bir növüdür.

***- Bir neçə gün əvvəl TƏBİB-in İdarə heyətinin sədri Ramin Bayramlı vaksinin vacibliyini vurğulasa da, sosial şəbəkələrdə bəzi insanların vaksinlərə inanmadığı və bundan imtina edəcəyilə bağlı fikirlər müzakirə edilir...***

- TƏBİB-in həyata keçirmək istədiyi vaksinasiyaya gəldikdə, insanların narahatlığı başadüşüləndir. Çünki virusun ölkəmizdə yayıldığı 9 ay boyunca Azərbaycanda mövcud olan səhiyyə qurumları virusla mübarizəni düzgün təşkil etmədi. İlkin olaraq testləşmə, apteklərin dərmanlarla təchizatı yaxşılaşdırılmalı idi. Əvvəldən yaranan narazılıqlar da məhz indiki situasiyada insanların inamsızlığına gətirib çıxarıb. Biz 9 aydır sərt karantin rejimində yaşayırıq. Azərbaycan dünyanın ən uzun və sərt karantin tətbiq edən ölkəsidir. Dünyanın 220 ölkəsi arasında isə yoluxmanın yayılmasına görə 45-ciyik. Evdə müalicə alanlar, xəstəliyi asimptom keçirənlər, özəl klinikalarda test verənlər bu saya daxil deyil. Bunlar da daxil edilsəydi, bəlkə də birinci yerdə olardıq.



***- Artıq bir neçə ölkənin istehsalı olan vaksinlər 3-cü sınaq mərhələsindədir. Sizcə hansı daha effektli ola bilər?***

- Bu gün dünyada ABŞ-ın "Moderna", İngiltərənin Oxford şirkətinin hazırladığı vaksinlər 3-c sınaq mərhələsindədir. Bu o deməkdir ki, artıq vaksinlər insanlar üzərində sınanıb və uğurlu nəticələr qeydə alınıb. Rusiyanın hazırladığı "Sputnik" vaksini 3-cü mərhələdən keçmədi, çünki ağırlaşmalar oldu.

İnsan xəstələnir və sən ona dərman verib müalicə edirsən. Vaksin isə tam sağlam adama vurulmalıdır ki, fəsadlaşma olmasın, həm də əlavə təsirlərinin olub-olmadığı yoxlanılsın. Yəni yoxlamaq lazımdır ki, həmin insanın qaraciyərində, böyrəyində, ürəyində hansısa xəstəliklər varmı, başqa orqanlara hansı fəsadlar verə bilər. İndiyə kimi ümumiyyətlə mövcud olan vaksinlər əsasən uşaqlara vurulub. Amma uşaq kəllə-beyin travması alıbsa, doğuşdan hansısa qüsurları varsa, ona peyvənd vurulmur. Amma indiki COVID-19-la bağlı vaksini ilkin olaraq kimlərə vuracaqlar? Yaşı 65-dən yuxarı olanlara, hansı ki, biri infarkt keçirib, birinin şəkəri var, birinin təzyiqi var. Yəni yaşı 65-in üzərində tam sağlam olan insan demək olar ki, yoxdur. Bu vaksin həmin insanlar üzərində sınananda hansı nəticələr olacaq, bu bəlli deyil.

***- Belə anlaşılır ki, vaksinin təhlükəsiz olmasına əmin deyilik...***

- Əlbəttə, vaksinlərin tam təhlükəsiz, yəni 3-cü sınaqdan neçə insan üzərində müsbət keçməsi barədə məlumat olmasa, insanlar təbii ki, inamsız yanaşacaqlar.

***- Vaksinasiyaqabağı "vaksinasiya olunum-olunmayım" sualı qarşısında, çaşqınlıq içərisində olan vətəndaşlarımıza bir həkim olaraq, məsləhətiniz nədir?***

- Əslində mən özüm də o insanlardan biriyəm. Mən özüm də bu çaşqınlıq içərisindəyəm. Çünki koronavirus ailəsinə daxil olan viruslarda dayanıqlı immunitet yaranmır. Onda belə çıxır ki, hər altı aydan bir vaksin vurduraq. Biz hələ yaydan deyirdik ki, karantin rejimini aradan götürüb, insanları havaya çıxmağa, dənizə getməyə icazə verilməlidir. Dünya ölkələrinin bir çoxu bunu başa düşdü və karantini götürdü. Bu gün dünyanın heç bir yerində küçəyə SMS-lə çıxmaq yoxdur. Maska taxmaq, məsafə saxlamaq, gigiyena qaydalarına əməl etmək bütün dünyada tələb edilən qaydalardır. Amma bu şəkildə sərt karantin orqanizmin immunitetinin aşağı düşməsinə, antitellər yaratmaq qabiliyyətinin zəifləməsinə, virusun çoxalmasına gətirib çıxarır. Biz çox dedik, amma eşitmədilər.

***- Doktor, rəsmilər də etiraf edir ki, sərt karantin rejiminin tətbiqi əslində yüklənmiş səhiyyənin yükünü azaltmaq, çarpayı sayını artırmaq üçün vaxt qazanmağa hesablanıb.***

- Yüklənən səhiyyə sistemi deyəndə, yayda bizim gündəlik yoluxma sayımız 500-600 idi. O vaxt da deyirdilər səhiyyə sistemi yüklənib, yoluxma 4 mini keçib, yenə deyirlər səhiyyə sistemi yüklənib. Bu gün insanlar xəstəxanaya daha çox niyə getmək istəyir, çünki onlara dərman verilir. Əgər apteklərdə dərmanlar olsa, xəstəxanaya gedənlərin yarısı evdə müalicə alar. Bu gün hətta yüngül simptomlu xəstələr belə, özlərini xəstəxanaya çatdırmağa çalışırlar ki, heç olmasa dərmanları olacaq. Bu gün apteklərdə adicə vitamin "C" yoxdursa, biz hansı koronavirusla mübarizədən danışırıq. Yüklənməni istəməyənlər Cənubi Koreyadakı, Çindəki "3D" metodundan istifdə etsin.

***- Nədir "3D" metodu?***

- "3D" metodu odur ki, küçələrdə, hər yanda polis postları deyil, test postları qoyublar. Hamı bir nəfər kimi işinin-gücünün arxasınca gedərkən, test verir. Testin cavabı bizdəki kimi 7 günə yox, 7 dəqiqəyə hazır olur. Kimdə nəticə pozitiv çıxırsa, dərhal dərman verilir. Cənubi Koreyada 51 milyon insan yaşayır və ümumi yoluxanların sayı 30 mindir. Bizdə isə 10 milyon insan var və yoluxanların sayı 200 minə yaxınlaşır. Cənubi Koreyada cəmi 526 nəfər öldüyü halda, bizdə ölənlərin sayı 2 mini keçib. Vəziyyətin pisləşməsini istəməyən adam testi və dərmanları əlçatan etməli idi. Daha 9 ay karantin rejimi olar? Təsəvvür edin, bu gün Azərbaycanda toy etmək az qala ağır cinayət sayılır. Gənclər neyləsinlər, qoşulub qaçsınlar, yoxsa elə nikaha girib bir-birinin evinə getsinlər? İnsan həyatında bir dəfə olan xoşbəxt gün az qala terrorizmə bərabər qiymətləndirilir. 14 dekabra qədər restoranda yad adamlarla bir yerdə yemək yeməyə icazə verilirdi, indinin özündə avtobuslarda insanlar üst-üstə gedir, amma 10 nəfərin toplaşıb şənlənməsi cinayət hesab edilir. Bu absurddur, insanları bu qədər də neqativə kökləmək olmaz. Biri açıq havada meyvə-tərvəz satır, yaxud ayaqqabı təmir edir, ailə üzvü ilə ad günü qeyd edir, ona cərimə yazırlar. Mənə elə gəlir ki, bu qərarları verən bəzi adamlar insanların sevinməsinin əleyhinədirlər. Biz qələbə sevincimizi belə, illərdir gözlədiyimiz qələbə paradını belə, sevinclə yaşaya bilmədik. Azərbaycanın böyük problemi həll edildi və biz koronavirus səbəbindən ürəkdən sevinə bilmədik. Ona görə ki, səhiyyənin başında duranlar səhlənkar və səriştəsizdirlər.

***Gülşən RAUFQIZI***

## AzMİU 4-cü dəfə UI Green Metric reytinq bazasına daxil olub




***Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) bu il 4-cü dəfə "UI Green Metric World University" reytinq bazasına ekoloji cəhətdən dünyanın ən ekoloji universitetləri siyahısına daxil olub. Qeyd etmək lazımdır ki, UI Green Metric reytinqi İndoneziya Universiteti tərəfindən 2010-cu ildən nəşr olunur.***

Unikal.org xəbər verir ki, AzMİU dünyanın 912 universiteti arasında 387-ci yerdə, ölkə Ali təhsil müəssisələri üzrə isə universitetimiz 1-ci yerdə qərarlaşıb.

Reytinqin altı əsas meyarları arasında istehlak və enerjiyə qənaət göstəriciləri, su ehtiyatlarının səmərəli istifadəsi, tullantıların saxlanması və emalı, ətraf mühitə uyğun nəqliyyat vasitələrinin istifadəsi və kampus ərazisində yaşıllıq sahəsini qiymətləndirilir. Eyni zamanda reytinqdə təhsil və elmi fəaliyyət göstəriciləri də nəzərə alınır.

UI Green Metric World University Ranking ekologiya sahəsində yeganə beynəlxalq reytinqdir və onun məqsədi akademik cəmiyyətin diqqətini cəlb edərək ətraf mühit problemlərinin həllinə kömək etməkdir.



# 4 ÖLKƏ QƏTƏRLƏ UZLAŞMA VARİANTINI SEÇDİ

## Bölgədəki hərəkətlilik Türkiyəyə nə vəd edir? - TƏHLİL

***Bir müddətdir ki, bölgəmizdə inanılmaz şəkildə intensiv olan diplomatik hərəkətlilik var. Hamımızın gözü önündə olan təmaslar, açıqlamalarla birlikdə, qapalı qapılar arxasında bir çox yeni addımların atılmaqda olduğunu düşündürən hadisələr haqqında xəbərlərin ard-arda gəlməkdə olduğu bir dövrdən keçirik.***

Türkiyənin bir müddətdir səfirinin olmadığı İsrailə səfir təyin edəcəyi haqqında xəbərlər gəlir. Eyni zamanda Ankaranın bu ölkəyə yönəlik bəzi yeni təşəbbüslər göstərməsi haqqında da xəbərlər gəlməkdədir.

Bir müddətdir ki, Misirlə münasibətlərlə bağlı da bəzi təşəbbüslərin ola biləcəyi diplomatik qaynaqlar tərəfindən ifadə edilir.

Digər tərəfdən də bunların baş verdiyi bir zamanda bizə “Görəsən, Qətərlə bağlı atılmaqda olan bəzi addımların Türkiyə üçün anlamı nə ola bilər?” sualını söylədən bəzi hadisələrin baş verməsi haqqında da xəbərlər gəlib.

### Türkiyə üçün bunun anlamı nədir?

Səudiyyə Ərəbistanı, BƏƏ, Bəhreyn və Misir 2017-ci ilin ortalarında “terrora dəstək verməsi” səbəbilə Qətərlə bütün diplomatik, ticarət əlaqələrini kəsmişdi.

Bu 4 ölkə Qətərlə əlaqələri bərpa etmək üçün 13 tələb irəli sürmüşdü. Qətər uzun müddətdir ki, bu tələbləri qəbul etmirdi. İrəli sürülən bu 13 tələbin içində mərkəzi Qətərdə yerləşən “Əl-Cəzirə” televiziyasıyla yanaşı, ölkədəki türk hərbi bazasının qapadılması və “Müsəlman qardaşları”na verilən dəstəyə son verilməsi şərti də var idi.

### Yeni bir proses başlayırmı?

Lakin bir müddətdir ki, bu ölkələr, xüsusilə Səudiyyə Ərəbistanı (ABŞ-ın anlayışlı dəstəyini də alaraq) əlaqələri bərpa etmək üçün təşəbbüslər göstərirdi. Xüsusən də Misir mediasına çatan son məlumatlara görə, aralarında Misirin də yer aldığı bu 4 ölkənin Qətərlə uzlaşma yollarını tapdığı haqqında xəbərlər gəlir.

### Makronla görüşdən sonra

Misirin Xarici İşlər nazirindən müsahibə götürən Misir televiziyasındakı görüntülərdən anladığma görə, Misir Sisinin Fransaya etdiyi axırıncı rəsmi səfərə son dərəcə önəm verir.

Misir Prezidenti Sisinin bu səfəri zamanı Fransa Prezidenti Makron, silah satmaq naminə, Misirdəki insan haqları pozuntularına məhəl qoymayaraq əlaqələri davam etdirəcəyini də açıqlamışdı.

Adıçəkilən bu dörd ölkənin Qətərlə bəzi addımlar atmaqda olduqları haqqında xəbərin bu səfərdən sonra ortaya çıxmasının bir təsadüf olmadığına işarət edən diplomatik qaynaqlar, indi Doha ilə atılmaqda olan bu addımların Türkiyə baxımından regionda və Şərqi Aralıq dənizində nə ifadə edəcəyinə baxmaq lazım gələcəyini söyləyirlər.

***Sərdar Turqut***
***“Habertürk”, Türkiyə, 16 dekabr 2020-ci il***

# Türkiyə Ukrayna ordusunu gücləndirir - Ankara Kremli təşvişə salır

***Ankara ilə Kiyev arasında hərbi əməkdaşlıq getdikcə daha fəal şəkildə inkişaf edir. Müdafiə və texniki əməkdaşlıq haqqında 2020-ci ilin oktyabrında imzalanan memorandum konkret layihələrlə icra olunur. Bazar ertəsi günü Kiyevdə Ukraynanın müdafiə naziri Andriy Taran və Türkiyə Müdafiə Sənayesi Müdirliyinin rəhbəri İsmayıl Dəmir korvet və PUA-ların birgə istehsalı barədə razılığa gəliblər. Ukraynalı nazirin sözlərinə görə, söhbət Ukrayna Hərbi Dəniz Qüvvələrinin (HDQ) imkanlarını kökündən gücləndirmək üçün hazırlanmış layihələrdən gedir.***

Andriy Taranın sözlərinə görə, ölkənin ərazi bütövlüyünü bərpa etmək, yəni Donbas və Krımın Ukraynaya qaytarılması üçün donanma gücləndirilməlidir. Ukrayna Azov-Qara dəniz hövzəsində hərbi əməliyyatlara inadla hazırlaşır və gördüyünüz kimi, Türkiyə buna kömək edir. Oktyabr ayında Ankarada ukraynalı vəzifədaşı Vladimir Zelenski ilə görüşən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Krımın Rusiyaya ilhaqını tanımayacağını söyləyib. “Biz həmişə Krım da daxil olmaqla, Ukraynanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləmişik”.

Hərbi-texniki sahədə Türkiyədən dəstək hərbi gəmilərin birgə istehsalından ibarət olacaqdır. Mütəxəssis hesablamalarına görə, Türk donanması öz qabiliyyətləri baxımından Rusiyanın Qara dəniz donanmasından geri qalmır. Bunun səbəbi bir çoxu türk gəmiqayırma zavodlarında inşa edilmiş müasir sualtı qayıqlar, freqatlar və korvetlərin olmasıdır. Beləliklə, MILGEM layihəsinə görə, 10-15 il ərzində 200 km-ə qədər sahil və dəniz hədəflərinə zərbə endirə bilən, “Harpun” gəmi əleyhinə qanadlı raketləri (ASM) ilə silahlanmış “Ada” tipli dörd çoxməqsədli korvet istifadə verilib.

“Ada” tipli korvetlər 2 həftə ərzində sərbəst sualtı qayıq əməliyyatları və açıq dənizlərdə patrullar apara bilər, onların dizaynlarında gizli texnologiyadan istifadə edilir. Yaxın gələcəkdə Türkiyə daha bir neçə oxşar gəmini istismara vermək niyyətindədir və indi Pakistan donanması üçün dörd MILGEM korveti inşa edir.

Hərbi ekspert, ehtiyatda olan polkovnik Şamil Qareyev “NG”-yə bildirib: “Sazişin Kiyevdə imzalanmasından sonra Türkiyə və Ukrayna birlikdə “Ada” tipli korvetlər inşa edəcəklər. Eyni zamanda dəyişikliklər mümkündür. Çox güman ki, ortaq gəmi modellərində əvvəllər rus korvetlərinə və freqatlarına quraşdırılmış Ukrayna qaz turbinli mühərriklərindən istifadə ediləcəkdir. Həm də “Harpun” gəmi əleyhinə raket sistemi əvəzinə Ukrayna gəmilərə 300 km-ə qədər hədəfi vura bilən “Neptun” qanadlı raketləri quraşdıra bilər. Bildiyiniz kimi, Ukrayna ordusu bu nəhəng silahı bu yaxınlarda qəbul və istehsalını təşkil edib”.



“NG”-nin xəbər verdiyi kimi, “RK-360MTs Neptun” kompleksinin “R-360” qanadlı raketinin (CR) bu il Ukrayna ordusuna veriləcəyi və Andriy Taranın dediyi kimi, Qara və Azov dənizlərinə çıxışı olan cənub bölgələrində yerləşdiriləcəyi ehtimal olunur.

Ukrayna baş nazirinin strateji sənayelər üzrə müavini Oleq Uruskinin qeyd etdiyi kimi, 2020-ci ilin oktyabrında Ukrayna nümayəndə heyətinin Ankaraya səfəri zamanı Türkiyənin iştirakı ilə “dəniz sahəsi də daxil olmaqla, bir neçə ortaq müəssisə yaradılacağı” müzakirə edilib. Eyni zamanda, o, Ukrayna donanması üçün ilk korvetin “Türkiyədə, qalanını isə Ukrayna müəssisəsində inşa ediləcəyini” qeyd edib.

Ukrayna gəmiqayırma zavodlarında belə bir tikinti ehtimalı ilə birlikdə problemlər yarana bilər. Qareyev deyib: “Krım Rusiyanın tərkibinə daxil olduqdan sonra, Ukrayna ərazisində hərbi gəmilərin inşasının mümkün olduğu yalnız üç gəmi tərsanəsi qalıb. “Kuznitsa na Rıbalski” zavodundakı gəmiqayırma zavodlarında döyüş gəmiləri və kiçik raket gəmiləri inşa etmək nəzəri cəhətdən mümkündür. Nikolayevdə tərsanələr var, bu, Sovet İttifaqı dövründə təyyarə daşıyan kreyserlərin tikildiyi Qara dəniz tərsanəsidir. Ancaq indi zavod iflas edib”.

Mütəxəssisin fikrincə, “çox güman ki, korvetlərin inşası Nikolayev gəmiqayırma zavodunda təşkil ediləcək. İndi formal olaraq ölkənin donanmasının bir hissəsi olan yarımçıq “Ukrayna” raket kreyseri var. Göründüyü kimi, Türkiyənin iştirakı ilə də tamamlana bilər. “Türkiyənin təcrübəsinə görə, bir “Ada” tipli korvetin istehsalı iki il çəkir, istifadəyə verilməsi üçün ən azı bir il lazımdır. Beləliklə, Ukrayna Hərbi Dəniz Qüvvələrinin yeni korvetlərlə doldurulmasını üç ildən sonra gözləmək olar”.

Bundan əlavə, Türkiyə-Ukrayna müştərək pilotsuz uçuş aparatlarının (PUA) istehsalı da mühüm perspektivlərə malikdir. Oleq Uruski əvvəllər Türkiyənin PUA istehsalını “Ukroboronprom” şirkətlərindən birində yerləşdirməyə hazır olduğunu bildirmişdi. Baş nazirin müavini daha sonra ukraynalı mühəndis və dizaynerlərin Ukraynadakı türk istehsalında işləyəcəklərini və şirkətin həm Ukraynada, həm də digər bazarlarda şok dron satma haqqını alacağını bildirib.

Şamil Qareyev “NG”-yə bildirib: “Hər ehtimala görə, Türkiyə ilə ortaq istehsal olunan PUA-lar Ukraynanın “Sokol-300” layihəsi əsasında hazırlanacaq. “Neptun” gəmi əleyhinə raket sisteminin yaradılmasını uğurla başa vuran, dövlətə məxsus Kiyev dizayn bürosu “Luç” tərəfindən hazırlanır. “AI-450T2” turboproplu “Sokol”lar Türkiyənin “Bayraktar TB2” əməliyyat taktiki pilotsuz təyyarələrindən daha güclü ola bilər”.

Bundan əvvəl Ukrayna mediası PUA və korvetlərin birgə istehsalına əlavə olaraq, Ankara və Kiyevin mobil tank əleyhinə raket sistemlərinin yaradılması və Türkiyədə həm PUA, həm də helikopter üçün təyyarə mühərrikləri və Türkiyənin inkişaf etmiş döyüş təyyarələri istehsalı üçün ortaq bir müəssisə təşkil etmək imkanlarını nəzərdən keçirdiyini yazmışdı.

Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Aleksandr Ovçinnikov “NG”-yə deyib: “Türkiyənin iştirakı ilə Ukraynanın HDQ-si də daxil olmaqla, silahlı qüvvələrinin döyüş gücünü əhəmiyyətli dərəcədə artıracağına şübhə yoxdur. Bu, Kiyevin davakar şüarları ilə birgə həyəcanverici bir siqnaldır. Yalnız Krımda deyil, Rusiya Federasiyasının digər bölgələrində də milli müdafiə təşkil edilərkən nəzərə alınmalıdır”.

***Vladimir Muxin***
***“Nezavisimaya qazeta”, 15.12.2020***

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Ermənilərin Qarabağla bağlı yalanları ifşa olunmalıdır

## Nəzakət Məmmədova: "Dağlıq Qarabağın Azərbaycan torpağı olmasının sübuta ehtiyacı olmasa da, bu torpaqların gerçək sakininin azərbaycanlılar olmasını faktlarla dünyanın diqqətinə çatdırmaq lazımdır"

***Azərbaycanın qazandığı zəfərdən sonra düşmən imzaladığı kapitulyasiya sənədinə baxmayaraq Dağlıq Qarabağda təxribatlar törətməyə davam edir. Məğlubiyyətlə barışmaq istəməyən ermənilər partizan dəstələri yaradaraq Azərbaycanın işğaldan azad etdiyi torpaqlara qarşı işğalçı iddialarını davam etdirirlər. Azərbaycan xüsusi təyinatlıları ilə meşələrdə gizlənmiş təxribatçı erməni dəstələri arasında toqquşmalaradək silahlı qarşıdurmanın baş verdiyi iki kənd Azərbaycanın işğaldan azad etdiyi Hadruta daxil idi. Buna baxmayaraq düşmən ordumuza qarşı təxribatçı niyyətindən əl çəkmək istəmir. Ekspertlər belə bir situasiyada Azərbaycan tərəfinin işğaldan azad etdiyi ərazilərində antiterror əməliyyatı aparmaqla yanaşı, beynəlxalq aləmə Dağlıq Qarabağ həqiqətlərini yaymaqda davam etməlidir.***

Politoloq Nəzakət Məmmədova deyir ki regionda yaşanan gərginliklər, həmçinin son günlər Qarabağda yaşananların Bakıda keçirilən Zəfər Paradından sonra baş verməsi təsadüfi deyil: "Bakıda keçirilən Zəfər paradı düşmənə Azərbaycanın gücünü bir daha göstərdi. Bu təxribatların Minsk Qrupunun bölgəyə səfəri zamanı baş verməsi, onun arxasında digər iki həmsədrin dayanmasından şübhələnməyə əsas verir. Bununla həm münaqişənin başa çatmadığı barədə Azərbaycana mesaj verilir, eyni zamanda Rusiyanın sülhməramlı dövlət kimi öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilmədiyi təsəvvürünü yaratmağa çalışılır. Artıq münaqişənin Azərbaycanın qələbəsi ilə yekunlaşması Minsk Qrupu formatını darmadağın edib və həmsədrlər arasında regionda çox böyük qarşıdurma yaranıb. Suriya çöllərində, Liviya səhrasında Rusiya ilə baş-başa gələn ABŞ və Fransa ona həddini bildirmək üçün bəlkə də növbəti dəfə ən münasib yer olaraq Hadrut meşələrini seçib".

N. Məmmədova deyir ki, son günlər ortaya atılmış xəritə qalmaqalı isə sülhməramlıların sülh məramlı olmasına kölgə salır: "Dekabrın 12-də Azərbaycan xüsusi təyinatlıları ilə meşələrdə gizlənmiş təxribatçı erməni dəstələri arasında toqquşmalaradək silahlı qarşıdurmanın baş verdiyi iki kənd Azərbaycanın işğaldan azad etdiyi Hadruta daxil idi və 11 noyabr xəritələrində sülhməramlıların məsuliyyət zonasına daxil deyildi. 10 noyabr razılaşmasına görə, Rusiya sülhməramlıları Azərbaycanın nəzarətində olan ərazilərə, ümumiyyətlə ayaq basmamalıdır, onlar ermənilərin nəzarətində olan ərazilərlə Azərbaycanın işğaldan azad etdiyi ərazilər arasında dayanaraq toqquşmaların baş verməsinə mane olmalıdırlar".

Politoloq bildirir ki, Dağlıq Qarabağın Azərbaycan torpağı olmasının sübuta ehtiyacı olmasa da, Azərbaycan bu torpaqların gerçək sakininin azərbaycanlılar olmasını faktlarla dünyanın diqqətinə çatdırmalıdır. Eyni zamanda Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətlər barədə beynəlxalq məhkəmələrə müraciət olunmalıdır: " Dağlıq Qarabağ Respublikasının qondarma prezidenti Araik Arutunyan tərəfindən Cenevrə Konvensiyasının tələbləri birbaşa pozularaq dinc əhalini qəsdən öldürmə, insanlar arasında vahimə yaradılmasına yönələn hərəkətlər etməsi ilə bağlı kifayət qədər sübutlar toplanıb. Bu günlərdə onun Azərbaycan ərazisində separatçılıq fəaliyyəti və terrorçulara rəhbərlik etməsi üçtərəfli razılaşmanın tələblərini pozmaqdır. Arayik Arutunyan Azərbaycan ərazisində yaradılmış qondarma separatçı rejimin başçısı olduğundan onun mühakimə olunması Azərbaycan dövlətinin səlahiyyətində olan məsələdir. Hətta onun İnterpol xəttilə axtarışa verilməsinə çalışılırdı, lakin İnterpolun həmin sorğuya müsbət cavab verib-vermədiyi barədə məlumat açıqlanmayıb. Azərbaycan hüquq-mühafizə orqanları təbii ki, hətta beynəlxalq axtarışa vermədən də onu həbs etmək səlahiyyətinə malikdir. Lakin gördüyümüz kimi bu məsələlərdə siyasət hüquqdan daha üstün mövqedə dayanır. Rusiya sülhməramlıları gedib onunla görüşlər keçirir və s. Düşünürəm ki, atəşkəsin pozulmasında sülhməramlıların öz rolu istisna edilə bilməz. Hər halda, onların icazəsi olmadan belə hallara yol verilə bilməzdi. Rusiya Azərbaycanın işğaldan azad etdiyi ərazilərin də bir hissəsini əhatə edə biləcək arealı ələ keçirmək istəyir və bunun üçün ermənilərdən istifadə edir. Bu, Rusiyanın Cənubi Qafqazda, Azərbaycan ərazisində anklavı olacaq və Rusiya buradan öz maraqlarını həyata keçirmək üçün plasdarm kimi yararlanacaq. Görünür, Rusiya Azərbaycanın qazandığı qələbənin nəticələrini tam şəkildə qəbul etmək istəmir və məsələyə öz geosiyasi maraqları çərçivəsindən baxır. Bu baxımdan bölgədə tam sülhün bərqərar olacağını gözləmək olmaz!".

N. Məmmədova onu da bildirir ki, Minsk Qrupunun həmsədri rolunda regionda öz iştirakını tələb edib, öz maraqlarının təmin olunmasını istəyən ABŞ və Fransa Azərbaycan, Rusiya və Türkiyənin səyləri nəticəsində oyundankənar vəziyyətə düşüb: "Minsk Qrupu hazırda məğlub Ermənistana lazımdır, çünki ermənilər status iddialarından əl çəkmək istəmirlər. Belə olan halda status məsələsini gündəliyində daşıyan Minsk Qrupu Ermənistan üçün son şansdır. Həmsədrlərin Prezident İlham Əliyevlə görüşündə Rusiyadan olan həmsədrin olmaması, yalnız Rusiyanın Azərbaycandakı səfirinin iştirakı onu göstərir ki, artıq Minsk Qrupu parçalanıb, Rusiya oradan çıxıb və ABŞ ilə Fransa məğlub Ermənistanla meydanda tək qalıb. Azərbaycan Minsk Qrupunu faktiki olaraq qanundankənar, qeyri-legitim elan edib və ona verdiyi mandatı əlindən alıb.Azərbaycan belə siyasi şəraitdə Ermənistanı beynəlxalq tribunalardan işğalçılıq siyasətindən əl çəkməyə, işğal dövründə vurduğu maddi ziyanı ödəməyə,törətdiyi cinayətlərə görə beynəlxalq hüquq qarşısında cavab verməyə sövq etməlidir".



Qeyd edək ki, prezident İlham Əliyev də öz çıxışlarında Dağlıq Qarabağ həqiqətlərinin dünyanın diqqətinə çatdırılmasının vacibliyini vurğulayıb. Ali Baş Komandan bildirib ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır: " Bütün Azərbaycan xalqı bunu yaxşı bilir. Bütün beynəlxalq təşkilatlarda, dünyanın aparıcı beynəlxalq təşkilatlarında Azərbaycanın səmərəli fəaliyyəti nəticəsində münaqişə ilə bağlı reallıqlar, bu bölgənin tarixi, mədəniyyəti ilə bağlı həqiqətlər artıq o təşkilatların üzvlərinə çatdırılır. Münaqişənin ilk illərində erməni lobbisinin fəaliyyəti nəticəsində və Azərbaycanın beynəlxalq aləmdə o qədər də böyük imkanlarının olmaması səbəbindən münaqişənin səbəbləri, Dağlıq Qarabağın tarixi ilə bağlı çox yanlış və təhrif edilmiş məlumatlar mövcud idi. Ancaq bu gün biz tam əminliklə deyə bilərik ki, artıq Azərbaycan Ermənistanın və erməni lobbisinin yalançı təbliğatına böyük zərbə vura bilmişdir".

Ali Baş Komandan onu da vurğulayıb ki, Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu təsdiqləyən müxtəlif sənədlər, faktlar mövcuddur: "Bildiyiniz kimi, ermənilər bu bölgəyə XIX əsrin əvvəllərində köçürülmüşlər. Ondan sonra müxtəlif səbəblər üzündən Dağlıq Qarabağda erməni əhalisi əksəriyyət təşkil etmişdir. Bunun nəticəsində XX əsrin əvvəllərində, 1920-ci illərdə Dağlıq Qarabağda muxtar vilayət yaradılmışdır. Dağlıq Qarabağın bütün tarixi, bütün toponimləri, coğrafi adlar Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlıdır. Bütün kəndlərin, şəhərlərin adları Azərbaycanın tarixini təcəssüm etdirir.Dağlıq Qarabağın mərkəzi Xankəndi şəhəri bu adla qurulmuşdur. Bu yaxınlarda mən bu barədə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm, uzağa getməyək, elə XX əsrin əvvəllərində tərtib edilmiş xəritələrə baxmaq kifayətdir görək ki, - xəritələrdə bütün adlar əzəli adları ilə göstərilib, - orada Stepanakert adlı şəhər yoxdur. Orada Xankəndi vardır. "Stepanakert" sözü bolşevik Stepan Şaumyanın adından götürülüb. O adamın ki, Azərbaycan xalqının, günahsız insanların qanını axıtmışdır, azərbaycanlılara qarşı soyqırımı törətmişdir. Ancaq yenə də demək istəyirəm, əfsuslar olsun ki, bu həqiqətlər uzun illər ərzində dünya birliyinə o qədər də geniş şəkildə çatdırılmırdı. Yəni, dünya birliyi bu barədə məlumatsız idi.

Bu, problemlərimizin bir tərəfidir. Digər tərəfi, hətta bu gün, bütün beynəlxalq təşkilatlarda və dünyada fəaliyyətimiz nəticəsində həqiqətlər çatdırıldığı bir zamanda biz yenə də bəzi hallarda Azərbaycana qarşı ədalətsizliklər görürük. Bəzi hallarda həqiqətlərə göz yumulur. Bu reallıqlar nəzərə alınmır və müəyyən dairələr, xarici dairələr öz siyasətini uydurulmuş faktlar, təhrif edilmiş tarix əsasında aparmağa davam edirlər. Bu, ikili standartlar siyasətidir. Əfsuslar olsun ki, bu, dünyada bu gün və əvvəlki dövrlərdə də mövcud olan bir yanaşmadır. İkili standartlar ədalətsizlik deməkdir. İşğalçı ilə işğalın qurbanını, necə deyərlər, bir səviyyədə görmək nə qədər ədalətlidir?! Bunu bütün Azərbaycan xalqı yaxşı bilir. Biz öz fəaliyyətimizlə, apardığımız siyasətlə, həqiqətləri çatdırmaqla öz işimizi davam etdirəcəyik".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# 17 cinayətin üstü "isti izlər"lə açıldı



***Ötən gün daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən Unikal.org-a verilən məlumata görə, dekabrın 15-də törədilən 17 cinayətin üstü "isti izlər"lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalan 14 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 69 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarışda olan 56 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Avtomobil yollarında 3 ağır yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 3 nəfər ölüb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 10, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 19 nəfər saxlanılıb.

# Kompüter oyunları zalında 20 nəfər saxlanıldı



***Ucarda kompyuter oyunları zalı aşkar olunub. DİN Mətbuat Xidmətindən verilən məlumata görə, Ucar RPŞ əməkdaşları tərəfindən rayon ərazisində xüsusi karantin rejimi qaydalarına zidd olaraq fəaliyyət göstərən kompyuter oyunları zalı aşkar edilib.***

Xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə obyektin sahibi də daxil olmaqla, ümumilikdə 20 nəfər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokollar tərtib edilərək cərimə olunublar.

# Polis Gəncədə reyd keçirdi




***Gəncə şəhər Baş Polis İdarəsinin (ŞBPİ) əməkdaşları COVID-19 infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə şəhər ərazisindəki iri supermarketlərdə, aptekl ərdə və fəaliyyətinə icazə verilən digər qapalı məkanlarda gücləndirilmiş nəzarət-profilaktik tədbirlər həyata keçirir.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə şəhərindəki regional qrupundan "Report"a verilən məlumata görə, obyektlərdə sosial məsafəni gözləməyən, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyən şəxslər qanunvericiliyə uyğun olaraq, inzibati məsuliyyətə cəlb ediliblər.

Tədbir zamanı polislər tərəfindən sahibkarlar, eləcə də alıcıların diqqətinə sanitar-karantin qaydalarına ciddi əməl etməklə fəaliyyət göstərməyin vacibliyi çatdırılıb.

# Bakıda ödəmə terminalından pul oğurlandı

***Bakıda ödəmə terminalından pul oğurlayan şəxs tutulub.***

Bu barədə Unikal.org-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Belə ki, Yasamal Rayon Polis İdarəsi 29-cu Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 15-nə keçən gecə rayon ərazisindəki marketlərin birində quraşdırılmış ödəmə terminalından 3 438 manat pul oğurlamaqda şübhəli bilinən Oğuz rayon sakini M.Lətifov saxlanılıb. Araşdırma aparılır.

# Bakıda qəbiristanlıqda qanlı dava: "Ayağımı niyə tapdayırsan?..." - Təfərrüat



***Bakının Səbail rayonunda bıçaqlanma hadisəsi törətməkdə ittiham olunan Şamaxı rayon sakini, 1999-cu il təvəllüdlü Şəhruz Heydərovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, Şəhruz Heydərov 2 iyul 2019-ci il tarixdə saat 20.30-da tanışı Rəşad Paşayevin çağırışı ilə Badamdar qəsəbəsi, 1-ci yaşayış massivində yerləşən qəbiristanlığın giriş hissəsinə gəlib.

Orada mübahisə zamanı Şəhruz Heydərov cib bıçağı ilə Rəşad Paşayevə bir neçə zərbə vurub.

İstintaq orqanı Şəhruz Heydərovun barəsində Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır xəsarət yetirmə) maddəsi ilə ittiham elan edib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Şəhruz Heydərov bildirib ki, iyulun 2-də saat 20 radələrində yaşadığı Badamdar qəsəbəsi 3-cü yaşayış massivin dağlıq hissədə yerləşən həyət evindən çıxıb və qəsəbə qəbiristanlığının ərazisindən keçən yolla gəlib:

"Qəbiristanlığın giriş hissəsinə çatdıqda əvvəllər tanımadığım, sonradan adının Rəşad olduğunu bildiyim yaşıdım yanımdan keçərkən çiyinlərimiz bir-birinə toxundu. Bu səbəbdən aramızda qısa mübahisə yarandı. Əsəbi olduğumdan həmin şəxslə tutaşdım, əlbəyaxa olduq. Qarşılıqlı dartışarkən daim üstümdə, yəni əynimdəki şalvarının bel hissəsində gəzdirdiyim bıçağı çıxardım, Rəşada tərəf atdım. Rəşad heç nə demədən məndən ayrıldı, qəbiristanlığın içərisi ilə qəbirlərin arasına qaçdı.

Bıçağın Rəşada dəyib-dəyməmədiyini bilməmişəm. Onun arxasınca getmədim. Yolumu davam etdirdim, qəsəbənin mərkəzinə düşdüm. Oradan da Bakı şəhərinə gəzməyə getdim".

Təqsirləndirilən şəxsin ifadəsinə görə, Badamdar qəsəbəsində mindiyi 53 saylı avtobusdan paytaxtda 20 saylı orta məktəbin yaxınlığında düşüb: "Piyada binaların arasından keçib gedərkən yol kənarında zibil qutuları gördüm. Üstümdə gəzdirdiyi bıçağı zibil qutusuna atdım. Bıçağı zibil qutusuna atarkən üzərimdə hər hansı bir qan izi olmayıb. Sonra Bakı şəhərində müxtəlif internet kafe və parklarında gecələyərək günümü keçirdim".

Şəhruz Heydərov qeyd edib ki, 2019-cu ilin avqust ayının əvvəllərində gəzmək üçün Gürcüstan Respublikasının Tbilisi şəhərinə getmək niyyətinə düşüb: "Avqustun 7-də təyyarəyə bilet alım. Uçuş günü qeydiyyatdan keçərkən, gömrük işçiləri tərəfindən saxlandım və polis əməkdaşlarına təhvil verilildim. Polisə gətirildikdə mənə məlum oldu ki, Badamdar qəsəbəsinin qəbiristanlığında dalaşdığım zaman Rəşada bıçaq dəyib və o ağır xəsarət alıb. Cinayət əməlindən səmimi peşmanam".

Zərərçəkmiş şəxs qismində ifadə verən Rəşad Paşayev bildirib ki, iyulun 2-də günorta saatlarında idarə etdiyi "Vaz-2106" markalı avtomobili Badamdar qəsəbəsində "Ekspress" marketin qarşısında saxlayıb: "Maşından düşdüm, marketə gedərkən sifətdən tanıdığım Şəhruz adlı yaşıdım ayağımın dabanına basdı. Geri döndükdə üzr istəmək anlamında əlini ciyninə qoydu. Yoluma davam edərkən Şəhruz təkrar ikinci dəfə dabanıma basdı. Bu zaman qəsdən belə etdiyini fikirləşdim.

Ondan "sözün var, nə olub?" deyə soruşdum. Şəhruz cavabında acıqlı şəkildə "sözüm olsa başıvı tapdalıyaram, ayağıvı yox" sözlərini dedi. Şəhruzdan dediyi sözün mənasını soruşdum. "Axşam Badamdar qəbiristanlığına gələrsən, orada izah edərəm" dedi, öz mobil nömrəsini mənə verdikdən sonra ayrıldıq".

Zərərçəkmiş qeyd edib ki, sonra dostu Şamilin işlətdiyi "Korola" çay evinə gəlib: "Orada dostlarım - Cəfər, Şamil və Elcana Şəhruzla aramızda olan mübahisəni danışdım, onun qəbiristanlığa söhbətə çağırdığını bildirdim. Dostlarımla Şəhruzla görüşə gedib, aramızda olan söhbəti aydınlaşdırmaq qərarına gəldik.

Saat 20 radələrində Şəhruza zəng etdim, əvvəlcə Badamdar qəsəbəsində yerləşən 236 saylı orta məktəbin həyətinə gəlməsini təklif etdim. Şəhruz razı olmadıqda Badamdar qəsəbəsində yerləşən qəbiristanlıqda görüşə dostlarımla birlikdə getdik. Qəbiristanlığın girişində avtomobili saxladım, düşdükdə ətrafda heç bir avtomobil və ya kənar adam yox idi. Yalnız girişin sol hissəsində, avtomobilimin dayandığı yerin əks tərəfində, qəbir daşının yanında Şəhruzun qohumu Yusif, tanışı Fərid və bir nəfər tanımadığım şəxslə dayanmış gördüm.

Həmin vaxt saat 20.30 radələri olardı. Hava işıqlı qaralmağa başlamışdı. Avtomobildən dostlarımla düşdük. Sonra Şəhruz mənə yaxınlaşdı, söhbət etmək üçün kənara aparar kən, Cəfər və Şamil kənara getməməyimizi, elə orada birlikdə söhbət edib, məsələni aydınlaşdırmağımızı təklif etdilər. Şəhruz isə "ikimiz söhbət edib, məsələni həll edəcəyik" dedi".

Rəşad Paşayev qeyd edib ki, Şəhruzla yan-yana gedib, dostlarından təxminən 10-15 metr aralanıblar: "Bu zaman Şəhruzun əlinin ovuc hissəsində bıçağın tiyəsini gizlətməyə çalışdığını gördüm. Onun məni kənara aparıb, bıçaqla vuracağını başa düşdüm. Buna görə qərara gəldim ki, yumruqla vuraraq onu yerə yıxım, bıçağı əlindən alım. Bu məqsədlə qəflətən Şəhruzun sifətinə yumruqla zərbə endirdim. Zərbədən Şəhruzun səndələdiyini gördüm, onun ayağına badalaq vuraraq yerə yıxmaq istədim.

Şəhruz sağ əlində olan bıçaqla sol bel nahiyəmə vurdu, belimdən ağrı hiss etdim. İkinci zərbə endirməsindən qorxdum, orada aralaşdım. Qəbiristanlığın içərisi ilə qaçdım. Bir neçə dəqiqədən sonra arxamca dostlarım Cəfər və Şamil gəldi. Aldığım bıçaq yarasının üstünə maykamı sıxdıq, sonra məni xəstəxanaya apardılar".

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Şəhruz Heydərov 3 il müddətinə azadlıqdan məhrum edilib.

# Dünya Bankı: Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsindən biridir

## “Doing Business 2020” hesabatında Azərbaycanın mövqeyi yaxşılaşaraq 191 ölkə arasında 28-ə yüksəlib

***Dünya Bankı Qrupunun mühüm nəşrlərindən hesab olunan ”Doing Business” hesabatında qeydə alınmış məlumat uyğunsuzluqları ilə bağlı Dünya Bankının Daxili Auditi tərəfindən aparılmış müstəqil araşdırmanın nəticələri elan edilib.***



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən “Unikal”a bildirilib ki, aparılmış müstəqil araşdırmanın nəticəsində Azərbaycanın ”Doing Business 2020” hesabatında mövqeyi 6 pillə yaxşılaşdırılıb, ölkəmiz bir daha dünyanın “Ən islahatçı 10 ölkəsi” sırasına daxil olub.

Xatırladaq ki, 2020-ci il avqustun 27-də Dünya Bankı tərəfindən yayımlanmış pres-relizdə bir sıra üzv ölkələrin ”Doing Business” hesabatındakı məlumatlarının bankın daxilində emal edilməsi prosesində uyğunsuzluqlar aşkarlandığı, bu uyğunsuzluqların mahiyyətinin müəyyən edilməsi istiqamətində müstəqil araşdırma aparılacağı qeyd edilmişdi.

Bankın 2020-ci il 16 dekabr tarixli pres-relizində qeyd edilir ki, Dünya Bankının Daxili Audit strukturları tərəfindən 2016-cı, 2017-ci, 2018-ci, 2019-cu və 2020-ci illər üzrə məlumatların müfəssəl diaqnostikası aparılıb, ölkələrin reytinqlərinin bu dəyişikliklərin hesabatın metodologiyaları ilə uyğunluğu bir daha nəzərdən keçirilib və nəticədə ölkələrin göstəriciləri ilə bağlı məlumatlar yenilənib.

Müvafiq araşdırmalar nəticəsində Azərbaycanda 3 istiqamətdə aparılmış islahatların (“elektrik təchizatı şəbəkələrinə qoşulma, “müqavilələrin icrası”, “sərhəddə ticarət” indikatorları üzrə) “Doing Business 2020” hesabatında lazımınca qiymətləndirilmədiyi və daha az balla qiymətləndirildiyi məlum olub.

Qeyd edək ki, müvafiq diaqnostik qiymətləndirmə 4 ölkəni - Azərbaycan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Çini əhatə edib.

Müvafiq düzəlişlərdən sonra “Doing Business 2020” hesabatında Azərbaycanın əldə etdiyi bal 76,7 baldan 78,5 bala qədər artırılıb. Bununla da, ölkənin qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 34-dən 28-ə yüksəlib. Bu mövqe irəliləməsi nəticəsində Azərbaycan Dünya Bankı tərəfindən yenidən “dünyanın ən islahatçı 10 ölkəsindən biri” kimi qiymətləndirilib.

Xatırladaq ki, “Doing Business 2019” hesabatında da Azərbaycan “dünyanın ən islahatçı 10 ölkəsindən biri” kimi qiymətləndirilmişdi. Aparılmış müstəqil audit yoxlamalarının nəticəsi olaraq, Azərbaycanın reytinqinin 3 göstərici üzrə yenilənməsi haqda ətraflı məlumat pres-relizə əlavədə qeyd edilib.

Azərbaycanın Dünya Bankı ilə sıx əməkdaşlığının 28 illik tarixi var. Dünyanın mühüm inkişaf institutu olan Dünya Bankı ölkəmizdə həyata keçirilən geniş miqyaslı islahatlara daim dəstək verib.

“Doing Business” hesabatında qeydə alınmış məqamlarla bağlı müstəqil araşdırma Dünya Bankının yüksək peşəkarlığını göstərməklə yanaşı, Azərbaycanın Dünya Bankı, istərsə də digər tərəfdaşları ilə münasibətlərində dürüstlüyün ən mühüm dəyər olduğunu bir daha sübut edib.

Azərbaycanın ”Doing Business” hesabatındakı reytinqinin 3 göstərici üzrə yenilənməsi haqda ətraflı məlumat

### Elektrik təchizatı şəbəkələrinə qoşulma” indikatoru üzrə

Bu indikator vasitəsilə elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə ərizələr, elektrik enerjisi müəssisələri ilə müqavilələr, elektrik paylayıcı şirkətlər və digər agentliklər tərəfindən bütün zəruri yoxlamalar və icazələr, habelə xarici və yekun qoşulma işləri və sair üzrə islahatların aparılması ölçülür. Müvafiq istiqamətdə coğrafi informasiya sisteminin kommunal sistemdə tətbiqi islahatı sahəvi yoxlamaların aparılması zərurətini aradan qaldırıb və müvafiq sənədləşmələrin aparılması müddətinin azalmasına səbəb olub. Xüsusilə, texniki şərtlər üçün sahəvi müayinələrin aparılması proseduru ləğv edilib və texniki şərtlərin qəbul edilməsinə olan müddət azaldılıb. Beləliklə, hesabatda texniki şərtlərin və elektrik sistemlərinə qoşulmanın bir paketdə cəmlənməsi nəticəsində elektrikə qoşulma üzrə prosedurların sayının 5-ə, müddətin isə 32 günə kimi azaldığı öz əksini tapıb.

Qeyd edək ki, müvafiq göstəricilər daha öncə hesabatda, müvafiq olaraq 7 və 41 gün kimi əks olunmuşdu.

### Müqavilələrin icrası indikatoru üzrə

“Doing Business” hesabatı “Hüquqi proseslərinin keyfiyyəti indeksi” vasitəsilə hər bir ölkənin öz məhkəmə sistemində aşağıdakı 4 sahə üzrə yaxşı təcrübələri tətbiq edib-etmədiyini müəyyən edir: məhkəmə strukturu və prosesləri, məhkəmə işinin idarə edilməsi, avtomatlaşdırılmış məhkəmə sistemi və mübahisələrin alternativ qaydada həlli. Müvafiq sub-indikator üzrə aparılmış diaqnostik yoxlamalar nəticəsində Azərbaycanın göstəricisi 6,5 baldan 10,5 bala kimi artırılıb. Bununla da, ölkədə məhkəmə proseslərinin təyini, hakimlər və vəkillər üçün elektron menecment sisteminin tətbiqi kimi bir sıra mühüm islahatların aparılması Dünya Bankı tərəfindən təsdiq olunub.

### Sərhəddə ticarət indikatoru üzrə

“Doing Business” hesabatı ixrac və idxal olunan məhsulların daşınma prosesi ilə bağlı vaxt və xərcləri qeydə alır, mal partiyasının ümumi idxal və ixrac prosesində 3 prosedur qrupu (sənədlərlə bağlı tələblərə əməletmə, sərhəddə tələblərə əməletmə və yüklərin ölkədaxili daşınması) ilə bağlı vaxt və xərcləri qiymətləndirir. Sərhəddə ticarətin asanlığı baxımından ölkələrin reytinqi onların sərhəddə ticarət indikatoru üzrə ballarının sıralanması əsasında müəyyən edilir. Müvafiq indikator üzrə audit qrupu tərəfindən aparılmış araşdırmalar nəticəsində “ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat)” sub-indikatoru üzrə müddətin 12, “idxala sərf olunan müddət: sərhəd prosedurları (saat)” sub-indikatoru üzrə müddətin 4, “ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat)” sub-indikatoru üzrə müddətin 28,5, “idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat)” sub-indikatoru üzrə müddətin 26 saat, “ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları)” sub-indikatoru üzrə xərcin 150 ABŞ dolları kimi olması təsbit edilib.

Qeyd edək ki, müvafiq sub-indikatorlar üzrə göstəricilər daha öncə hesabatda 17, 14, 33, 33 saat və 250 ABŞ dolları kimi qiymətləndirilmişdi.

Beləliklə, Dünya Bankı tərəfindən aparılmış yeni qiymətləndirmə ölkədə “sərhəddə ticarət” prosedurlarında idxal deklarasiyası, ixrac gömrük sənədləşmələrinin sadələşməsi üzrə mühüm islahatların aparılmasını bir daha təsdiq edib.

“Doing Business 2020” hesabatında Azərbaycanın mövqeyi üzrə yenilənmiş qiymətləndirmə cədvəli

**İndikatorlar:**
- daha öncə nəşr olunmuş hesabat üzrə mövqe
- müvafiq düzəlişdən sonra yekun göstərici

**Elektrik təchizatı şəbəkələrinə qoşulma**

- prosedurların sayı 7-dən 5-ə
- müddət (günlər) 41-dən 32-yə

**Müqavilələrin icrası**

- hüquqi proseslərinin keyfiyyəti indeksi 8-dən 10,5-ə

**Sərhəddə ticarət**

- ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat) 17-dən 12-yə
- idxala sərf olunan müddət: sərhəd prosedurları (saat) 14-dən 4-ə
- ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat) 33-dən 28,5-ə
- idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat) 33-dən 26-ya
- ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları) 250-dən 150-yə

Dünya Bankının aidiyyəti daxili nəzarət qurumları ölkələrin hesabatdakı mövqeyinə və işgüzar imicinə xələl gətirmiş bu uyğunsuzluqlara yol vermiş bankın məsul şəxsləri barədə bankın Biznes Etikası qaydalarına uyğun inzibati tədbirlər görəcək.

# Neftin qiyməti son 10 ayın maksimumuna yüksəlib

***Birjalarda neft qiymətləri son 10 ayın maksimum səviyyəsindədir. ABŞ və Avropada COVID-19-a qarşı peyvəndin istifadəsi ilə bağlı müsbət inkişafların qlobal neft tələbatında artıma səbəb olacağına dair nikbin gözləntilər, eləcə də Birləşmiş Ştatlarda neft ehtiyatlarının azalması fonunda “qara qızıl”ın qiyməti bahalaşır.***

“Brent” markalı xam neftin qiyməti oktyabr ayının əvvəlindən indiyədək 35 faizədək artaraq hazırda 52 dollar/barrelə çatır. “Light” markalı xam neftin bir barrelinin qiyməti isə mart ayından bu vaxtadək ilk dəfə 48,5 dolları keçib. Lakin buna baxmayaraq, neft qiymətləri hələ də ilin əvvəli ilə müqayisədə 24 faiz aşağıdadır.

Ekspertlərə görə, peyvəndin tətbiqi benzin və təyyarə yanacağı istehlakına müsbət təsir göstərəcək, bu, qiymətlərdə həddən artıq nikbinliyə zəmanət verəcək.

# Muzdla çalışanların əməkhaqqı artıb

***Yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2019-cu ilin müvafiq dövrünə nisbətən 14,7 faiz artaraq 704,5 manat təşkil edib.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, əməkhaqqı neft-qaz sektorunda 3360,6 manat, qeyri-neft-qaz sektorunda 647,2 manat olub. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 623,6 manat, özəl müəssisələrdə isə 805,7 manatdır. Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olub.

# “Məzarına qoyulan tək qızılgül bizi yandırıb-yaxdı...” - Şəhid “Ceki”nin sonuncu sirri



***İllərdir savaşa dabanlarını qaldırıb boylanan bir uşağın gözü ilə baxmışam. Haqqında yazdığım şəhidlər məndən böyük olublar. Atalar haqqında yazmışam, övlad borcumu yerinə yetirmişəm...***

İndi isə şəhid şəkillərinə baxıram... İlahi, rəngli fotolardan biləklərini öpmək istədiyim toppuş körpələr boylanır... Cəmi 20-25 il əvvəl çəkilib. Elə bilirsən, indi evdə sağasola qaçır... Elə bilirsən, hələ böyüyəcək...

Ağlına da gəlmir ki, bir neçə ildən sonra bu körpələr öz qanları ilə bir millətin alnındakı ləkəni siləcək... Bu balalar ölkənin tarixinə illərlə həsrətində olduğumuz zəfəri yazacaq...

Onlar uşaqlıq fotoları rəngli olsa da, uşaqlığı rəngli keçməyən, müharibə dövrünün uşaqlarıdır... Və müharibəni zəfərlə sonlandıran, torpaqlarımızı işğaldan azad edən qəhrəman oğullardır!

Bizə uşaqlıq fotolarındakı kimi rəngli həyat bəxş edən oğullar!

Vətən müharibəsində çox az şəhid var ki, yaşı Qarabağ savaşından çoxdur... Sanki illərdir biz bu müharibənin əzabını çəkdikcə fərqli ailələrdə xüsusi missiya daşıyan oğullar böyüyüb! Mən əminəm, bu xilaskar oğullar ən ləyaqətli, vicdanlı, halal ailələrdən təktək seçilib! Siz bir şəhidlərin şəklinə baxın, onların heç birinin simasında məsələn, bu günlərdə Qarabağ qazisinin hesabından pul oğurlayan şəxsin üzündəki ifadəni görməzsiniz! Hamısının siması nurludur!

Əminəm ki, bu tarixi qələbədə imzası olanları hansısa bir gizli qüvvə ən yaxşılar arasından seçib... Hamısı məğrur duruşlu, nakam təbəssümlü oğullardır...

Onlardan birini sizə - Lent.az oxucularına təqdim edəcəm. Ruslan Cəfərlini...

Ailəsində hər kəs onun təbəssümündən danışır. Heç bir situasiyada üzünü tərk etməyən təbəssümündən...

Ruslan 1995-ci il mayın 25-də Mingəçevir şəhərində anadan olub. Elə orada da 4 nömrəli məktəbdə təhsil alıb, 2013-2015-ci illərdə həqiqi hərbi xidmətdə olub. Vətən müharibəsinə yollanan Ruslan Suqovuşan və Talış kəndinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub...

25 illik ömür, 3 cümləyə sığan tərcümeyi-hal və bu qısa ömürdə qazanılan əbədiyyət! Azərbaycan qədər ömür qazanmaq! Bu dövlət və bu millət var olduqca, var olmaq! Bu, hər adamın qismətinə yazılmır, məhz Vətən müharibəsi şəhidlərinin taleyinə yazıldı!

Ailə üzvləri Ruslanı xatırlayır...

Cəfərovlar ailəsinin sonbeşiyi olub Ruslan...

Atası Nəcəf Cəfərli deyir ki, bilirsiniz necə şən uşaq idi?

Anası Tahirə Cəfərli əlavə edir ki, körpəliyindən gülərüz idi!

Bacısı Günay Kərimova “qardaşım onu tanıyanların yaddaşında gülüşü ilə qalıb” deyir...

Günayın 3 yaşlı qızı Zəhra isə “Ceki yoxdur, mən cizgi filminə kiminlə baxacam” soruşur...

Ailədə də, məhəllədə də hamı Ruslanı “Ceki” çağırırdı. Çünki uşaqlıqdan döyüş filmlərini sevən Ruslanın ən sevimli aktyoru Ceki Çan olub. Ən sevdiyi oyuncağı qılınc, ən sevdiyi xörək yarpaq dolması idi... Qısa ömrə avarçəkmə, üzgüçülük və voleybolu sığışdıra bilmişdi...

Atasının ürəyi xəstə idi deyə çox erkən yaşından ailənin yükünü çəkməli olmuşdu...

O qədər şən və mehriban idi ki, hər axşam evə gələndə əvvəlcə “Salam” deyər, həmən ardınca da “Əleykə” deyərək, özü-özünü cavablandırardı...

Anası Ruslanın sürprizləri sevdiyini deyir:

- Əsgərlikdən qayıtmağını xəbər verməmişdi, yanvar ayı idi. Gələndə görüb mən pəncərədən küçəyə baxıram, gizlənib. Mən evə keçəndən sonra gəlib qapını döydü...

Bacısı deyir, məndən balaca idi, amma həmişə gözü üstümdə idi, məni qorumağa çalışırdı...

“Ruslanın arzusu nə idi” sualına bacısı cavab verir:

- Pul yığıb maşın alacağam və o maşınla xarici ölkələri gəzəcəyəm, deyirdi... Maşın sürməyi çox sevirdi... Çox gözəl rəqs edirdi... Qorxunun nə olduğunu bilmirdi. İlk döyüşlərdə kaska da qoymurmuş... Özü də qabağa düşürmüş...

Əmisi qızı Çinarə Cəfərova “Ruslan başqalarına kömək etməyi sevirdi”, deyir. Gülüşü üzünü tərk etmir, zarafatından qalmır, eyni zamanda da çalışırdı hamıya faydalı olsun. Bakıda işləyəndə bizə tez-tez gəlirdi... Heç vaxt şirniyyata yox deməzdi, anam onun üçün xüsusi kəsmikli pirojna bişirərdi...

Xatirələrimizi günlərlə danışıb bitirə bilmərəm, qardaşım yoxdur, o mənim də qardaşım idi. Hər dəfə mənə “bacı, sən başqasan!” deyirdi... Son gedişi ilə dərk etdim ki, əslində o başqaymış... Ətrafım insanla doludur, amma heç kim Ruslan deyil... Bu qədər insani keyfiyyətin bir adamda cəmləşməsi sadəcə möcüzədir... Ruslan bizim üçün möcüzə idi... Üzü gülən, dili şirin möcüzə...

Qəribədir, Ruslan bu qısa ömründə üç dəfə ölümlə üzüzə gəlmişdi, ikisində möcüzə nəticəsində xilas olmuşdu. Görünür Allah belə bir ürək sahibinin həyatının sıradan ölümlə sonlanmasını istəməyib...

İlk dəfə iki yaşı olanda açıq eyvandan yıxılma təhlükəsi ilə üz-üzə qalıb... Hadisəni xatırlayanlar həmin günü də Ruslanın unudulmaz gülüşünün üzündə olduğunu deyirlər...

İkinci dəfə iki il əvvəl, qaynaqçı işləyəndə yanğın təhlükəsi ilə üz-üzə qalıb. Özünü də xilas edib, hələ üstəlik iş yoldaşını da... Gödəkçəsini çıxardıb yanan dostunu söndürmüş, öz əlləri yanmışdı... Evə gülə-gülə gəlmişdi...

Üçüncü dəfə isə... Bu dəfə möcüzə baş vermədi...

Atası sonuncu zəngini xatırlayır:

- Ermənilər Mingəçevirə raket atanda zəng eləmişdi ki, qorxmayın, burada cavablarını veririk! Axırlarına çıxacağıq! İndi döyüşə gedirəm, narahat olmayın! Oktyabrın 7-si idi... Bir neçə gün keçdi, xəbər çıxmadı... Həmin nömrəyə təkrar zəng etdik, cavab verən olmadı... Votsap vasitəsilə yazdıq, oxuyan olmadı... Müdafiə nazirliyi sadəcə “döyüşdədir” cavabını verirdi... Bu bir kəlmə ailəyə bəs etmir axı... Ailəliklə sonuncu zəng etdiyi nömrəni telefonumuza qeyd edib, votsapda izləməyə başladıq... Bir gün nəhayət votsapda online göründü... Yazdıq, oxumadı... Zəng-zəng ardınca... Axırda bir qadın açdı: “Oğlumun nömrəsidir, oktyabrın 10-da şəhid olub...”

Cəbhədən yayılan bütün videolara baxır, Ruslanı axtarırdıq. Bilirdik ki, sıxılan uşaqdır, həmişə bir kənara çəkilər. Özünü irəli atıb bir söz deməz, ancaq yenə də axtarırdıq... Nəhayət, tapdıq! AzTV ilə yayımlanan bir süjetə diqqətlə baxanda gördük ki, elə təxmin etdiyimiz kimi kənara çəkilib müsahibə verən əsgərlərə baxır... Videonun 2 dəqiqə 49-cu saniyəsində, əlini belinə qoyub, tanka söykənib, baxır... Sevindik ki, sağdır! Ancaq video bir ay əvvəl çəkilmişdi...

Nəhayət, noyabrın 18-də döyüşlərdə itkin düşdüyünü dedilər... Məlum oldu ki, şəhid olub, ancaq nəşi neytral zonada qalıb... Sonra zəng edib hərbi komissarlığa çağırdılar... Anası dedi ki, dərmanını iç, get, oğlumuzu gətir...

Noyabrın 21-də Mingəçevir Şəhidlər Xiyabanında torpağa tapşırdıq...

Ruslanın son döyüşünü, necə, hansı şəraitdə şəhid olduğunu bilmirik. Komandirinin də şəhid olduğunu dedilər... Ancaq biz əminik ki, Ruslan son damla qanına qədər döyüşüb. Oğlumuza bələdik...

Anası isə oğlunun şəhid olduğunu ilk gündən hiss etdiyini deyir:

- Mən oğluma bələdəm, əgər onun başı əldə olsa, lap yaralı da olsa bir yolunu tapıb bizə xəbər edərdi. Ruslan ola, 40 gün evə xəbər verməyə? Mümkün deyildi, elə körpə yaşından evin məsuliyyətini çiyninə götürmüşdü, bilirdi ki, evdə nigaran qalırıq. Atasının ürəyi xəstədir, o bizi heç vaxt nigaran qoymazdı. Ona görə də xəbər çıxmayandan düşündüm ki, balam şəhid olub...

Çinarə xatırlayır:

- Mənə “Erkək Fatma” deyirdi... Yəni 25 illik ömür yaşayasan, bir adamın xətrinə dəyməyəsən? Bütün sözlərə zarafatla cavab verərdi... Bir vərdişi var idi, hər gedəndə papağını unudurdu, hər dəfə də arxadan çağırırdım ki, “Ruslan, papağını qoyub gedirsən!”

Gülürdü ki, erkək Fatma, yad yerdə qoymuram ki, əmimgildə qoyuram!

Qızların xətrinə dəyməzdi... O qədər hörmətlə davranardı ki... Sonuncu dəfə məzarındakı gül-çiçəyin arasından tək qızılgül gördük... O qızılgülün hekayəsini bilmirik, ancaq bir başqa cür yandırdı bizi...

Əsgərlikdə olanda bir bloknotu olub, indi oxuyuruq, orada şeir yazıb:

Sevgilimdən ayrıldım,
Silahıma sarıldım.
Torpağıma bağlandım
Təki Vətən sağ olsun!

Sonuncu dəfə məzarını ziyarət edəndə o qədər ağladım ki, axırda dedim ki, Ruslan, bir hay ver! Sən axı bu qədər laqeyd deyildin, sən bu qədər ağlamağıma belə sakit dayanmazdın... və... məzarının başındakı əklil aşdı... Heyrətə gəldim... Mən belə əlamətləri ancaq filmlərdə görmüşdüm...

Ruslan, deyəsən, rəqəmləri də sevirmiş. Doğum tarixi: 25.05.1995. 25 il ömür yaşadı... 44 günlük müharibədə Mingəçevirin 44-cü şəhidi oldu... Müdafiə Nazirliyinin təqdim etdiyi şəhid siyahısında Ruslanın adı 44-cü səhifədə idi... Sentyabrın 21-də gedib, noyabrın 21-də gəldi... amma şəhid kimi...

Ailəsi onunla sonuncu görüşü belə xatırlayır:

- Sentyabrın 21-də təlimlərə qatıldı. Yola salanda Zəhra arxasınca ağladı... Dedik ki, nəsə al, əlinə ver, başı qarışsın, ağlamasın... Gedib şokolad almışdı... Ailə üzvlərinə hədiyyə etməyi çox sevərdi, sonuncu hədiyyəsini Zəhraya etdi...

Əslində isə Ruslanın ən son hədiyyəsi bu gün Suqovuşanda dalğalanan Azərbaycan bayrağıdır! Ruslanın son döyüşü Suqovuşan istiqamətində olub. Suqovuşanı fəth edən qalib əsgər... Ailəsi, dostları əmindir ki, son nəfəsində də təbəssümü Ruslanın üzünü tərk etməyib...

# Yaqubun canavarları, sonuncu mesaj, “Şuşa bizimdir” - HƏYAT HEKAYƏTİ



***20 yaşını yayda tamamlamışdı. “Bir il də belə getdi, ad günüm mübarək!”, yazıb özünü təbrik etmişdi. Nəsildə yaşca ən balaca o idi, amma tez böyümüşdü və hətta döyüşlərdə şücaət göstərib, Vətən uğrunda, Şuşa uğrunda əlbəyaxa döyüşə biləcək qədər böyümüşdü. Amma biz onu hələ də uşaq bilirdik. 1 metr 63 sm boyu var idi, uşaqlara xas nurlu siması vardı, amma Vətən boyda ürəyi də varmış, şəhid leytenant Yaqub Nəcəfovun...***

Yaqub Məhəmməd oğlu Nəcəfov 7 iyul 2000-ci ildə Culfa şəhərində ziyalı ailəsində doğulub. Valideynlərinin hər ikisi müəllimdir. Halal zəhmətlə böyümüş, savadı, tərbiyəsi, davranışları ilə seçilirdi. Hər zaman üzündə özünəməxsus təbəssüm görmək olurdu. Azərbaycan Ali Hərbi Məktəbinin dördüncü kursunda, Vətən müharibəsi başlayanda kursant Yaqub Nəcəfov leytenant rütbəsi alıb, döyüşlərə atılmışdı. Əsgərləri ilə fəxr edir, onlarla fotosunu paylaşanda “Canavarlarım mənim!” yazırdı. Füzuli, Cəbrayıl, Şuşa uğrunda gedən döyüşlərdə iştirak edir. Sonuncu dəfə Şuşadan qardaşına mesaj göndərib: “Şuşanı aldıq. Qələbə bizimdir”. Söhbətlərinin birində “Hamı vətənini sevə bilər, amma hər insan vətənini şəhid olmağa hazır olacaq qədər sevə bilməz” deyibmiş.

***

Şəhid leytenant Yaqub Nəcəfov Vətən müharibəsində iştirak edən üç qardaşdan ən kiçiyi idi. Ailədə üç uşaq idilər, üçü də ön cəbhədə, düşmənlə üz-üzə döyüşürdülər. Baş leytenant İbrahim Nəcəfov və onun əkiz qardaşı baş leytenant İsmayıl Nəcəfov Azərbaycan Ali Hərbi Məktəbin məzunlarıdır. 2016-cı ildən Qarabağ bölgəsində ön xətdə zabit kimi Vətənə qulluq edirlər. Məzun olduqdan sonra onlara Naxçıvanda, hətta ailəsinin yaşadığı Culfada zabit kimi hərbi xidmətini davam etdirmək təklif olunsa da, qardaşlar məhz Qarabağ bölgəsində ön cəbhədə xidmət etməyi üstün tutublar. Baş leytenant İsmayıl Nəcəfov deyir ki, biz düşünürdük ki, əgər bu sənəti seçmişiksə, yolumuz hərb yoludursa, ön xətdə olmalıyıq, düşməndən qisas almalıyıq. Azərbaycan qalib ölkə kimi dünyada tanınmalıdır. Şəhid qardaşım da belə düşünürdü. Elə buna görə bu sahəni seçdi.

***

Nəcəfovlar ailəsinin hərb sənətinə marağı uşaqlıqdan olub. Əmiləri I Qarabağ müharibəsində, atası ermənilərin Naxçıvana hücumunun qarşısının alınmasında iştirak edib. Dayısı hərbi müəllim kimi şagirdlərə bu sənəti sevdirən tanınmış müəllimlərdəndir. Şəhid Yaqub Nəcəfov qardaşlarını hərbi formada görəndən sonra arzusunu qətiləşdirib. Sənədlərini Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə verib. Valideynləri onun seçiminə hörmətlə yanaşsalar da, qardaşları etiraz ediblər: “Biz istəyirdik ki, üçümüzdən birimiz, heç olmasa valideynlərimizin yanında qalsın. Biz xidmətlə əlaqədar valideynlərimizə yetərincə diqqət ayıra bilmirdik. İstəyirdik ki, heç olmasa o fərqli sahəni seçsin. Ondan incidik, hətta bir müddət buna görə onu danışdırmadıq. Amma o qərarında israr etdi. Ona dedik biz ikimiz də cəbhədə ön xətdəyik, heç olmasa elə istiqamət seç ki, nisbətən sənə rahat olsun. Ehtiyac yarananda valideynlərimizin qayğıları ilə məşğul ola biləsən. Amma sonradan eşitdik ki, özü ixtisas seçimində könüllü olaraq piyada qoşunlarının tərkibində ön xətdə zabit kimi fəaliyyət göstərmək arzusunu seçib”.

***

Şəhid atası Məhəmməd Nəcəfov Ermənistanın 27 sentyabr 2020-ci ildə ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq torpaqlarımızın işğaldan azad edilməsində övladlarının göstərdiyi qəhrəmanlıqlardan fəxrlə danışır: “Çoxları onu uşaq bilirdi. Amma böyük ürəyi var idi. Avqust ayında Beyləqanda keçirilən təlimlərdə iştirak edirdi. Mənə dedi ki, ata, ürəyini buz kimi saxla, biz qələbəyə çox yaxınıq. Oktyabrda onu Gəncədə dağ döyüşləri üçün hazırlayırdılar. Mən bir çox şeyi sonradan onun hərbiçi yoldaşlarından öyrəndim. Digər oğlum İbrahim Ağdamda yaralandığından Bakıya gəlməli oldum. Fürsət tapıb, Gəncəyə gedib, onunla görüşdüm. Leytenant rütbəsi almışdı və ordumuzun cəbhədə qazandığı uğurlara görə körpə uşaq kimi sevinirdi. İstəyirdi ki, bu işdə onun da əməyi olsun. Səhərdən axşama qədər təlimlərdə olurdu. Özü deməsə də hiss edirdim ki, hansısa ciddi əməliyyatlara hazırlaşırlar”.

***

Şəhid leytenant Yaqub Nəcəfov şərəfli döyüş yolu keçib. Füzulinin, Cəbrayılın, Şuşanın azad olunmasında fəal iştirak edib. Dirsəyində bıçaq, ayağında güllə izləri onun Şuşa uğrunda baş verən əlbəyaxa döyüşlərdə də iştirakından xəbər verir. Şəhidin döyüşlərdə yaralanan qardaşı baş leytenant, qazi İbrahim Nəcəfov 2016-cı ildən Tərtər və Ağdamda ön cəbhədə qulluq edir. Deyir çox istərdim, Şuşanın alınmasında mən də iştirak edim.

- Amma bu mənə yox, qardaşıma nəsib oldu. Şəhadətə yüksəlmək onun nəsibində varmış. Təəssüf ki, mən döyüşlərdə tez yaralandım. Gözümdən, əlimdən, ayağımdan aldığım qəlpə yaralarına görə həkimlər döyüşə davam etməyə imkan vermədilər. Çox israr etdim. Amma eşidəndə ki, məni helikopterlə çıxarılmağımın vacibliyindən danışırlar, məsələnin ciddiliyini anladım. Yaralanan heç bir döyüşçü yoldaşımız geriyə qayıtmaq istəmirdi. Deyirdik icazə verin, yaralı da olsaq, son damla qanımıza qədər döyüşək və şəhid olaq. Sonra helikopterin düşmən tərəfindən vurulma təhlükəsini nəzərə alaraq, öncə bizi avtomobillə Yevlaxa, sonra Bakıya çatdırdılar. Düşünürdüm ki, kiçik əməliyyatdan sonra yenidən cəbhəyə qayıdacağam. Amma həkimlər buna imkan vermədilər. Bakıda bir ay ərzində dörd dəfə əməliyyat olunmuşam”.

Qazimizdən şəhid qardaşını necə xatırladığını soruşuram. Deyir, balaca qardaşım sual verməsən danışmazdı, utancaq idi, amma işində çox məsuliyyətli və mərd idi. O, evimizin sonbeşiyi idi, nəsildə də ən balacamız idi, şəhidlik mərtəbəsinə yüksələrək ən böyüyümüz oldu. Onun xatirəsi hər zaman qəlblərdə yaşayacaq.

Şəhidin atası Məhəmməd Nəcəfov sevinir ki, şəhidlərimizə, qazilərimizə ümumxalq hörməti ən yüksək səviyyədədir: “Bu fani dünyada hər insan bir amalla yaşayır. Mənim övladlarım üçün Vətənin azadlığı hər şeydən öndə gəlirdi və buna görə onlarla fəxr edirəm, qürur duyuram. Yaqubun xatirəsi hər zaman yaddaşlarda qəhrəman hərbiçi kimi qalacaq. O, bu gün xalqın övladına çevrilib. İşğaldan azad olunan torpaqlarımız çiçəkləndikcə, vətənimiz qüdrətləndikcə onun da xatirəsi əbədi yaşayacaq”.

***Ceyhun Zərbəliyev***



## “Xankəndində yaralanan oğlumun kəllə qapağı çıxarılıb və...” - Qazimizin anası kömək istəyir

***“Xankəndində döyüşlər zamanı yaralanan oğlumun vəziyyəti hazırda ağırdır”.***

Bunu döyüşdə başından qəlpə yarası alan 23 yaşlı qazimiz Səbuhi Hüseynlinin anası Əhmədxanova Samirə Məmməd qızı Unikal.org-a danışarkən deyib.

O bildirib ki, oğlu 50 gündən çoxdur Respublika Neyrocərrahiyyə Xəstəxanasıında komadadır:

“Səbuhi kəşfiyyatçı snayper olub. Müharibə başlayan gün, yəni sentyabrın 27-dən Qusarda N saylı hərbi hissədən əsgərlərlə birlikdə Ağdam istiqamətində döyüşə qatılıb. Sonradan Füzuli rayonunda və digər istiqamətlərdəki döyüşlərdə iştirak edib. Ancaq Xankəndində döyüşlər zamanı yaralanıb. Oğluma bir leytenant kömək edib. Təcili yardım həkimləri yolda oğlumun ölə biləcəyindən, bunun yerinə isə daha az xəsarət alan hərbçiləri Yevlax xəstəxanasına çatdırmaqlarının doğru olduğunu söyləyiblər. Lakin oradakı Leytenantın təkidi ilə oğlum xəstəxanaya çatdırılıb. Xəstəxanada əlimi buraxmaq istəmirdi. Başına sol gicgah nahiyyəsində güllə girib və sol beyininin bir hissəsini dağıdıb. Hətta güllə beyin kökünün 7 mm yaxınlığında olub. Oğlumun beynindən güllə çıxarılarkən 8 saat əməliyyat olundu”.

Qazimizin anası bildirib ki, oğlu səhv əməliyyat olunduğu üçün vəziyyəti pisləşib və komaya düşüb: “Onun əməliyyatdan sonra kəllə qapağı tikilməməli idi. Bu barədə həkim də bizə məlumat verib. Onu əməliyyat edən həkim bizə deyib ki, biz Səbuhinin vəziyyətinin yaxşı olduğunu görüb kəllə sümüyünün qapağını tikdik. Ancaq 2 gündən sonra bizə dedilər ki, oğlumun vəziyyəti pisləşib. Yenidən onu əməliyyata götürmüşük və kəllə qapağını çıxarmışıq. Hazırda o həmin kəllə sümüyü saxlanılıb. 5-6 aydan sonra Səbuhi yaşayarsa yenidən yerinə tikiləcək. Əgər vaxtın həmin kəllə sümüyünün qapağını tikilməsəydi Səbuhi bu vəziyyətə düşməyəcəkdi. Düzdür, oğluma həmin yerdə yaxşı baxırlar, nə lazımdırsa, edirlər. Hətta həkimə də demişəm ki, “kəllə qapağı tikilməsəydi oğlum bu vəziyyətə düşməyəcəkdi. Düzdürmü?”. Həkim isə mənə “Başqa səbəblər də var, o da var”, - dedi. Oğlum indi çox acınacaqlı vəziyyətdədir”.

Qazi Səbuhi Hüseynlinin anası Samirə Əhmədxanova ölkə başçısı İlham Əliyevə müraciət etdiyimi deyib:

“Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə, vitse-prezidenti Mehriban xanım Əliyevaya, Heydər Əliyev Fonduna, Yaşat Fonduna müraciət edirəm. Yeganə oğul övladım Hüseynli Səbuhi Babək oğlunun vəziyyəti heç yaxşılaşmır, yaradan iltihab gəlir, komadan ayılmır, artıq təzyiqi düşməyə başlayır. Sizdən artıq dərəcədə xahiş edirəm ki, oğlumun müalicəsinin xaricdə davam etdirilməsinə kömək edəsiniz. O zaman oğlum sağlamlığına qovuşar. İki aya yaxındır ki, oğlum xəstəliklə mübarizə aparır, ölümə yenilmək istəmir. Qoymayın, oğlum mənfur düşmənin atdığı minanın qurbanı olsun. Ümidim tək sizədir”.

***Gülayə Mecid***

# ...Qəlblərə, qəhrəmanlığı ilə yol tapmış Vətən oğlu...

## Zaqatalalı şəhid Orxan Cumayev yeni şanlı tarixə iz qoydu...

***Növbəti yazımın qəhrəmanı şəhid, gənc hərbi qulluqçu Orxan Cumayev 2000 -ci ilin 14 yanvar tarixində odlar yurdumuzun dilbər güşəsi, neçə-neçə üsyanların şahidi, qədim Zaqatala şəhərində dünyaya göz açmışdı. Bir bacı, bir qardaş idilər: Fatma və Orxan. Fatma bacısı ailənin böyük övladıdır - 1993 -cü il təvəllüdlüdür. O, Rahilə xanımın və Fətəli bəyin ailəsində böyüyüb, ərsəyə çatmışdı. Zəhmətkeş ailənin çox ağıllı, mülayim xasiyyətli, xoş davranışı, təmiz ürəyi, böyüyə böyük kimi, kiçiyə kiçik kimi münasibət bəsləyən, hörmət edən bir insan idi - Orxan. Nənə və babalarını çox sevirdi. O, bir iş görəndə böyüklərdən məsləhət alardı. Çoxlu dostları vardı, hamısı da özü kimi sadə və sözü bütöv oğlanlar - Vətəni sevənlər.***

Bildirdiyimiz kimi daima nəslinin, ailəsinin, dərs dediyi müəllimlərinin və ən çox sevdiyi dostlarının adını uca tutmağa çalışan Orxan - öz arzusu ilə seçdiyi hərbi xidmətdə də özünü qeyrətli oğul kimi doğrultdu. Anası Rahilə xanım qeyd etdi ki, oğlunu fikrindən döndərə bilmədi. Dedim ki: “get, sağ - salamat, öz müqəddəs hərbi xidməti borcunu layiqincə yerinə yetir, səbirsizliklə sənin yolunu gözləyirik. Bilirəm ki, hərbiçi olmaq istəyirsən, gözəl niyyətin var, amma… Unutma ki, düşmən ac canavar kimi dişlərini qıcayıb, növbəti təxribatlar törətməyə hazırlaşır, birdən müharibə başlayar, axı biz səndın nigaran qalacağıq...” Əziz oğlum isə cavabında belə demişdi: “Ana, narahat olma, tərəddüd etmə, nigaran qalma, mən Sizin hamınızı çox sevirəm, dünyalar qədər… Ancaq, əsil oğul Vətənin dar günündə onu ayıq və sayıq qorumalıdır və hətta uğrunda canından da keçməlidir. Bu bizim müqəddəs borcumuzdur. Axı, nə vaxtsa o qudurğan düşməni torpaqlarımızdan qovmalıyıq, zaman çatıb - Ana!

Orxan bu sözləri hələ əsgərliyə yola düşəndə söyləmişdi. Sanki, o, hiss etmişdi ki, bir hərbiçi kimi İkinci Vətən Savaşında iştirak edəcək. Atası Fətəli bəy isə söyləyir ki, “2018 -ci ilin yanvar ayında oğlu Orxanı Milli Ordu sıralarına həqiqi hərbi xidmətə yola salıblar. 3 ay Goranboy rayonunun Ağca kənd kəndində yerləşən “N” saylı hərbi hissədə ilk tədris hərbi-taktik təlimlər keçdikdən sonra Orxan Tərtər rayonunun Borsunlu kəndində yerləşən, ermənilərə lap yaxın məsafədə yerləşən hərbi mövqelərimizdə, yəni postlarda xidmətini davam etdirib”. Oğlum deyirmiş ki, atəşkəsi vaxtaşırı pozan düşmən müxtəlif silahlardan mövqelərimizi atəşə tutur, təxribat törətmək istəyirdilər. Azərbaycan hərbiçiləri isə çox cəsarətlə onların hücuma keçmək cəhdlərinin qarşısını alırdılar və düşməni susdururdular. Bunları da şəhid atası əlavə etdi.

Fətəli kişinin sözlərinə görə yaxşı hərbi xidmətinə görə oğlu Orxanan dəfələrlə komandirlər tərəfindən təşəkkürnamə elan edilmiş və bölük komandiri təyin edilmişdir. Orxan Cumayev Milli Orduda, ön cəbhə xəttində hərbi xidmətini ləyaqətlə, mətinliklə yerinə yetirməklə yanaşı, bütün sınaqlardan, təlimlərdən üzüağ çıxdı. O, xidməti dövründə komandirlərin hər bir tapşırıqlarını vicdanla yerinə yetirən, cəsarətlə mənfur düşmənin bir-iki addımlığında olan postlarımızı ayıq-sayıq qoruyan, ebibarlı və Vətən cəfakeşi olan, hərbiçi, kiçik komandir kimi yetişdi. Özünün inadkarlığı, hərbi anda sadiq olması sayəsində Orxanın həqiqi hərbi xidməti 2019 -cu ilin iyun ayında başa çatdı. əzizlərinin yanına gəlincə əvvəl, o, xidmətdən əlavə hərbi qulluqçu kimi hərbi hissədə qalıb, işləmək üçün 3 illik müqavilə bağladı. Müqavilənin şərtlərinə əsil hərbiçi kimi yerinə yetirəcəyinə söz verdi…

Nəvəm Orxan, 15 günlük məzuniyyətə gələndə, ondan ayrıla bilmirdim, elə bil dünyaları bağışlamışdılar mənə. Sanki böyümüşdü, hərbi geyimi necə də yaraşırdı ona. Daha da ciddiləşmişdi, böyümüşdü, atdığı addımlar və etdiyi söhbətlərə çox diqqət edirdi. Bəzəndə çox narahat görünürdü - deyə Orxanın sevimli nənəsi olmuş - Anaxanım Cumayeva söhbıtimizə qoşuldu. Onu həyəcansız dinləməmək mümkün deyildi. Gah ağlayır, gah danışır, gah da qəhər onu boğurdu. Nənə çox niskilli idi - söhbətini davam etdirərək dedi: “Altı nəvəmin hamısı mənim üçün əzizdir, onları seçmirəm. Ancaq, Orxanı çox istəməyə vadar edən cəhətlər və səbəblər çox idi onda. Məzuniyyətə gələndə o, baba yurduna gələr, ürəyi nə istəyərsə bişirib, verərdim və əzizləyərdim. Çox narahat görünürdü. Bircəciyi olan bacısı Fatmadan ayrıla bilmirdi. Çünki, hər iki nəvəm mülayim xasiyyətli, tərbiyəli, gözü tox, hər cür çətinliklərə dözən olublar. Məzuniyyətin başa çatmasına bir neçə gün qalanda ona dedim ki: “getmə Orxan hərbiyə, qal burda, sənin istədiyin yerdə işləyərsən, axi biz səndən ötrü darıxacağıq, bizi gözü yolda qoyma…”





Başımı sığallaya-sığallaya: “mənim əziz nənəm, özünüz də yaxşı bilirsiniz ki, mən hərbi xidmətimi davam etdirmək üçün and içmişəm, müqavilə bağlamışam, anda sadiq hərbiçiyəm. Nənə unutma ki, doğma Vətənimizin üzərindən hələ qara buludlar çəkilməyib, mən bu günlər hərbiyə gərəyəm, ehtiyac var. Unutmayın ki, Qarabağımız, o gözəl Fərrux dağı, Ballı qaya, Murov dağı yüksəklikləri, o gözəl dərələr düşmənin işğalı altındadır. Hər an düşmən təxribat törədə bilər, cəbhəboyu rayonlarda insanlar səksəkə, təhlükə içində yaşayırlar. Vicdanlı bir hərbiçi kimi torpaqlarımızın azadılığı uğrunda mübarizə aparmaq, digər hərbiçilərtək nəvəniz Orxanın, yəni mənim müqəddəs borcumuzdur” - dedi.

Nənənnin sözlərinə görə məzuniyyətdən qayıtmağa bir gün qalmış Orxanın ən çox xoşladığı “ləpəli kələm dolma”sını bişirib, Orxan bu yeməyi iştaha ilə yeyib…

2018 -ci ilin iyul ayından yenidən ön cəbhə xətindəki hərbi hissəyə qayıdan MAHHXQ çavuş Orxan Cumayev vicdanla andına sadiq xidmətini davam etdirib. Düşmənlə üzbə-üz mövqelərdə rəhbərlik etdiyi bölüklə müvəffəqiyyətlə davam etdirməklə yanaşı, hərbi təlimlərdə iştirak edirdilər. Çünki, hər an hərbi münaqişə gözlənilirdi, necə deyərlər “bıçaq sümüyə dirənmişdi”…

Qeyd edək ki, böyük ruh yüksəkliyi, Vətən sevgisi ilə xidmət edən Orxan Cumayev digər hərbiçilərlə ilk dəfə düşmənin Tovuz rayon ərazisində təxribatının qarşısının alınmasında iştirak edərək, tapşırıqları fədakarlıqla yerinə yetirib.



...Son günlər Orxan ailə üzvləri ilə telefon əlaqəsi saxlanılmasında fasilələr yaranmışdı. Buna görə də, onun valideynləri, bacısı Fatma, dostları, qohum-əqrabası çox narahat-nigaran idilər. Ən çox narahat olan isə, yuxusu ərşə qalxan - Anaxanım nənə idi. “Görəsən Orxan balama nə olub, niyə bizimlə əlaqə yaratmır, nəvəmin başına nə gəlib?..” - deyə fikirləşirdi. Axı, sentyabr ayının 27 -dən sonra Orxanın da döyüş meydanında düşmənə qarşı vuruşduqları barədə məlumatlı idi ailəsi.

İlk döyüş günlərində el oğlumuzun bölüyü cəbhənin ən mürəkkəb şəraiti olan, düşmənin azğınlaşdığı, mövqelərini tərk etmədikləri Tərtər, Goranboy və Naftalan ərazilərində ölüm-dirim mübarizəsi aparırdılar. Həmin vaxtlar düşmən Fərrux və Murov dağın yüksəkliklərindən həm döyüşçülərimizə, həm də mülki vətəndaşlarımızın üstünə yağış kimi mərmilər yağdırırdılar…

Nənəsinin dediklərindən: “Nəhayət, bir gün evimizə zəng gəldi. Hərbi Hospitalın həkimlərindən biri idi. Dedi ki, Siz nigaran olmayın. Orxan hospitaldadır, səhhəti yaxşıdır. Öyrəndik ki, Orxan Murov dağ istiqamətində gedən döyüşlərdə düşmənin attığı “Orad” nəticəsində baş nahiyyəsindən qəlpə yarası alıb. Həmin zaman 2 nəfər şəhid olub və 4 nəfər isə yaralanıb. Anası və bacısı Mingəçevir şəhərindəki Hərbi hospitala nəvəm ilə görüşməyə gediblər. Mən Orxan üçün bal göndərdim, anca ona qismət olmadı. Çünki, onlara yaralı balamızla görüşməyə icazə vermədilər. 10 günlük müalicədən sonra o, yenidən cəhəyə qayıtdı…”

Hospitaldan qayıtdıqdan sonra daha şücaətlə, intiqam hissi ilə, qürurla, daha müdrikliklə döyüşlərə qatılan-MAHHXHQ çavuş Orxan Cumayev mərd döyüşçülərimizlə birlikdə Fərrux dağını, Ballı qayanı, Murov Dağ silsiləsini mövqelərimizdən, Tərtər rayonunun bir sıra kəndlərinin Talış, Suqovuşanı, Hadrutu, Tığ kəndinin düşməndən azad olunmasında əsil fədakarlıq göstərdilər.

Düşmənin başlarını əzərək, Azərbaycanın əbədi torpaqlarını qaytarıblar.

Orxn Cumayev sonuncu dəfə əzizləri ilə ölümündən 1 həftə əvvəl, döyüşə getməzdən əvvəl zəng edib, danışıb. Nənəsi deyir ki, səhər saat 630 -da mənimlə, sonra isə anası ilə danışdı. Deyirdi ki, hər bir xidmətləri öz qaydasında gedir, düşmənə layiqli cavab verirlər, hətta telefonda nənəsinə zarafatla deyib ki, “Deyəsən Budaq babamın (onun babası bir neçə ay əvvəl dünyasını dəyişmişdi. E.M.) yanına gedəcəyəm...” Anaxanım nənəsi deyir ki, son vaxtlar yuxusu ərşə çəkilmişdi, nəvəsinə görə, narahatlıq keçirirdi…

Mərd, Vətən uğrunda hər an həlak olmağa hazır olan - MAHHXHQ çavuşu, bölük komandiri Orxanın şəhid olması xəbərini ilk eşidən nənəsi olub. Həmin gün, yenə noyabr ayının 2-də anası Rahilə xanım Bakıda qadın salonlarının birində çalışan qızı Fatmanın yanında idi…



Orxanın haqq dünyasına qovuşması xəbərini alan kimi təcili Zaqatalaya qayıdıblar, və…

Bir bacının bir qardaşı olan, noyabr ayının 1 -də Naftalan-Goranboy-Tərtər, Hadrut, Xocavənd istiqamətində gedən qızğın döyüşlərdə qəhrəmancasına döyüşərək, xain düşmənə qan udduran Şanlı Ordumuzun fədakar hərbi qulluqçusu, döyüş meydanında yaralı yoldaşlarına kömək edib, yenidən döyüşə qayıdan Orxan Cumayev namərd düşmənin gülləsinə tuş gəldi… böyük hünər göstərərək, həlak oldu. Murov və Fərrux dağ zirvələrini erməni dığalarından təmizləyən, onlara od ələyən Orxan şəhidlik zirvəsinə yüksəldi… Kiçik yaşlarından o, xoşlayırdı ki, səmamız mavi olsun, qara buludlar almasın.

Zaqatala şəhəri, Şıxali Qurbanov adına 3 saylı tam orta məktəbini 2017 -ci ildə bitirmişdi. Idman və hərbi oyunlarına çox meyilli idi. Dərs məşğələlərinə fəal hazırlaşırdı və məktəbin pedaqoji kollektivi onun dərsə davamiyyətindən, məktəbdə təşkil olunan tədbirlərdəki fəal iştirakından və hərbi hazırlığa xüsusi üstünlük verdiyindən razı qalar və nümunəvi şagird kimi təqdim edərdilər. Bu Böyük Vətən Müharibəsində Şanlı Ordumuzla birgə torpalqarımızın azadlığı, Vətənimizin bütövlüyü naminə - şəhid və qazi olan hər biri bizim əziz balalarımız, fəxrlərimiz, bizim şanlı tarixi yazan igidlərimizdir. Həmişə qəlbimizdə yaşar, gələcək nəsillər, bu günki yeniyetmələr və məktəblilər üçün əsil fədakarlıq simvollarıdur. Vətənpərvər, gənc yaşlarında, qəlblərində min cür arzuların çiçəkləndiyi bir dövrdə, qorxu nədi bilmədən, düşmənləri əzərək, tarixi dərs keçən, şəhadət dünyasına qovuşan oğullarımızla, onların valideynləri və əzizləri ilə fəxr etməliyik - Orxan Fətəli oğlu Cumayev kimi igidlərimizlə. O, İkinci Vətən Savaşı başlandığı andan hərbi qulluqçu kimi cəbhənin ən qaynar mövqelərə əsil qəhrəmanlıq şücaəti göstərmişdir. Mətn və iradəli gənc döyüşçü ağır döyüşlərin birində ağır yaralansa da yenidən döyüşə qayıtdı. Növbəti döyüş zamanı çavuş Orxan Cumayevin bölüyü düşmənin çoxlu döyüş texnikasını sıradan çıxarmış və canlı qüvvəsini məhv etmişdir. Döyüş meydanındakı mətinliyi, inadkarlığı ilə seçilərdi Orxan. O, digər hərbiçilərə də nümunə olub. 3 saylı tam orta məktəbin məzunu olan Orxan Cumayev hər döyüşdə bizim adımızı uca etdi. Valideynlərinin və müəllimlərin aşıladıqları vətənpərvərlik ruhuna uyğun hərəkət etdi və qəlbən əzizlədiyi vətən uğrunda şücaət göstərərək həlak oldu. Ömrünün gənclik çağlarında daimi yaşayacaq, xatırlanacaq qəhrəmanlıq yaratdı. Biz səninlə fəxr edirik, qürur duyuruq, şəhid balamız - Orxan!”

Bizim Orxan balamız səmamızın açıq olması üçün canını fəda etdi və inanırıq ki, onun bu qəhrəmanlığından gələcək nəsillər dərsliklərdə, bədii kitablarda xəbər tutacaqlar.

Orxan Cumayev də təntənəli şəkildə, elin müşayiətilə noyabr ayının 2 -də böyük hörmət və izzətlə Zaqatala şəhərində Birinci, İkinci Qarabağ Savaşlarında həlak olan şəhidlərin uyuduğu qəbristanlıqda, onların cərgəsində torpağa tapşırıldı.

Bu, cəsur el oğullarımızın xatirəsi tarixlər boyu qəlbimizdə yaşayacaq… Qüssələnmə Rahilə ana, nəvənlə fəxr et Anaxanım nənə, Qürurlu ol Fətəli bəy, başını dik tut Fatma bacısı, bibilər, xalalar, dostlar və əzizlər…

…Ruhun şad olsun, şanlı ordumuzun xilaskar hərbi qulluqçusu, çavuş - Orxan! Rahat uyu - sənin uğrunda döyüşdüyün Qarabağın hər tərəfində büründüyün üçrəngli Zəfər bayraqları dalğalanır…

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Nar bayramı UNESCO-nun Reprezentativ Siyahısına daxil edilib



***"Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilib.***

Mədəniyyət Nazirliyindən "Unikal"a bildirilib ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin 15-ci iclası keçirilib. Bu gün, Azərbaycan Respublikasının təqdim etdiyi "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" adlı nominasiya sənədi UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilməsi haqqında qərar qəbul olunub. Ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən belə bir qərarın qəbul olunması Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Xarici İşlər Nazirliyi, UNESCO yanında Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi və UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının birgə fəaliyyəti nəticəsində mümkün olub.

İclasda Azərbaycan Respublikasının nümayəndə heyəti adından çıxış edən Mədəniyyət Nazirliyinin rəsmisi Vasif Eyvazzadə qəbul olunmuş qərara görə ölkəmiz adından UNESCO-ya və qurumun qiymətləndirmə orqanına öz təşəkkürünü bildirib, nar mədəniyyəti və ənənələrinin Azərbaycan xalqının mədəni həyatında, mifologiyasında, qədim adət-ənənələrində, mətbəxində, kənd təsərrüfatında xüsusi yer tutduğunu vurğulayıb. Təşəkkür nitqində bu nominasiya faylının müvafiq siyahıya daxil edilməsi ilə "Nar mədəniyyəti"nin qorunmasına və gələcək nəsillərə ötürülməsinə əhəmiyyətli töhfənin verildiyi qeyd edilib.

UNESCO ilə əməkdaşlığın genişləndirilməsində, mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində əvəzsiz xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi ilə hazırda "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi", kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Çovqan - ənənəvi Qarabağ atüstü oyunu və "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" isə UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır.

# "Miniatür sənəti" də UNESCO-nun Reprezentativ Siyahısına daxil olunub

***UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 15-ci iclası keçirilir.***

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 16-da Türkiyə, Azərbaycan, İran və Özbəkistanın birgə hazırladığı "Miniatür sənəti" nominasiya sənədi müzakirə olunub və bu mədəni elementin UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilməsi haqqında qərar qəbul edilib. Ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən belə bir qərarın qəbul olunması Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi, Mədəniyyət və Xarici İşlər nazirlikləri, UNESCO yanında Azərbaycan Respublikasının daimi nümayəndəliyi və UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının birgə fəaliyyəti nəticəsində mümkün olub.




Yaxın və Orta Şərq xalqları incəsənətinin maraqlı və zəngin hissəsini təşkil edən Azərbaycan miniatür sənəti dünya incəsənəti tarixində özünəməxsus yer tutur. Çoxmillətli nominasiya sənədində göstərilir ki, miniatür sənəti təqdim edən dövlətlərin cəmiyyətlərinin sosial və mədəni kimliyinin ayrılmaz hissəsi kimi qəbul edilir. Hər miniatür əsəri tarixi və mədəni irsin mövcudluğuna kömək edir, keçmiş və bu gün arasındakı mədəni bağları gücləndirir və ənənəvi memarlıq, mərasimlər, mədəni hadisələr və gündəlik həyatın bir çox digər sahələrini əks etdirən zəngin vizual məzmunu ilə tarixi sənəd roluna malikdir.

Qeyd edək ki, hər zaman olduğu kimi, bu dəfə də Ermənistan iclasdan bir neçə həftə öncə təxribat törətməyə cəhd edib, UNESCO-ya göndərdikləri müvafiq etiraz müraciətlərində nominasiya sənədində Azərbaycanın Qarabağ ərazisində miniatür sənəti ilə bağlı məsələlərin qeyd edilməsinin guya yolverilməz olduğunu ifadə ediblər. Bununla yanaşı, Qarabağ miniatür sənətinin yalnız ermənilərə və xristian irsinə aid olduğunu iddia ediblər. Azərbaycan tərəfindən beynəlxalq hüququn prinsiplərinə, 2003-cü il Konvensiyanın ruhuna və tarixi həqiqətlərə istinad olunaraq təxribatçı ölkəyə müvafiq olaraq layiqli cavab verilib.

UNESCO ilə əməkdaşlığın genişləndirilməsində, mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində əvəzsiz xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi ilə hazırda "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti", "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi", kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti, "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Çovqan- ənənəvi Qarabağ atüstü oyunu və "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin isə UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır.



# Xalq artisti Murad Hüseynov beynəlxalq videokonfransda iştirak edib

***Beynəlxalq Muğam Mərkəzinin direktoru Murad Hüseynov "Beynəlxalq ictimai münasibətlərin maddi-mədəni əsasları" adlı beynəlxalq onlayn müzakirədə iştirak edib.***

Beynəlxalq Muğam Mərkəzinin direktoru, Xalq artisti Murad Hüseynov Avrasiya Xalqları Assambleyası tərəfindən təşkil edilən "Beynəlxalq ictimai münasibətlərin maddi-mədəni əsasları" adlı beynəlxalq onlayn müzakirədə iştirak edib.

Onlayn konfransın tərəfdaşları Rusiyanın UNESCO üzrə Komissiyası, Avrasiya yaradıcılıq gildiyası (London), Beynəlxalq Muğam Mərkəzi, İtaliyanın Verona şəhərindəki Rus Mədəniyyət Mərkəzi və Lixtenşteyn Milli Muzeyidir. Onlayn konfransın məqsədi dünya ictimaiyyətinin diqqətini humanitar təhlükəsizliyə və beynəlxalq mədəni əməkdaşlığın yeni formalarına yönəltməkdir.

Konfransda cəmiyyətlərin mədəni və humanitar təhlükəsizliyi. Müasir dünyanın humanitar problemləri, qlobal təhdidlər qarşısında daim ortaya çıxan və dünya ictimaiyyətini narahat edən məsələlər, beynəlxalq gündəmdə mədəniyyətin formalşmasının təsirləri, cəmiyyətlərin maddi-mənəvi mədəni əlaqələrinin gələcəl sivilizasiyalara təsiri məsələləri müzakirə edilib. Konfrans Avrasiya Xalqları Assambleyasının Baş katibin birinci müavini Svetlana Smirnovanın moderatorluğu ilə keçirilib.

Qeyd edək ki, ötən il Azərbaycanda keçirilən Avrasiya Xalqları Assambleyası Günləri çərçivəsində sentyabrın 30-da Avrasiya Xalqları Assambleyası və Beynəlxalq Muğam Mərkəzi arasında birgə əməkdaşlıq sazişi imzalanıb.

Beynəlxalq Muğam Mərkəzi bir sıra xarici ölkələrin qurumları və mədəni təşkilatları ilə beynəlxalq əlaqələrini fəal şəkildə genişləndirir. Beynəlxalq əlaqələrini genişləndirən BMM artıq bir sıra ölkələrin institut və təşkilatları ilə əlaqələr yaratmağa nail olub. Bu əlaqələr nəticəsində qarşılıqlı əməkdaşlıqla bağlı memorandumlar imzalanıb. BMM muğam və milli musiqimizin təbliği çərçivəsində müxtəlif mədəni tədbirlərin, mühazirələrin və onlayn layihələrin inkişaf planı, hazırda beynəlxalq onlayn konfransların təşkili istiqamətində işlər aparılır.Gələcəkdə Mərkəz tərəfindən keçirilən müxtəlif növ mədəni tədbirlərlə bərabər onlayn beynəlxalq konfransların təşkili nəzərdə tutulub.

# "Fəridə" tammetrajlı bədii filmi iki beynəlxalq mükafat aldı

***"Narimanfilm" kinostudiyasının istehsalı olan "Fəridə" tammetrajlı bədii filmi beynəlxalq "Stalker" insan haqları haqqında filmlər festivalında iki mükafat alıb: qadın taleyinin həqiqətləri açıqlamasına görə rejissor Ksenia Lagutinaya Münsiflər Diplomatı, eyni zamanda Birləşmiş Millətlər Təşkilatı Ali Komissarlığının Xüsusi Mükafatına layiq görüldü.***

Beynəlxalq "Stalker" İnsan Hüquqları Film Festivalı, Rusiyada yeganə və dünyadakı film nümayişlərində insan haqları mövzusunda filmlər yaratmağa təşviq edən film nümayişlərində biridir. "Stalker" kinofestivalı dekabr ayının 10-dan 15-dək keçirilmişdir. Mükafatlandırma dekabrın 15-də baş tutmuşdur.

"Narimanfilm" kinostudiyası "Fəridə" tammetrajlı bədii filmini Sankt-Peterburq Yeni Kino Məktəbi ilə birlikdə istehsal etmişdir. Filmin sürəkliliyi 70 dəqiqədir. Ssenari müəllifi və rejissoru Kseniya Laqutina, operatoru Dmitriy Naqovskiy, səs rejissoru Aleksandr Demyanov, prodüseri Nəriman Məmmədovdur.

Baş qəhrəman rolunu gənc aktrisa Məryəm İbrahimova ifa edir. Digər rollarda Abdukərim Nasirov, Dilya Ulaşeva və başqaları çəkilmişlər.

Film Azərbaycanın Xınalıq kəndindən Sankt-Peterburqa gələn Fəridədən bəhs edir. Eşitmə problemləri olan gənc qız öz həyat yoldaşı Muradın axtarışındadır. O, Muradın harada olduğu haqqında tam xəbərsizdir. Böyük şəhər Fəridəni bir çox insanlarla qarşı-qarşıya qoyur və onun bütün həyatını alt-üst edir.

# Aspirin və kardiomaqnilin fərqi - Hansı effektivdir, kimlərə olmaz?

***Koronavirus pandemiyasının məşhur etdiyi dərmanlardan daha biri: kardiomaqnil. İndi gənclər də virusla mübarizədə bu dərmanı için, həkim reseptinin əsas preparatıdır.***

Halbuki ötən ilə qədər bu dərmanlar yalnız ciddi ürək xəstələrinə, yaşlı insanlara təyin olunardı.

Medicina.az qandurulducu olan aspirin və kardiomaqnilin fərqli cəhətlərini təqdim edir.

- Hər ikisinin tərkibində əsas təsiredici maddəsi asetilsalisil turşusudur.

- Kardiomaqnildə əlavə olaraq hidroksid maqniy də var. Bu element ürək əzələri və damarların işini aktivləşdirir.

- Kardiomaqnil trombositlərin aqreqasiyasını azaldır, tromb əmələ gəlmə prosesini bloklayır

- Ona görə kardiomaqnilin tromboz, ürək-damar problemi və infarkta qarşı qəbulu daha məqsədəuyğundur.

- Eləcə də kardiomaqnildə antasid maddəsi var ki, bu da mədənin divarını asitil turşusunun təsirindən qoruyur. Ona görə kardiomaqnil diabet, mədə-bağırsaq problemi və yaşlı insanlara da rahatlıqla təyin edilə bilər.

Aspirin və aspirin kardio isə həm də qızdırma salıcı, baş ağrı kəsici təsiri var. Adi aspirindən fərqli olaraq aspirin kardionun müdafiə təbəqəsi var ki, mədəyə təsir etmir.

Həm aspirin kardio, həm kardiomaqnil yeni nəsil antiaqreqantdır. Onlar antikoaqulyant deyillər.

Aspirin kardionun tərkibində isə yalnız asetilsalisil turşusu var.

Amma aspirindən fərqli olaraq kardiomaqnilin tez-tez qəbulu mədə selikli qişasına və ümumi orqanizmə elə də ciddi zərər vurmur.

**Aspirin qəbulu hansı hallarda əks göstərişdir:**

- Hamiləliyin ilk 3 ayı
- Diatez xəstəliyi
- Kəskin ürək çatışmazlığı
- Astma
- Qaraciyər çatışmazlığı
- Dərmana qarşı yüksək həssaslıq, bronxospazm

15 yaşına kimi xəstələrə aspirin Reye sindromu riski olduğu üçün təyin olunmur

**Kardiomaqnil hansı xəstələrə olmaz:**

- Ürəyin yüksək dekompensasiyası
- Qanaxmalara meyillilik
- Kəskin daxili xoraların olması
- Qaraciyər yetməzliyi
- Bronxial astma

Bu preparatları yalnız həkim təyin edir və doza həddini aşmaq olmaz.

# Toyuq filesi haqqında dəhşətlər- Biz nə yeyirik?

***Alıcıların ən çox aldığı file - toyuğun döş əti insan qidalanmasında zülal mənbəyi kimi ən vacib qidalardan biridir.***

İstehsalçılar da toyuğun digər hissələrinə nisbətən filenin daha çox alındığını bilərək ətin daha çox çəkili olması üçün əllərindən gələni edir.

Medicina.az broyler toyuğu filesi barədə bəzi məqamları təqdim edir.

Quşçuluq fabriklərində toyuğun orta ömür müddəti tsikli 6-7 həftədir. Bu müddətdən sonra kəsilməsə öləcək.

5-7 həftəyə toyuğun file əti lazımi ölçüyə çatdırılmalıdır.

İstehsalçı qısa müddətdə fileni şişirtmək üçün ən ucuz yem və aqresiv preparatlardan, sintetik hormonlardan istifadə edir.

Toyuq ətinə kimyəvi müdaxilə hələ inkubasion dövrdə başlayır. Yumurtaları xüsusi defizinfektantlarla işləyirlər.

Cücələri isə vaksin və antibiotiklərlə yetişdirirlər.

Vaksinasiya cücələri xəstəliklərdən qorumaq üçündür. Bu metod kütləvi aparılır. Sexdə aerozolla səpilir və ya suya dərman qatılır.

Əslində bütün vaksinlər insan və heyvanlar üçün təhlükəsizdir və sertifikatı olmalıdır.

Lakin təhlükə ondadır ki, vaksin üçün keyfiyyətsiz, ucuz preparatlar seçilir, toyuqlar immunizasiyaya hazırlanmır.

Artıq düzgün olmayan vaksinasiyadan keçmiş toyuğun əti keyfiyyətsizdir.

Antibiotiklər isə toyuqları sağ-salamat yetişdirmək üçün lazımdır. Ona görə toyuqlara kurs şəklində antibiotiklər verilir.

Antibiotikli ətin isə insan orqanizminə fəsadları çoxdur:

-İnsanın qaraciyər, böyrək, həzm orqanlarını zədələyir, işini pozur

-Allergik insanlarda kəskin reaksiyalar verir

-Amma ən pisi hər dəfə toyuq əti yedikcə, insan müəyyən miqdar antibiotik dozası alır. Bu da insanda antibiotiklərə qarşı davamlılıq yaradır. Yəni birdən insan bronxit və ya pnevmoniya olsa, ona toyuqlara verilən antibiotik növlərində dərmanlar təsir etməyəcək.

-Toyuqların yemi: burda zəhərli pestisidlərdən tutmuş qadın hormonu estrogenlərə kimi hər şey qatılır. Bunlar hamısı toyuğun sürətlə çəki yığması üçündür.

-Toyuq filesi çox yeyən qadınlarda bu səbəbdən hormonal disbalans, menstruasiya pozğunluğu, sonsuzluq yarana bilər.

-Hormonal qatqılar immuniteti çökdürür, dəridə səpkilər yaradır, uşaqlarda isə cinsi yetişənlik inkişafdan qalır.

Satışa verilən hər partiya diqqətlə yoxlanılmır. Yoxlama olan vaxt ola bilər ki, ətdə dərman, antibiotik, hormon göstəricisi normada olsun. Sonradan istehsalçı eyni templə davam edir.

Ona görə toyuq filesinin seçilməsində yenə də əsas yük alıcının üzərinə düşür. Brendin reputasiyası, yoxlama göstəriciləri, istehsalı barədə məlumatınız varsa, o istehsalçının toyuq ətini alın. Çalışın həddən artıq çox şişmiş toyuq və file almayasız

Amma ən yaxşısı budur ki, kənddə yetişmiş və uzun ömür sürən toyuqlara üstünlük verəsiz.

# Oynaq çürüməsi nədir? - Əməliyyatsız müalicəsi

***Avaskulyar nekroz bu günə qədər də tibbdə müalicəsində ən ümidsiz diaqnozlardan biridir. Əvvəllər yaşlı insanlarda rast gəlinirdi, indi isə xəstəlik 25-30 yaşlı, daha çox kişiləri qəfil yaxalayır. Əslində, oynaq başının nekrozu birdən başlamır, illərlə davam edir, gizli gedir.***

Medicina.az oynaq başı çürüməsinin mülalicəsində əməliyyatsız və daha effektiv metod barədə məlumatı təqdim edir.

Oynaqlarda çürümə - istənilən oynaq başında, daha çox iri oynaqlarda rast gəlinir. Az hallarda çiyin oynağında rast gəlinir.



Bud oynağını qidalandıran arteriya damarında baş vermiş daralma, zədələnmə, tutulma, qırılma nəticəsində bu oynaqların yegamə qidalanma mənbəyi kəsilir, zəfləyir, oynaq qanla qidalanmır və onda el dilində desək qaralma başlayır. Oynağın normal strukturu çürüyür.

İlk vaxtlarda xəstə bunu hiss etmir, amma bir neçə il keçdikdən sonra ağrılar başlayı Çox zaman iinsanlar artroz, revmatizmdən şübhələnirlər, müxtəlif həkimlərə gedir, ağrıkəsicilər vururlar.

Təsadüfi müayinə nəticəsində və ya düzgün mütəxəssisə getdildə oynaq başı MRT olunarsa, nekroz aşkarlanır.

Artıq Azərbaycanda 30 yaşında da oynaq başı nekrozundan əziyət çəkən kişi və qadınlara rast gəlinir. Bunun da öz obyektiv səbəbləri var.

Gənc insanlar bu ağrılara ciddi yanaşmır, əzələ, sümük ağrısı ilə səhv salır. Həkimə illərlə yubanırlar.

Oynaq nekrozunun yaranma səbəbləri. Kimlər risk aıtındadır?

- Böyrək xəstəliklər olan insanlarda
- Çox ağır travma, qəza alanlarda
- Qəfildən bud, çanaq üzərinə yıxılma nəticəsində
- Vərdişi, anadangəlmə oynaq çıxıqları olanlarda
- Uzun müddət hormonal dərmanlar dərmanlar qəbul ediləndə

Revmatizm, dağınıq skleroz, revmatoid poliartrit xəstələrində müəyyən dövrdən sonra oynaq başı nekrozlaşa bilər.

- Alkoqol qəbul edənlərdə, içki aludəçilərində
- Zərərli vərdişlər, zərərli qidalanma

Bud çanaq oynaqları çox həssasdır, asanlıqla zədələnə, arteriyası zədələnə bilər.



### Diaqnoz və müalicə

Əslində bud çanaq oynağı nekrozları ilə travmatoloqlar bu günə kimi məşğul olurdu. Onlar oynaq çürüməsində istənilən halda əməliyyat və protezlənmə, süni oynaq tövsiyə olunur. Xəstənin bundan başqa çarəsi olmadığı deyilir.

Lakin bir neçə Ildir ki, dünyada, Türkiyədə, eləcə də Azərbaycanda yeni kök hüceyrə metodikası ilə oynaq başı çürüməsinin müalicəsi və bərpası həyata keçirilir və xəstələr əməliyyatsız daha asan xilas olunur.

Diaqnoz üçün siz Kök hüceyrə mərkəzinə gedib, mütəxəssisin müayinəsindən keçir, rentgen və ya MRT olunur, daha sonra xəstənin öz qarın yağlarından kök hüceyrə alınaraq, işlənilir. Əməliyyatxanada cəmi bir saat ərzində hazırlanmış kök hüceyrə hər iki oynağa köçürülür. Xəstə bu zaman sedasiya altında olur və heç bir şey hiss etmir.

Xəstə klinikada qalmadan evə göndərilir və bir müddət yataq rejiminə əməl edir.

Kök hüceyrə oynaqda yerini alır və orda nekroz olan hissənin hüceyrələrini bərpa edir.

Kök hüceyrə oynaq qığırdağını qidalandırır.

Yadda saxlayın ki, oynaqda nekroz diaqnozu varsa onu heç bir dərman, xaricdən təsir, masaj, aparat, nevroloji dərmanlar, hormonlar və s ilə müalicə etmək mümkün deyil. Xəstə yalnız vaxt itirir və həkimin də, müalicənin də işini çətinləşdiirr. Əgər oynaq ilkin mərhələdə nekrozlaşanda və ya çürüməyə başlayanda müraciət olunsa, qısa müddətə tam sağalır.

Əgər sizə avoskulyar nekroz diaqnozu qoyulubsa və travmatoloq əməliyyat deyirsə, əməliyyat qərarından öncə bir kök hüceyrəyə üz tutun. Çünki böyük ehtimalla siz bu problemdən əməliyyatsız qurtula bilərsiniz.

Süni oynaq protezi qoymağa tələsməyin, bu həmişə mümkündür və ən son variantdır!

***Kök hüceyrə mütəxəssisi, uzman Sevinc Heydərova***

# "Tokio-2020 baş tutsa, təkcə olimpiya deyil, ünya tarixinə düşəcək"

***"Həmişə demişəm ki, Tokio Olimpiya Oyunları tarixində ən hazırlıqlı şəhərdir".***

"Unikal" qəzetinin məlumatına görə, bunu Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax deyib.

O bildirib ki, koronavirus pandemiyası üzündən 2020-ci ildən 2021-ci ilə təxirə salınan Yay Olimpiya Oyunları tarixə düşəcək: "Həmişə tarixi sözünü işlədəndə ehtiyatlı olmuşam. Amma bu Olimpiada tarixi olacaq".

Yaponiya paytaxtının yarışa hazırlığını yüksək qiymətləndirən Bax asiyalıların səylərini dəyərləndirib: "Yarış baş tutsa, sübhisiz ki, təkcə olimpiya deyil, dünya tarixinə düşəcək".



Qeyd edək ki, Olimpiya Oyunlarının təxirə salınması üzündən əlavə xərcləri 2,8 milyard dollar təşkil edəcək.

# Qardaşı Maradonanı təhqir edən KİV-ləri məhkəməyə verdi

***Argentina millisinin sabiq kapitanı və baş məşqçisi Dieqo Maradonanın kiçik qardaşı Uqo Maradona İtaliyanın bir neçə kütləvi informasiya vasitəsini (KİV) Neapol məhkəməsinə verib.***

"Unikal" qəzetinin xarici KİV-ə istnadən verdiyi məlumata görə, o, mərhum qardaşına qarşı təhqir və böhtanın artmasını əsas gətirərək, 100 000 avro məbləğində təzminat tələb edir.



U.Maradona bəzi KİV-ləri veteran hücumçunu gombul və oğru adlandırmaqda günahlandırıb: "Kiməsə bu adı qoymaq onun fiziki qüsurlu olmasına sataşmaqdır. Maradona nə oğru, nə də vergidən yayınan olub. Məhkəmənin bununla bağlı qərarı var. Onun vəkili olmuşam və nə dediyimi yaxşı bilirəm".

Qeyd edək ki, Dieqo Maradona noyabrın 25-də ürəktutmasından dünyasını dəyişib.

# AFFA FIFA referilərinin yeni siyahısını açıqladı

***2021-ci ildə Azərbaycanı beynəlxalq oyunlarda təmsil edəcək FIFA referiləri açıqlanıb.***

"Unikal" qəzeti onların ali futbol qurumu tərəfindən təsdiqlənmiş siyahısını təqdim edir...

Referilər:
1. Ağayev Əliyar
2. Cabarov Rauf
3. Məsiyev Elçin
4. Qurbanova Yuliya

Referi köməkçiləri:
1. Əmirəli Akif
2. Zeynalov Zeynal
3. Hüseynov Namik
4. Abdullayev Elşad
5. Talıbov Pərvin
6. Yusifov Cavanşir
7. Əkbərzadə Gülnurə
8. Nurıyeva Sevda

Futzal
1. Qafarlı Hikmət
2. Cəbrayılov Əli
3. Əmiraslanov Knyaz

Çimərlik futbolu
1. Məmmədov İnqilab
2. Nağıyev Nail

# Model Ronaldo və Messini kölgədə qoydu

***2020-ci ilin ən yüksək ödənişli məşhurlarının siyahısı açıqlanıb.***

"Unikal" qəzetinin məlumatına görə, "Forbes" nəşrinin cədvəlində "Top-5"də üç idmançı yer alıb.

106,3 milyon dollar qazanan tennisçi Rocer Federer siyahıda 3-cüdür. İtaliya "Yuventus"unun portuqaliyalı futbolçusu Kriştiano Ronaldo ondan cəmi 1,3 milyon az əldə edərək 4-cü pillədə qərarlaşıb. İlk "beşliy"i İspaniya "Barselona"sının argentinalı ulduzu Lionel Messi qapayır - 104 milyon.



Daha iki idmançı ilk "onluq"da yer alıb. Fransa PSJ-sinin braziliyalı forvardı Neymar 95,5 milyonla 7-ci, "Los Anceles Leykers"in basketbolçusu Lebron Ceyms 88,2 milyonla 9-cudur.

Qeyd edək ki, ilin yekunlarına əsasən ilk pillədə model Kayli Cenner yar alıb. O, 590 milyon qazanc əldə edib. Reper Kanye Uest 170 milyonla ikinci olub.

# Serbiya yığmasını Azərbaycanla oyuna məşhur mütəxəssis çıxara bilər

***DÇ-2022-nin seçmə mərhələsində Azərbaycan millisinin rəqiblərindən olan Serbiya yığmasında baş məşqçi vəzifəsinə əsas namizədlər müəyyənləşib.***

"Unikal" qəzeti "sportskacentrala.com" saytına istinadən xəbər verir ki, Lyubişa Tumbakoviçin istefasından sonra bu post üçün 3 nəfərin adı hallanır.

Bunlar Vladan Miloyeviç, Savo Miloşeviç və Draqan Stoykoviçdir. İddiaya görə, Serbiya Futbol İttifaqı əsasən Stoykoviçlə intensiv danışıqlar aparır. Əslində tərəflər arasında ilkin razılıq əldə olunduğu bildirilir. Sadəcə 55 yaşlı mütəxəssisin Çinin "Quançjou Fuli" klubu ilə müqaviləsi davam etdiyindən təyinat gecikir. Hazırda federasiya bu problemi aradan qaldırmağa çalışır.

Qeyd edək ki, Azərbaycan millisi seçmə mərhələdə Portuqaliya, Serbiya, İrlandiya, Lüksemburq və Qətərlə birlikdə A qrupunda yer alıb. Canni De Byazinin başçılıq etdiyi komanda serbiyalılarla ilk matçını martın 30-da Bakıda keçirəcək.

# Qışda daha bir klub futbolçu almayacaq

***Avropanın daha bir nəhəng klubu qış transfer dövründə futbolçu almamağa qərar verib.***

"Unikal" qəzetinin məlumatına görə, koronavisur pandemiyası üzündən müəyyən maliyyə çətinlikləri yaşayan "Mançester Yunayted" yeni transferə pul ayırmaqdan imtina edib.

Düzdür, baş məşqçi Ole-Qunnar Sulşer sağ cinah müdafiəçisi, mərkəz müdafiəçisi və vinger alınmasını istəyir. Lakin İngiltərə klubunun rəhbərliyi mütəxəssisə yaya qədər gözləməyi məsləhət bilib.

Qeyd edək ki, Almaniya "Bavariya"sı və İtaliya "İnter"i də qışda futbolçu almaq niyyətindən uzaqdır.

# AFFA-dan dəvət alan futbolçu klubundan qovuldu

***Türkiyənin "Kayserispor" klubu qış fasiləsi yaranmamış bir futbolçusu ilə yollarını ayırıb.***

"Unikal" qəzetinin məlumatına görə, Super Liqa təmsilçisi yarımmüdafiəçi Hasan Hüseyin Acarla vidalaşmaq qərarına gəlib. Maraqlıdır ki, 26 yaşı tamam olan yarımmüdafiəçi ilə məhz doğum günündə müqaviləyə xitam verilib. O, 2018-ci ildən "Kayserispor"da çıxış edirdi.

Qeyd edək ki, Hasan Hüseyin Acar bu ilin mayında Azərbaycan millisində oynamaq üçün AFFA-dan təklif aldığını, lakin Türkiyə yığmasında çıxış etmək arzusuna görə, bundan imtina etdiyini açıqlamışdı.

# "Neftçi"də vəziyyət düzəlir: Cəmi üç futbolçu müalicə alır

***"Neftçi"də koronavirusa kütləvi yoluxma ilə bağlı situasiya qaydasına düşüb.***

"Unikal" qəzeti klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, flaqmanda yalnız fransalı Stiven Jozef-Monroz, albaniyalı Bruno Teluşi və ehtiyat qapıçı Kamran İbrahimov koronavirusdan ev şəraitində müalicə alır. Digər futbolçular, eləcə də baş məşqçi Samir Abbasov sağalıb. Onlar artıq komanda ilə birgə məşqlərdə iştirak edirlər. Qeyd edək ki, "Neftçi" dekabrın 20-də Azərbaycan Premyer Liqasının XII turu çərçivəsində "Sabah" klubunun qonağı olacaq. Görüş saat 17:15-də başlayacaq.

# Bakı klubunun keçmiş baş məşqçisi koronavirusdan vəfat etdi

***Bakının "İnter" klubunun (hazırkı "Keşlə) sabiq baş məşqçisi Valentin Xodukin vəfat edib.***

"Unikal" qəzeti Ukrayna mətbuatına istinadən xəbər verir ki, o, 81 yaşında koronavirusdan dünyasını dəyişib.

Qeyd edək ki, Valentin Xodukin 2006 - 2009-cu illərdə Bakı klubunda işləyib. O, 2007/2008 mövsümündə komanda ilə ölkə çempionu olub. Komanda növbəti mövsüm onun rəhbərliyi altında Çempionlar Liqasının birinci təsnifat mərhələsində iki oyunun nəticəsinə əsasən Şimali Makedoniyanın "Rabotniçki" klubunu mübarizədən kənarlaşdırıb - 0:0, 1:1.

Səhifəni hazırladı: Aygün İlqarqızı